Xalqın qəzeti!

# Xalq qəzeti

№ 32 (30436) 13 fevral 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az


## Nikolun “The Telegraph” nağılı

The Telegraph

Səhifə ⇨ 6




# Prezidentin anonsunu verdiyi dövr başlanır

**Dövlət başçımızın bu il yanvarın ilk ongünlüyündə yerli televiziya kanallarına verdiyi müsahibədə səsləndirdiyi “yeni mərhələ” ifadəsi artıq təkcə ölkəmizdəki siyasətçi, ekspert və mətbuat təmsilçilərinin deyil, dünyanın hər yerindəki dost və tərəfdaşlarımızın leksikonunda da yer tutmaqdadır.**

Həqiqəti söyləməyi, obyektiv danışmağı bacaran hər kəs etiraf edir ki, ötən ilin sentyabrında ölkə ərazisi üzərində tam suverenliyini təmin edən İlham Əliyevin işğaldan azad olunmuş bölgələrdə də prezident seçkiləri keçirmək təşəbbüsü və bunu yüksək səviyyədə yerinə yetirməsi ən yeni Azərbaycan reallıqlarıdır.

*(ardı 5-ci səhifədə)*

## İrəvanın Avropa İttifaqı üzərindən əks-təbliğat oyunbazlığı



Səhifə ⇨ 4

## “Əsrin müqaviləsi”nin yeni hədəfləri

Səhifə ⇨ 7



## Milli vergi sistemi iqtisadi yüksəlişi stimullaşdırır



Səhifə ⇨ 7

## Avropanın suverenlik konstruksiyası pas atıb



Səhifə ⇨ 10

## Qədim türk yurdu – Azərbaycanın ayrılmaz hissəsi



Səhifə ⇨ 8

# Ermənistanda islahat məntiqi: Paşinyanın istəyi və 1999-cu ilin terroru

### Nikolun Qarabağ avantürasına və qonşulara qarşı ərazi iddiasına sözardı

**Ermənistanda konstitusiya islahatları ilə bağlı məsələ ətrafındakı söz-söhbətlər səngimir. Əksinə, diskussiyalar zaman keçdikcə daha kəskin xarakter alır. Belə bir durumda mövcud təşəbbüsü irəli sürən baş nazir Nikol Paşinyan, müəyyən mənada, tək görünür. Necə deyərlər, döyüşdə tək qalan isə heç də həmişə cəngavər sayılmır.**



Bəli, sözügedən təşəbbüs Ermənistanda, sanki, soyuq duş effekti yaradıb. Hər halda, müzakirələrin motivi bunu deməyə əsas verməkdədir. Axı söhbət uzun illər erməni milli identikliyi kimi təqdim olunan cəfəngiyyatdan, daha dəqiq desək, ondan imtinadan gedir. Görüntü erməni cəmiyyətinin cəfəngiyyatdan imtina etmək istəmədiyi təəssüratını formalaşdırır. Yəni, Qarabağın timsalında qonşu ölkələrə qarşı ərazi iddialarından daşınmaq onun üçün ağrılı gəlir. Paşinyanı döyüşdə tək qoyan cəhət də elə budur.

Erməni cəmiyyəti, obrazlı desək, sancı çəkir. Paşinyan onun bətninə mütərəqqi ideyalar yerləşdirməyə çalışır. Cəmiyyət həmin ideyanı qəbul etmək və sonra isə reallaşdırmaq üçün özündə immunitet formalaşdırmalıdır. Əlbəttə, hələlik rüşeym formasında olan mütərəqqilik bəslənməlidir. Nikolun girişdiyi məsələ də budur.

Paşinyan ortaya atdığı ideya ilə ilk növbədə, öz partiyadaşlarını inandırmağa çalışır ki, döyüş meydanında tək qalan cəngavərin acı taleyini yaşamasın. Onun ölkənin Araqaçotn vilayətində rəhbərlik etdiyi hakim “Vətəndaş sazişi”nin fəalları ilə görüşdə söylədiklərini məhz bu baxımdan dəyərləndirmək mümkündür. Erməni baş nazirin həmin görüşdə hansı məsələlər üzərində dayandığına diqqət yetirəcəyik. Ancaq əvvəlcə keçmişə ekskurs edək və görək ki, Ermənistanın müasir tarixində qonşulara münasibətdə ənənəvi azğın ritorikadan uzaqlaşmaq meyilləri nə zamansa müşahidə edilibmi?

“Hər şey sizin və uşaqlarınızın gələcəyi üçün edilir”. Bu fikrin müəllifi 1999-cu il iyunun 11-dən həmin ilin oktyabrın 27-dək Ermənistanın baş naziri olmuş Vazgen Sarkisyan idi. Yox, Sarkisyan mütərəqqi ruhlu siyasətçi deyildi. Hər halda, o da Ermənistanın Qarabağ avantürasının “ilhamvericilərindən” olmuşdu. Nəzərə alaq ki, V.Sarkisyan keçmiş Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi uğrunda kütləvi hərəkat zamanı şöhrət qazanmış, Azərbaycan qüvvələri ilə ilk toqquşmalarda erməni “könüllü dəstələrinə” rəhbərlik etmişdi.

Sarkisyan 1991-ci ilin sonlarında Ermənistan müstəqillik qazandıqdan dərhal sonra prezident Levon Ter-Petrosyan tərəfindən müdafiə naziri təyin olunmuşdu. Çünki Qarabağ döyüşləri zamanı erməni qüvvələrinin görkəmli komandiri kimi ad çıxarmışdı.

1994-cü ilin atəşkəsinədək bilavasitə hərbi əməliyyatları tənzimləmiş Sarkisyan 1998-ci ildə Qarabağ danışıqlarında güzəştlərə getməyə razı olduğu üçün prezident L.Ter-Petrosyanın vəzifəsindən kənarlaşdırılmasında və baş nazir Robert Koçaryanın prezident seçilməsində fəal rol oynamışdı. Lakin ikinci ilə münasibətləri kəskinləşdikdən sonra Sarkisyan nüfuzlu müharibə veteranları qrupu sayılan Yerkrapahı Respublika Partiyasına birləşdirmiş və Ermənistanın keçmiş kommunist lideri Karen Demirçyan ilə koalisiya yaratmışdı.

Ermənistanda 1999-cu ilin may seçkilərində islahat düşüncəli ittifaq Milli Məclisdə səs çoxluğu əldə etmişdi. Nəticədə Sarkisyan baş nazir olmuş, Demirçyan isə parlamentin sədri vəzifəsini tutmuşdu. Sarkisyan-Demirçyan cütlüyü qanunverici orqanı təsirli şəkildə ölkənin əsas orqanına çevirmişdi. Bu, prezident Koçaryanın oyundankənar vəziyyətdə qalması reallığını doğurmuşdu.

Bəli, Sarkisyan-Demirçyan cütlüyü Qarabağ mövzusunda güzəştə getməyə hazırlaşırdı. Deməli, Sarkisyan L.Ter-Petrosyan kimi düşünmək üçün bir il gecikmişdi. Yuxarıdakı fikir isə onun son sözləri olmuşdu. Ermənistan parlamentində 1999-cu ilin 27 oktyabr tarixində reallaşmış terror aktı Sarkisyanın həyatına son qoymuşdu. Terrorçu Hunanyan baş nazirin yuxarıdakı sitatda diqqətə çatdırdığımız sözlərindən sonra əlindəki avtomat silahdan atəş açmış və Sarkisyanla yanaşı, Demirçyan da öldürülmüşdü. Nəticədə, Qarabağ klanının təmsilçisi olan Koçaryanın hakimiyyəti möhkəmlənmişdi. Beləliklə, Qarabağ danışıqlarında güzəşt ritorikası arxivə gömülmüş, Sarskiyanın təbirincə desək, erməni uşaqlarının acı talelərinin əsası qoyulmuşdu. 27 sentyabr 2020-ci ildə yazılacaq acı talelələrinin.

Bu kiçik tarixi ekskursu heç də elə-belədən etmədik. Məsələyə mövcud prizmadan yanaşsaq, Nikol Paşinyan da günahkardır. Hər halda, “Qarabağ Ermənistandır və nöqtə” bəyanatını verən o idi. Deməli, baş nazir Sarkisyanın dövründə, bəlkə də, doğulmamış olan erməni gənclərinin 2020-ci il sentyabrın 27-də yazılmış acı tale yaşantısında Nikol da müqəssirdir. Hərçənd, Araqaçotn vilayətində tərəfdarları ilə görüşündə Paşinyan günahlardan söz açsa da, nədənsə, konkret olaraq, öz dilindən çıxan fikrin üzərində dayanmadı...

*(ardı 4-cü səhifədə)*

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli Prezident.**

Fürsətdən istifadə edərək bu günlərdə yenidən Azərbaycanın Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Mən Sizin səlahiyyət müddətiniz dövründə insan hüquqları, demokratiya və qanunun aliliyinin inkişafı ilə bağlı ümumi prinsiplərimiz üzrə birgə işləməyi davam etdirməyi səbirsizliklə gözləyirəm. Beynəlxalq ictimaiyyətlə yanaşı, Avropa Şurası regionda sülh, sabitlik və mehriban qonşuluq münasibətlərinə yönəlmiş bütün səyləri dəstəkləməkdə davam edəcəkdir.

**Hörmətlə,**

***Mariya Peyçinoviç BURİÇ,***
***Avropa Şurasının Baş katibi***

***

**Zati-aliləri.**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə İordaniya Haşimilər Krallığının xalqı və hökuməti adından Sizə səmimi təbriklərimizi çatdırmaqdan məmnunluq duyuram. Bu, Sizin liderliyinizə olan böyük inamın təsdiqidir.

İordaniya Krallığı xalqlarımızın maraqları naminə ölkələrimiz arasındakı əməkdaşlıq əlaqələrini və dostluğu daha da inkişaf etdirmək üçün Zati-alinizlə işləməkdə davam etməyə ümidvardır.

Sizə davamlı uğurlar və möhkəm cansağlığı, Azərbaycan xalqına isə tərəqqi və rifah arzulayıram.

**Hörmətlə,**

***II Abdullah ibn Al HÜSEYN,***
***İordaniyanın Kralı***

***

**Hörmətli cənab Prezident.**

İcazə verin, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edim. Seçkilərin nəticələri Azərbaycan xalqının Sizə etimadını əyani şəkildə nümayiş etdirdi.

Şadam ki, keçən il ərzində ikitərəfli münasibətlərimizi genişlənmiş strateji tərəfdaşlıq səviyyəsinə qaldırmışıq. Azərbaycan Macarıstan üçün təkcə mühüm siyasi, iqtisadi və mədəni tərəfdaş deyil, həm də səmimi dostdur. Çoxşaxəli əməkdaşlığımızı inkişaf etdirməkdə və bundan sonra da birgə investisiyalar yatırmaqda ümumi marağımız var.

Ölkələrimiz arasında davamlı olaraq möhkəmlənən əlaqələrə həm də tarixi yaxınlığımız, sosial ənənələrimiz, ailə dəyərlərinə hörmət və Türk xalqlarını birləşdirən təşkilatlardakı əməkdaşlıq təkan verir. Sizi əmin edirəm ki, hökumətim əlaqələrimizin inkişafına və qarşılıqlı faydalı əməkdaşlığımızın dərinləşməsinə sadiq qalır.

Sizə möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

**Hörmətlə,**

***Viktor ORBAN,***
***Macarıstanın Baş naziri***

***

**Zati-aliləri.**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) adından səmimi təbriklərimi çatdırıram.

Sizin son seçkilərdəki inamlı qələbəniz Azərbaycan xalqının liderliyinizə olan inamının və etimadının sübutudur. Bu, həm də ölkənizin inkişafı və rifahı naminə fədakarlığınızın, baxışlarınızın və sarsılmaz sadiqliyinizin təzahürüdür.

Biz ICESCO olaraq müdrik rəhbərliyiniz altında Azərbaycanla əməkdaşlığımızı davam etdirməyə, İslam dünyasında təhsil, elm və mədəniyyət sahələrinin inkişafına ümid bəsləyirik.

Sizin davamlı dəstəyinizin regionda mədəniyyət mübadiləsi, elmi araşdırmalar və təhsil sahələrini inkişaf etdirmək təşəbbüslərinə müsbət təsiri olmuşdur. Biz əminik ki, Sizin yeni mandatınızla Azərbaycan gələcək illərdə daha da böyük nailiyyətlərə imza atacaqdır.

Sizin bütün İslam dünyasında əks-səda doğuran, gənclərin inkişafını dəstəkləyən, həmçinin sülh və tərəqqinin daha da irəliləməsinə xidmət edən müstəsna liderliyinizə şəxsi heyranlığımı bildirirəm.

Yenidən Prezident seçilməyiniz münasibətilə Sizi bir daha təbrik edirəm. Qoy, Sizin növbəti prezidentlik dövrünüz Azərbaycan Respublikası üçün daha yüksək firavanlıq və uğur gətirsin!

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul edin.

**Dərin hörmətlə,**

***Salim bin Məhəmməd əl-MALİK,***
***ICESCO-nun Baş direktoru***

***

**Cənab Prezident.**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edir, yeni mandatınızda Sizə davamlı uğurlar arzulayıram.

Rumıniya ilə Azərbaycan arasında həm ikitərəfli, həm də regional miqyasda davam edən çoxsaylı layihələr qarşılıqlı münasibətlərimizin yüksək səviyyədə olduğunu nümayiş etdirir. Azərbaycan Rumıniya üçün Cənubi Qafqaz regionunda strateji, yaxın və etibarlı tərəfdaşdır.

Mən bu vəsilə ilə Rumıniyanın strateji tərəfdaşlığımızın möhkəmlənməsinə və dərinləşməsinə sadiqliyini bir daha təsdiqləyirəm. Rumıniya və Azərbaycanın davamlı səylərlə enerji, nəqliyyat, təhsil, ticarət və investisiyalar kimi xüsusi önəm daşıyan sahələrdə ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi imkanlarından tam yararlanacağına əminəm.

Eyni zamanda, Rumıniya Azərbaycan ilə Avropa İttifaqı arasındakı dialoqun davamlı və hərtərəfli inkişafı üçün fəaliyyətini davam etdirəcəkdir.

Bu fürsətdən istifadə edərək Zati-alinizi ölkələrimiz arasında strateji tərəfdaşlığı dərinləşdirmək məqsədilə bu il Rumıniyaya rəsmi səfərə dəvət edirəm.

Cənab Prezident, xahiş edirəm Sizə dərin ehtiramımı qəbul edin.

**Hörmətlə,**

***Klaus Verner İOHANNİS,***
***Rumıniyanın Prezidenti***

***

**Zati-aliləri.**

İcazə verin, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edim.

Çex Respublikası ilə Azərbaycan Respublikası arasında sıx münasibətlər və dostluq əlaqələri uzun tarixə malikdir. İnanıram ki, biz təkcə ölkələrimizin mənafeyi naminə deyil, həm də qitəmizdə sülh və sabitlik üçün bu əlaqələri birlikdə dərinləşdirəcək və inkişaf etdirəcəyik.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə və şəxsi həyatınızda uğurlar arzulayıram.

**Hörmətlə,**

***Petr PAVEL,***
***Çex Respublikasının Prezidenti***

**Zati-aliləri.**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Əminəm ki, birgə səylərimizlə Latviya və Azərbaycan arasında yaxşı və konstruktiv münasibətlərimiz həm ikitərəfli, həm də çoxtərəfli formatda inkişaf etməkdə davam edəcəkdir. İnanıram ki, bizim sağlam dialoqumuzun davamlı inkişafı ölkələrimiz və xalqlarımızın uzunmüddətli maraqlarına xidmət edəcəkdir.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm. Sizə möhkəm cansağlığı, enerji və ali dövləti vəzifənizin icrasında uğurlar, həmçinin ölkənizə və onun xalqına sülh və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***Edqars RİNKEVİÇS,***
***Latviya Respublikasının Prezidenti***

***

**Zati-aliləri.**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq və şərəf duyuram.

Sizə işlərinizdə uğurlar, Azərbaycan xalqına isə yüksək rifah, inkişaf və təhlükəsizlik arzulayıram.

Əminəm ki, Sizin yenidən Prezident seçilməyiniz Azərbaycan Respublikası ilə Körfəz Əməkdaşlıq Şurasının artıq güclü olan əlaqələrinin daha da möhkəmlənməsinə töhfə verəcəkdir.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul edin.

***Casim Məhəmməd əl-BUDEYVİ,***
***Körfəz Əməkdaşlıq Şurasının Baş katibi***

***

**Hörmətli İlham Heydər oğlu.**

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi Rusiya Federasiyası Hökuməti adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Xalqın yüksək etimadı yeni Azərbaycanın qurulmasına, davamlı sosial-iqtisadi inkişafa və vətəndaşların rifahının yüksəlməsinə, beynəlxalq aləmdə respublikanın nüfuzunun möhkəmləndirilməsinə yönəlmiş kursunuza geniş ictimai dəstəyin sübutudur.

Sizin dostluq, mehriban qonşuluq və müttəfiqlik prinsiplərinə əsaslanan Rusiya-Azərbaycan münasibətlərinin möhkəmləndirilməsinə böyük şəxsi töhfənizi xüsusi qeyd etmək istərdim. Yüksək səviyyədə qəbul edilmiş strateji qərarlara uyğun olaraq iqtisadi-ticari, elmi-texniki və mədəni-humanitar əməkdaşlıq genişləndirilir, müxtəlif sahələrdə birgə layihələr uğurla həyata keçirilir. Bu, Rusiya və Azərbaycanın uzunmüddətli maraqlarına tam cavab verir.

Sizinlə hər zaman açıq və konstruktiv şəraitdə keçən görüşləri məmnunluqla xatırlayıram. Etibarlı ünsiyyətimizi davam etdirmək imkanına şad olaram.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, əmin-amanlıq və ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzu edirəm.

**Dərin hörmətlə,**

***Mixail MİŞUSTİN,***
***Rusiya Federasiyası Hökumətinin sədri***

***

**Hörmətli cənab Prezidentim.**

Yenidən Prezident seçilməyiniz münasibətilə Zati-alinizi təbrik edirəm.

Sizin liderliyinizlə Azərbaycanın bu günə qədər əldə etdiyi siyasi, iqtisadi, sosial, hərbi uğurların bundan sonra da artaraq davam edəcəyinə, ikinci Vətənimiz olan Azərbaycanın bölgədə və dünyada güclü mövqeyini daha da möhkəmləndirəcəyinə inanıram.

Ümummilli Lider Heydər Əliyevdən miras qalan "Bir millət, iki dövlət" düşüncəsi cənab Prezidentimizin və Zati-alinizin liderliyi ilə daha da güclənərək bölgənin təhlükəsizliyinin və sabitliyinin ən böyük təminatı olub.

Əzəli və əbədi qardaşlıq əlaqələrimizi gələcək nəsillərə ötürməyin ən mühüm ortaq məsuliyyətimiz olduğu düşüncəsi ilə Türkiyə həm sevincli, həm də kədərli günlərdə bütün imkanları ilə daim can qardaşımız Azərbaycanın yanında olmaqda davam edəcəkdir.

Fürsətdən istifadə edərək Azərbaycan Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Zati-alinizi şəxsən öz adımdan və Milli Müdafiə Nazirliyi adından bir daha təbrik edir, başda şəxsiniz olmaqla dost və qardaş Azərbaycan xalqına rifah və əmin-amanlıq diləyirəm.

**Hörmətlə,**

***Yaşar GÜLƏR,***
***Türkiyə Respublikasının milli müdafiə naziri***

***

**Möhtərəm cənab İlham Əliyev.**

Azərbaycan Prezidenti seçkilərində qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Seçicilərin 92 faizindən çoxu Sizin ölkəyə rəhbərliyi davam etdirməyinizə, onu tərəqqi və rifah yolu ilə irəliyə aparmağınıza səs verdi.

Seçkilərin rekord nəticəsi həm də Sizin Azərbaycan Respublikası Prezidenti vəzifəsində iyirmiillik fəaliyyətinizin yekunu və yeni dövrün başlanğıcıdır. Çünki seçkilər ilk dəfə olaraq ölkənin bütün ərazisində, o cümlədən Qarabağda keçirildi.

Seçkilərin nəticələri təkcə Azərbaycan xalqının Zati-alinizə Prezident kimi münasibətini deyil, həm də Sizə sevdikləri, fəxr etdikləri və heyran olduqları şəxsiyyət kimi münasibətini əks etdirir.

Fürsətdən istifadə edərək "İsrail Bizim Evimizdir" partiyasının rəhbəri kimi ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafına verdiyiniz mühüm töhfəyə görə Sizə bir daha minnətdarlığımı bildirirəm.

Qarşıda bizim xeyli işlərimiz var və mən Sizə gözəl ölkəniz naminə səmimi-qəlbdən uğurlar arzulayıram.

Azərbaycan Respublikasına sülh və tərəqqi diləyirəm!

**Səmimiyyətlə Sizin,**

***Aviqdor LİBERMAN,***
***İsrail Knessetinin deputatı, "İsrail Bizim Evimizdir" partiyasının sədri***

***

**Hörmətli İlham Heydər oğlu.**

Azərbaycan Respublikası Prezidenti seçkilərində qələbəniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Səsvermənin nəticələri Azərbaycan xalqının Sizə dərin ehtiramı, sevgisi və etimadını bir daha nümayiş etdirdi, milli lider kimi nüfuzunuzu təsdiq etdi.

Parlaq, qeyri-adi və uzaqgörən siyasi xadim olaraq Siz Vətəninizin tərəqqisi və firavanlığı naminə çox işlər görmüsünüz. Sizin şəxsiyyətiniz, müdrikliyiniz, böyük təcrübəniz və rəhbərlik istedadınız sayəsində bu gün Azərbaycan dinamik inkişaf edən dövlətdir. Ölkənin möhtəşəm nailiyyətləri bütün dünyada səmimi heyrətlə qarşılanır.

Azərbaycanlı tərəfdaşlarla açıq və etibarlı dialoqun aparılması Sankt-Peterburqun beynəlxalq fəaliyyətinin başlıca prioritetlərindən biridir. Şəhər Hökuməti Sizin ikitərəfli münasibətlərin inkişafına şəxsən göstərdiyiniz diqqəti yüksək qiymətləndirir.

Əminəm ki, mənim rəhbərliyimlə bu ilin yazına nəzərdə tutulan Sankt-Peterburqun Azərbaycanda mədəni-işgüzar missiyası bizim dostluq və tərəfdaşlıq əlaqələrimizi daha da möhkəmləndirəcək, yeni perspektivli layihələrin başlanğıcı olacaqdır.

Sizə və yaxınlarınıza möhkəm cansağlığı, tükənməz enerji, Azərbaycanın daha da inkişafı və respublikanın sakinlərinin rifahı naminə yeni-yeni nailiyyətlər diləyirəm.

Sizi Neva sahillərindəki şəhərdə görməyə həmişə şadam.

**Hörmətlə,**

***Aleksandr BEQLOV,***
***Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinin qubernatoru***

***

**Hörmətli cənab Prezident,**

Çox böyük qürur hissi ilə Alman-Azərbaycan Mədəniyyət Evinin çoxsaylı üzvləri və şəxsən öz adımdan Sizi fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibəti ilə təbrik edirəm. Ərazi bütövlüyümüzün bərpa edilməsindən sonra seçkilərin keçirilməsi çox önəmli idi.

Bu seçkilər dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın, o cümlədən Almaniyadakı həmvətənlərimizin birlik təntənəsi oldu. Azərbaycan xalqı seçkilərdə layiqli Lider olaraq Sizi Prezident seçdi. Ümumi olaraq dünya azərbaycanlıları Sizə etimadını göstərdi.

Cənab Prezident, Almaniyadakı azərbaycanlılar olaraq Sizinlə hər zaman fəxr edirik. Sizə ali dövlət fəaliyyətinizdə uğurlar arzulayırıq.

**Hörmətlə,**

***Ağa AĞAYEV,***
***Alman-Azərbaycan Mədəniyyət Evinin sədri.***
***Almaniya Federativ Respublikası, Köln şəhəri***

***

**Hörmətli cənab Prezident,**

Azərbaycan Respublikasında keçirilmiş prezident seçkilərində qələbəniz münasibətilə təşkilatımız adından ən səmimi təbriklərimi çatdırıram. Sizin uğurunuz Azərbaycan xalqının Sizə olan inamını və etimadını əks etdirir.

Əminəm ki, Sizin rəhbərliyinizlə Azərbaycan bundan sonra da tərəqqi və uğur qazanacaqdır. Qoy idarəçiliyiniz sülh, firavanlıq və Azərbaycan xalqı üçün davamlı uğurlarla yadda qalsın!

Cənab Prezident, Azərbaycanda Paralimpiya hərəkatına göstərdiyiniz davamlı dəstəyə görə Sizə səmimi minnətdarlığımızı bildiririk. Beynəlxalq idman təşkilatı olaraq Paralimpiya ruhunun çiçəkləndiyi mühiti inkişaf etdirmək üçün göstərdiyiniz fədakarlığa görə Sizə təşəkkür edirik.

**Hörmətlə,**

***İlqar RƏHİMOV,***
***Beynəlxalq Görmə Məhdudiyyətli İdmançılar Assosiasiyasının prezidenti.***

**Almaniya Federativ Respublikası, Bonn şəhəri**

***

**Hörmətli cənab Prezident,**

Bu əlamətdar, tarixi önəm daşıyan, növbədənkənar prezident seçkilərində qazandığınız Qələbə münasibəti ilə, mən Sizi və bütöv Azərbaycan xalqını təbrik etməkdən çox xoşbəxtəm. "Fəzilətlərin ən üstünü ədalətdir" - Siseron, ədalətin mahiyyətini bu qısa sitat ilə izah edə bildi. Otuz iztirablı il ərzində, Azərbaycan xalqı bütün ümidlərini bu ali fəzilətlərə bağlamış, beynəlxalq təşkilatlardan Azərbaycan torpaqlarının işğaldan azad edilməsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin icrasını gözləyirdi. Lakin təəssüf ki, biz bu ədaləti görmədik.

Cənab Prezident, 44 günlük Vətən müharibəsindəki tarixi Qələbəmizdən sonra, Azərbaycan torpaqlarının tamamilə işğaldan azad edilməsi, Azərbaycan vətəndaşlarının pozulmuş hüquqlarının bərpası ilə yaşanan ədalət təntənəsi, hər kəsə birmənalı nümayiş etdirdi ki, ölkəni və xalqımızı ancaq Sizə əmanət etmək olar. Səmimi-qəlbdən, Sizə möhkəm cansağlığı və sabit, demokratik, xalq və prezident arasında mövcud birlik və sevgidə bənzərsiz olan Vətənimiz üçün davam etdiyiniz zəfər yolunda Sizə uğurlar arzulayıram.

Fürsətdən istifadə edib, öz hörmət və ehtiramımı bir daha izhar edirəm.

***Leyla BEGİM,***
***"Natəvan" Cəmiyyətinin sədri, şair, dramaturq, Azərbaycan Yazıçılar Birliyinin üzvü.***

**Çex Respublikası, Praqa şəhəri.**

***

**Möhtərəm cənab Prezident,**

İsveçdə fəaliyyət göstərən "Stokholm Azərbaycan Mədəniyyət Mərkəzi" və "Beynəlxalq Media Qrupu" təşkilatlarının nümayəndələri və eləcə də Skandinaviya Azərbaycan Koordinasiya Şurasının üzvləri və Azərbaycan diasporunun fəalları olaraq, ölkəmizdə keçirilən növbədənkənar prezident seçkilərində Sizin parlaq qələbənizi ürəkdən təbrik edirik.

Cənab Prezident, ölkəmizə rəhbərlik etdiyiniz dövrdə həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində bütün sahələrdə tərəqqi, inkişaf hiss olunur. Bu gün xaricdə yaşayan biz azərbaycanlılar hər zaman ölkəmizin uğurlarını görəndə ürəyimiz fərəhlə dağa dönür.

Məhz Sizin Ali Baş Komandanı olduğunuz Ordumuzun sayəsində ilk dəfə prezident seçkiləri ölkənin hər yerində keçirildi. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin.

Dünya azərbaycanlıları Sizi seçməklə xalqımızın, eləcə də region xalqlarının təhlükəsizliyinə, ölkəmizin bütövlüyü və suverenliyinə, eyni zamanda dövlətimizin qüdrətli gələcəyinə səs verdilər.

Sizə və ailənizə, doğmalarınıza uzun ömür və möhkəm cansağlığı və dövlətimizin daha da inkişafı yolunda gördüyünüz işlərdə böyük uğurlar arzulayırıq.

**Hörmətlə,**

***Rahim SADIQBƏYLİ,***
***"Stokholm Azərbaycan Media Mərkəzi" və "Beynəlxalq Media Qrupu"nun sədri, Skandinaviya Azərbaycanlıları Koordinasiya Şurasının üzvü, kinorejissor***

**İsveç Krallığı, Stokholm şəhəri**

***

**Hörmətli cənab Prezident.**

Mən İsveçrənin Cenevrə şəhərində yaşayan azərbaycanlı olaraq həm öz adımdan, həm də doğma Gəncəmdə yaşayan ailəmin adımdan seçkilərdə qazandığınız inamlı qələbə münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Uzaqlarda yaşasam da, ürəyim Azərbaycanla birgə döyünür. Biz xoşbəxtik ki, Siz bizim Prezidentimizsiniz.

Mən, Gəncədə yaşayan ailə üzvlərim və dostlarım müharibə vaxtı bütün çətinliklərə sinə gərmişik. Bir Allaha, bir də Sizə inamımız sarsılmaz idi.

Uca Tanrı Sizə möhkəm cansağlığı versin və bu çətin işinizdə kömək olsun! Biz həmişə Sizi dəstəkləyirik.

**Hörmətlə,**

***Mariya Xan-Xoyskaya MARTİNYOLİ və həyat yoldaşı, İnga Xan-Xoyskaya və Tamara Xan-Xoyskaya, Gəncədə yaşayan anası və bacısı.***

**İsveçrə, Cenevrə şəhəri**

***

**Hörmətli cənab Prezident,**

Sizi Azərbaycan Respublikasında keçirilmiş növbədənkənar prezident seçkilərində qazandığınız parlaq qələbə münasibətilə Monreal Kanada-Azərbaycan Cəmiyyəti adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm. Bu qələbə ötən illər ərzində istər daxili, istər regional, istərsə də beynəlxalq müstəvidə həyata keçirdiyiniz uğurlu siyasətin bəhrəsidir. Azərbaycan Respublikasının öz torpaqlarını işğaldan azad etməsi və beynəlxalq arenada öz mövqeyini möhkəmləndirməsi bu uğurlu siyasətin ayrılmaz bir parçasıdır. Seçkilərdə əldə etdiyiniz qələbə Azərbaycan xalqının Sizə olan etimadının və inamının bariz nümunəsidir. Azərbaycan xalqı bir daha öz layiqli liderini yüksək səs çoxluğu ilə dəstəklədi.

Vətəndən uzaqda yaşasam da bu seçkiləri qürur və həyəcanla izləyirdim. Sizin və ailə üzvlərinizin Xankəndi şəhərində vətəndaşlarla birgə seçki prosesində iştirakı hamımızda qürur və fərəh hissi yaşatdı.

Cənab Prezident, bir daha Sizi bu möhtəşəm qələbə münasibətilə ürəkdən təbrik edir və Prezidentlik fəaliyyətinizin yeni dövründə Sizə uğurlar, yeni nailiyyətlər arzulayırıq. Biz əminik ki, ölkəmiz Sizin rəhbərliyinizlə mütərəqqi inkişaf yolu ilə irəliləyərək, dünyadakı nüfuz və etibarını möhkəmləndirəcək, yeni-yeni tarixi zəfərlər əldə edəcəkdir.

**Hörmətlə,**

***Rəna MÜSLÜMOVA,***
***Monreal Kanada-Azərbaycan Cəmiyyətinin təsisçisi və sədri.***

**Kanada, Monreal şəhəri**

***

**Hörmətli cənab Prezident,**

2024-cü ilin fevralın 7-si xalqımız, dövlətimiz, vətənimiz üçün çox vacib bir hadisə baş vermiş, Siz bir daha Azərbaycan Respublikasının Prezidenti seçilmişsiniz. Düşünürük ki, xalqımız vətənimiz üçün ən doğru seçimi etdi.

Xalqımızın xoşbəxtliyi bundadır ki, müstəqil olduqdan sonra güclü Lider – Ulu Öndər Heydər Əliyevin başçılığı altında inkişaf yoluna başlamış, müstəqillik həyatında çox böyük inkişafa nail olmuşdur. Ümummilli Liderin layiqli davamçısı olaraq Siz xalqımızın, dövlətimizin, Azərbaycanımızın tarixi nailiyyətlər qazanmasında misilsiz rol oynadınız. Məhz Sizin müdrik və uzaqgörən siyasətiniz, ordumuzun, igidlərimizin cəsurluğu, dönməzliyi, rəşadəti, liderlərinə olan inamı sayəsində Azərbaycan haqq mübarizəsini uğurla başa vurmuş, gücünü bütün dünyaya göstərmişdir. Bizə bu qələbəni, qüruru və xoşbəxtliyi yaşatdığı üçün bir daha şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə cansağlığı arzulayır və Qalib sərkərdəmizə - Sizə dərin minnətdarlığımızı bildiririk. İnanırıq ki, bu gündən sonra da Siz bu uğurları, nailiyyətləri davam etdirəcəksiniz.

Cənab Prezident, növbədənkənar prezident seçkilərində qazandığınız inamlı qələbə münasibətilə Sizi Münxen Azərbaycanlıları olaraq ürəkdən təbrik edir, bu çətin vəzifənizdə uğurlar arzulayırıq. Hər zaman Azərbaycan xalqı olaraq arxanızdayıq.

**Hörmətlə,**

***Səttar KƏRİMOV,***
***Almaniyada fəaliyyət göstərən Münhen Azərbaycanlıları Mədəniyyət Mərkəzinin və Azərbaycan Evinin rəhbəri***

***

**Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan,**

Kanadanın Ottava şəhərində fəaliyyət göstərən "Qarabağ" Azərbaycan dili məktəbinin həmtəsisçisi olaraq mən, Vüsalə Əhmədova cari ilin 7 fevral tarixində ölkəmizdə keçirilmiş növbədənkənar prezident seçkilərində əldə etdiyiniz üstün qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm. Bu qələbə bütün dünyada yaşayan azərbaycanlıları sevindirdiyi kimi, biz Kanada azərbaycanlılarını da ürəkdən sevindirir.

20 illik fəaliyyətiniz dövründə məhz Sizin qətiyyətli iradəniz, cəsarətli və məqsədyönlü siyasətiniz Azərbaycanı həm siyasi-iqtisadi, həm də hərbi cəhətdən qüdrətli, dünyada sözü keçən dövlətə çevirmişdir. Bunun nəticəsidir ki, Azərbaycan xalqı növbədənkənar prezident seçkilərində öz layiqli liderini dəstəklədi.

Kanadada yaşayan Azərbaycan diasporu olaraq Sizə uzun ömür, möhkəm cansağlığı və Azərbaycanımızın inkişafı naminə fəaliyyətinizdə uğurlar arzulayırıq

**Dərin hörmətlə,**

***Vüsalə ƏHMƏDOVA,***
***"Qarabağ" Azərbaycan dili məktəbinin həmtəsisçisi.***

**Kanada, Ottava şəhəri**

***

**Çox hörmətli cənab Prezident,**

Dağıstan Respublikasının Dərbənd şəhərindəki Azərbaycan Dövlət Dram Teatrının rəhbərliyi və kollektivi Sizi Azərbaycan Respublikası Prezidenti seçkilərindəki layiqli qələbəniz münasibətilə ürəkdən təbrik edir.

Seçkilərdə inamlı qələbəniz münasibətilə ən xoş və səmimi diləklərimizi ifadə edirik. Bu şərəfli vəzifəyə yenidən seçilməniz xalqın Sizə olan böyük etimadının və dünyada yüksək nüfuzunuzun göstəricisidir.

Dağıstanda yaşayan azərbaycanlılar, o cümlədən yaradıcı insanlar, incəsənət nümayəndələri hər zaman Sizin böyük nüfuzunuzla qürur duyuruq. Sizin fəaliyyətiniz gələcəkdə də Azərbaycan, Rusiya və Dağıstan arasında münasibətlərin daha yüksək səviyyədə olacağına inam yaradır. Əminik ki, bütün bunlar qardaş xalqlarımızın mənafeyi naminədir.

Sizə möhkəm cansağlığı, fəaliyyətinizin yeni dönəmində böyük uğurlar, Azərbaycan xalqına isə sülh, rifah və davamlı firavanlıq arzulayırıq.

**Hörmətlə,**

***Əsgərov FİRDOVSİ,***
***Dağıstan Respublikasının Əməkdar mədəniyyət işçisi, Dərbənd şəhərindəki Azərbaycan Dövlət Dram Teatrının direktoru***

**Rusiya Federasiyası, Dağıstan Respublikası, Dərbənd şəhəri**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə səmimi təbriklərimi və ali mandatınızın icrasında xoş arzularımı çatdırmaq istəyirəm.

Roma və Bakı dərin dostluq və qarşılıqlı əməkdaşlıq sahələrinin getdikcə daha da genişləndirilməsinə yönəlmiş, ümumi öhdəliklə möhkəmləndirilmiş həqiqətən də strateji və çoxşaxəli tərəfdaşlığa malikdir.

İnanıram ki, kəskin şəkildə şiddətli münaqişələr və narahatedici gərginliklə səciyyələnən bir mərhələdə prinsipial əhəmiyyətə malik kəsişmə nöqtəsi olan bütün Qafqaz regionu üçün sülh, sabitlik və firavanlıq perspektivlərinin təşviqi üzrə birgə işi davam etdirə biləcəyik.

Azərbaycan ilə Avropa İttifaqı arasında konstruktiv etimadın və əməkdaşlıq əlaqələrinin inkişafı bu yolun tərkib hissəsidir və İtaliya bunun üçün hərtərəfli dəstəyini əsirgəməyəcək.

Bu məramla, mən Zati-alinizə rifah, dost Azərbaycan xalqına firavan gələcək üçün ən xoş arzularımı yenidən çatdırıram.

**Hörmətlə,**

***Sercio MATTARELLA,***
***İtaliya Respublikasının Prezidenti***

***

**Zati-aliləri.**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə Gürcüstan xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırıram. Ölkənizin və xalqınızın firavanlığı istiqamətində yorulmaz fəaliyyətinizdə Sizə səmimi-qəlbdən davamlı uğurlar və qələbələr arzulayıram.

Mən qəti şəkildə inanıram ki, birgə səylərimizlə biz qardaş ölkələrimiz arasındakı mehriban qonşuluq və dostluq münasibətlərini, strateji tərəfdaşlığı yeni zirvələrə yüksəldəcəyik. Bu, şübhəsiz ki, həm Gürcüstanın, həm də Azərbaycanın regionda sabitliyin və inkişafın möhkəmləndirilməsində rolunu daha da gücləndirəcəkdir.

Zati-aliləri, Sizə bir daha ən dərin ehtiramımı bildirir, fəaliyyətinizdə davamlı uğurlar arzulayır, dost Azərbaycan xalqına isə sülh və rifah diləyirəm.

**Hörmətlə,**

***Salome ZURABİŞVİLİ,***
***Gürcüstanın Prezidenti***

***

**Hörmətli cənab Prezident.**

Seçkilərdə inamlı qələbəniz və yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan məmnunluq hissi duyuram. Sizə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayır, ölkənizin və dost Azərbaycan xalqının rifahı, əmin-amanlığı və sabitliyi üçün yeni nailiyyətlər diləyirəm.

Əminəm ki, xalqın etimadı Azərbaycan Respublikasına daha yeni uğurlar gətirəcək və Sizin liderlik əzminiz gələcək məqsədlərə çatmaqda mühüm rol oynayacaq.

Əminəm ki, bu fürsətdən istifadə edib ölkələrimizi uzun müddətdir bir-birinə bağlayan qarşılıqlı etimada və hörmətə əsaslanaraq dövlətlərimiz arasındakı möhkəm dostluğu və strateji tərəfdaşlığı daha da gücləndirəcəyik. Həmçinin regionumuzun və xalqlarımızın əmin-amanlığı və rifahı naminə səylərimizi artıraraq Sizinlə sıx əməkdaşlıq etməyə ümidvar olduğumu bir daha bildirirəm.

Zati-aliləri, Sizə ali dövləti fəaliyyətinizdə bir daha səmimi-qəlbdən yeni uğurlar diləyirəm.

**Hörmətlə,**

***İrakli KOBAXİDZE,***
***Gürcüstanın Baş naziri***

***

**Möhtərəm cənab Prezident.**

Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Seçkilərdəki qələbəniz Azərbaycanın daxili və xarici siyasətində müstəsna dərəcədə uğurlu fəaliyyətinizin bariz göstəricisidir. Həyata keçirdiyiniz müstəqil və qətiyyətli siyasət sayəsində Azərbaycan dünya ölkələri arasında nüfuzunu daha da möhkəmləndirmiş, regionda aparıcı dövlətlərdən birinə çevrilmişdir.

Seçkilərdən sonra Sizinlə görüşümü məmnuniyyətlə xatırlayıram. Sizin Türk dünyasına verdiyiniz xüsusi önəm, Türk dövlətləri ilə əməkdaşlığın Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən olması Türk birliyi və həmrəyliyinin, habelə Türk Dövlətləri Təşkilatının bundan sonra da inkişaf edərək möhkəmləndirilməsinə mühüm töhfədir.

Sizə möhkəm cansağlığı arzu edir, Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə yeni uğurlar diləyirəm.

**Dərin hörmətlə,**

***Kubanıçbek ÖMÜRALIYEV,***
***Türk Dövlətləri Təşkilatının Baş katibi***

***

**Cənab Prezident,**

İtaliya Hökuməti adından və şəxsən öz adımdan Sizi Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə təbrik etmək və yeni mandatınız üçün Sizə ən xoş arzularımı çatdırmaq istəyirəm.

İtaliya ilə Azərbaycan arasında əlaqələr əladır və həqiqətən strateji və çoxölçülü tərəfdaşlığın yaradılması ilə yüksək əməkdaşlıq səviyyəsinə çatmışdır. Bizim niyyətimiz bu yolu davam etdirməkdir və əminəm ki, biz birlikdə enerji sektorundan başlayaraq bütün sahələrdə əməkdaşlığımızı daha da dərinləşdirə biləcəyik.

İnanıram ki, biz bütün Qafqaz regionu üçün sülh, sabitlik və firavanlıq perspektivlərini təşviq etmək üçün də səylərimizi birləşdirə biləcəyik.

Əminəm ki, xalqlarımızı bir-biri ilə bağlayan səmimi dostluq sayəsində də əlaqələrimiz hər sahədə inkişaf etməkdə davam edəcəkdir.

Sizə bir daha səmimi təbriklərimi çatdıraraq, ən xoş salamlarımı göndərirəm.

***Ciorcia Meloni,***
***İtaliya Respublikası Nazirlər Şurasının Sədri***

***

**Hörmətli İlham Heydər oğlu.**

Sizi növbədənkənar prezident seçkilərində inamlı qələbəniz münasibətilə ürəkdən təbrik edirəm.

Çox yüksək dövlət vəzifəsindəki fəaliyyətinizdə Sizə səmimi-qəlbdən yeni-yeni uğurlar, möhkəm cansağlığı, firavanlıq və tərəqqi arzulayıram.

Ümidvaram ki, Sizin Azərbaycan Respublikası Prezidenti vəzifəsində fəaliyyətiniz bundan sonra da Rusiya və Azərbaycan xalqları arasında uzunəsrlik dostluğun möhkəmlənməsinə töhfələr verəcəkdir.

**Hörmətlə,**

***Yuri ŞAFRANİK,***
***Rusiyanın Ali Dağ-Mədən Şurasının sədri***

***

**Möhtərəm İlham Heydər oğlu.**

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin bütün kollektivi adından və şəxsən öz adımdan Sizi Azərbaycan Respublikası Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz öz yorulmaz əməyiniz və tam fədakarlığınızla belə yüksək vəzifəyə ən layiqli namizəd olduğunuzu növbəti dəfə sübut etdiniz. Yüksək peşəkarlığınız, müstəsna şəxsi və işgüzar keyfiyyətləriniz Sizi hədəfi aydın şəkildə görən və nəzərəçarpacaq nəticələrə müvəffəq olan müdrik və qətiyyətli rəhbər kimi xarakterizə edir. Biz uzunəsrlik tarixə və möhkəm ənənələrə malik gözəl diyarın getdikcə gözümüz önündə çiçəklənən və sabit, hər bir insanın öz arzularına çata və öz xoşbəxtliyini tapa biləcəyi dövlətə necə çevrildiyini görürük.

Bu xoş fürsətdən istifadə edərək, Sizə bizim əməkdaşlığımıza diqqətli və səmimi münasibətinizə görə minnətdarlıq edirəm. Moskva Universitetinin Bakı şəhərindəki filialı uzun illər fəaliyyəti boyunca elm və təhsilin inkişafına uğurla xidmət edir və dövlətlərimizin səmərəli əməkdaşlığını möhkəmləndirir.

Möhtərəm İlham Heydər oğlu, bu gün mən Sizin ünvanınıza səsləndirilən bütün səmimi sözlərə böyük məmnuniyyətlə qoşulur, Sizə möhkəm cansağlığı, firavanlıq, yeni maraqlı layihələr və düşündüyünüz bütün planlarınızın həyata keçməsini arzulayıram.

**Dərin hörmətlə,**

***Viktor SADOVNİÇİ,***
***M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin rektoru, akademik***

***

**Hörmətli İlham Heydər oğlu.**

Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının adından və şəxsən öz adımdan Sizi Azərbaycan Respublikası Prezidenti seçkilərində növbəti inamlı qələbəniz münasibətilə təbrik edirəm.

Seçkilər bütün dövlətlərin tarixində mühüm mərhələdir. Azərbaycan vətəndaşlarının öz iradəsini sərbəst şəkildə ifadə etmələri xalqın sıx birliyini göstərdi, Sizin müdrik rəhbərliyinizlə ölkənin irəlilədiyi kursa etimadın yüksək səviyyəsini nümayiş etdirdi. Əminəm ki, Sizin peşəkarlığınız və zəngin təcrübəniz sosial-iqtisadi sabitliyin təmin olunmasına, xalqın rifah halının yüksəldilməsinə və Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun gələcəkdə də artmasına kömək edəcəkdir.

Rusiya-Azərbaycan münasibətləri həmişə möhkəm dostluq bağlarına və mehriban qonşuluq prinsiplərinə əsaslanıb. Bu münasibətlər, o cümlədən parlament xətti ilə əlaqələr indi də konstruktiv istiqamətdə inkişaf edir, müttəfiqlik tərəfdaşlığını və qarşılıqlı faydalı əməkdaşlığın potensialını üzə çıxarmaqda davam edir.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, əmin-amanlıq və Azərbaycan xalqının rifahı naminə ali dövləti vəzifənizdə uğurlar arzu edirəm.

Ən səmimi ehtiramımı qəbul edin.

**Hörmətlə,**

***Valentina MATVİYENKO,***
***Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri***

***

**Hörmətli cənab Prezident.**

Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin, ruhanilərimizin adından və şəxsən öz adımdan Sizi Azərbaycan Respublikası Prezidenti seçkilərində qələbə münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizin ünvanınıza gələn təbriklərə dərin ehtiramla qoşuluruq, Sizə salamlarımızı və Rusiya müsəlmanlarının Azərbaycan Respublikasına sülh, uğurlar və tərəqqi dualarını çatdırırıq.

Sizin qələbəniz ölkə qarşısında şəksiz xidmətlərinizin təsdiqidir. Bu, müdrik siyasəti Azərbaycana müasir tarixə qalib dövlət kimi daxil olmağa imkan verən Liderin qeyd-şərtsiz nüfuzunun rəmzidir.

Bu, həmçinin Sizin rəhbərliyinizlə Azərbaycan xalqının gələcəyə olan inamıdır.

Çoxmillətli və çoxkonfessiyalı qardaş Azərbaycan xalqının sevincinə qoşuluruq, tarixi torpaqların azad edilməsi, qüdrətli vahid dövlətin yaradılması və iqtisadiyyatın, beynəlxalq siyasi nüfuzun hərtərəfli möhkəmləndirilməsi üzrə böyük nailiyyətləri qeyd edirik.

Sizin rəhbərliyinizlə Azərbaycan xalqının həmrəyliyinin möhkəmləndirilməsi, öz ölkəsinin şöhrəti naminə bütün sınaqları və çətinlikləri dəf etməyə hazır olan müasir cəmiyyətin misilsiz birlik və vətənpərvərliyi bizdə xüsusi sevinc hissi doğurur.

Uca Yaradandan xeyirxah işlərinizdə səmimi-qəlbdən uğurlar, Azərbaycan Respublikasının rifahı naminə Sizə İlahidən güc və yeni müdrik siyasi qərarlar diləyirəm.

Hörmətli İlham Heydər oğlu, Uca Allaha dua edərək Sizə və bütün Azərbaycan xalqına əmin-amanlıq və firavanlıq arzu edirəm. Amin!

**Xeyir-dualarımla və ən xoş arzularımla,**

***Müfti şeyx Ravil QAYNUTDİN,***
***Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin sədri, Rusiya Federasiyası Prezidenti yanında Dini Birliklərlə Qarşılıqlı Fəaliyyət Şurasının üzvü***

***

**Hörmətli İlham Heydər oğlu.**

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Səsvermənin nəticələri Sizin siyasi xadim kimi yüksək nüfuzunuzu və ölkənin liderinə ümumxalq dəstəyini təsdiq edir. Siz Azərbaycan xalqına sədaqətini əməldə sübut etmiş parlaq, qeyri-adi şəxsiyyət, çox gözəl idarəçisiniz. Ölkə Sizin rəhbərliyinizlə iqtisadi və sosial sahələrdə böyük uğurlar qazanıb və gələcəyə inamla baxır. Rusiya Səhiyyə Nazirliyinin Seçenov adına Universitetinin Bakı filialı Sizin dəstəyiniz və fəal iştirakınız sayəsində açılıb, bu gün ölkənizdə elm və təhsilin inkişafına, Rusiya və Azərbaycanın qardaş xalqları arasında dostluğun möhkəmlənməsinə sanballı töhfə verir.

Sizə ali dövləti vəzifənizdə uğurlar, möhkəm cansağlığı və əmin-amanlıq arzulayıram.

**Hörmətlə,**

***Pyotr QLIBOÇKO,***
***İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru, Rusiya Elmlər Akademiyasının akademiki, professor***

***

**Zati-aliləri möhtərəm İlham Heydər oğlu.**

Azərbaycan Respublikası Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Sizin yenidən ali dövləti vəzifəyə seçilməyiniz uzun illər ölkəyə rəhbərliyiniz dövründə qazandığınız ümumxalq etimadının göstəricisidir. Seçicilərin əksəriyyətinin Sizə səs verməsi onu göstərir ki, insanlar Sizin simanızda onların ehtiyaclarına və istəklərinə həmişə diqqətlə yanaşan, daxili və xarici siyasət üzrə aktual məsələləri səmərəli şəkildə həll edə bilən təcrübəli və nüfuzlu milli lider görürlər.

Sizə möhkəm cansağlığı və həmişə ruh yüksəkliyi, rəhmli Tanrıdan kömək və Azərbaycan Respublikasının Prezidenti ali vəzifəsində yeni-yeni uğurlar arzulayıram.

**Dərin hörmətlə,**

***KİRİLL,***
***Moskvanın və bütün Rusiyanın patriarxı -0-EA***

***

**Möhtərəm İlham Heydər oğlu.**

Seçkilərdə böyük uğurunuz və Azərbaycan Respublikası Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Siz iyirmi il bundan əvvəl öz xalqınıza Azərbaycanın ərazi bütövlüyünü bərpa edəcəyinizə söz vermişdiniz və bu vədi tam yerinə yetirdiniz.

Bu gün Azərbaycan dünya birliyində mühüm rol oynayır. Bu xüsusda ölkələrimizin strateji tərəfdaşlıq münasibətləri daha dəyərlidir.

Həqiqətən də Sizin üçün, Azərbaycan üçün çox sevinirəm. Atanız Sizinlə fəxr edərdi. Bundan yüksək nə ola bilər?!

Sizə ən xoş diləklərimi çatdırıram.

**Səmimiyyətlə Sizin,**

***Mixail ŞVIDKOY,***
***Rusiya Federasiyası Prezidentinin Beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi***

***

**Əziz İlham Heydər oğlu.**

Azərbaycan Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Siz haqlı olaraq təkcə öz Vətəninizdə deyil, həm də bizim ölkədə və bütün dünyada öz xalqı və regionda sülh üçün çoxlu işlər görmüş təcrübəli, uzaqgörən siyasi xadim kimi böyük ehtiram, yüksək nüfuz qazanmısınız. Keçirilən seçkilərin nəticələri də bunu inamlı şəkildə göstərdi.

Dahi atanızın, Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin müdrik siyasətinin və həyatı boyu gördüyü işlərin layiqli varisi və davamçısı kimi, Siz onun ideyalarını uğurla davam etdirirsiniz.

Əminəm ki, Sizin yenidən Prezident seçilməyinizlə bu istiqamətdə aparılan işlər daha fəal davam etdiriləcək və bu işlərin soydaşlarınıza, ölkənin bütün vətəndaşlarına, bütünlükdə xalqlarımıza fayda gətirməsi üçün səylərinizi əsirgəməyəcəksiniz.

Bizim aramızda yaranmış şəxsi etimad və qarşılıqlı anlaşmanı yüksək qiymətləndirirəm, əziz tuturam.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, səadət, ali dövləti fəaliyyətinizdə və şəxsi həyatınızda əmin-amanlıq diləyirəm.

**Hörmətlə,**

***Leonid SLUTSKİ,***
***Rusiya Federasiyasının Dövlət Dumasında Rusiya Liberal Demokrat Partiyası fraksiyasının rəhbəri, Beynəlxalq məsələlər komitəsinin sədri***

***

**Möhtərəm İlham Heydər oğlu.**

Azərbaycan Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə təbriklərimi qəbul edin. Bu məsul və şərəfli vəzifəyə yenidən seçilməyiniz Sizin əməyinizin möhtəşəm nəticələrinin, Sizə Azərbaycan xalqının ən yüksək inamının və hörmətinin sübutudur.

Zəngin həyat təcrübəniz, Sizə xas olan enerji və görkəmli liderlik keyfiyyətləri Zati-alinizə respublikanın və onun sakinlərinin rifahı naminə məhsuldar çalışmağa kömək edir. Siz Azərbaycanın tərəqqisi uğrunda cəsur və məqsədyönlü mübariz kimi nəinki həmvətənləriniz arasında, həm də bütün dünyada hörmət və nüfuza sahibsiniz.

Sizi səmimi-qəlbdən təbrik edir, bütün planlarınızın soydaşlarınızın dəstəyi ilə həyata keçməsini arzulayır, Azərbaycanın rifahı naminə Sizə və komandanıza uğurlar diləyirəm.

**Hörmətlə,**

***İrina VİNER,***
***Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti***

***

**Möhtərəm cənab Prezident.**

Sizi 2024-cü il fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində qazandığınız inamlı qələbə münasibətilə Türk Mədəniyyəti və İrsi Fondu adından, şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Müstəqillik tarixində ilk dəfə olaraq Azərbaycanın bütün suveren ərazisində keçirilən seçkilər ölkə vətəndaşlarının Sizə olan yüksək etimadını bir daha nümayiş etdirdi.

İnanıram ki, müdrik rəhbərliyinizlə qardaş Azərbaycan siyasi, iqtisadi və sosial-humanitar sahələrdə yeni-yeni nailiyyətlər əldə edəcəkdir.

Sizə Azərbaycan xalqının rifahı naminə, eləcə də Türk dünyasının birliyi və inkişafı yolunda qarşıya qoyduğunuz ali məqsədlərə nail olmağınızı diləyirəm.

Uca Tanrı Azərbaycanı və Sizi qorusun!

**Dərin hörmətlə,**

***Aktotı RAİMKULOVA,***
***Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti***

***

**Hörmətli cənab Prezident.**

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizin Prezident vəzifəsinə seçilməyiniz sülh və əmin-amanlıq tərəfdarı olan Azərbaycan Respublikası vətəndaşlarının arzu və istəyinin nümayişidir. Bu istəyin həyata keçməsinin ilkin bəhrələri artıq hamıya məlumdur. Sizin regionda sülhün bərqərar olmasına və doğma ölkənizin ərazi bütövlüyünün bərpasına töhfəniz çox böyükdür. Bu, Azərbaycan vətəndaşlarını sevindirdiyi kimi, Gürcüstanı da sevindirir.

Gürcüstan və Azərbaycan xalqları tarix boyu dostluq və mehriban qonşuluq şəraitində yaşayıblar. Bu tendensiya xüsusən ölkələrimizin müstəqilliklərini bərpa etdikləri vaxtdan bəri daha da möhkəmlənib. Əminəm ki, Siz Prezident vəzifəsində əvvəllər olduğu kimi, bundan sonra da ölkələrimiz arasında qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi istiqamətində yorulmadan səy göstərəcəksiniz.

Cənab Prezident, icazə verin, Sizə bir daha ehtiramımı ifadə edim və Azərbaycan Respublikasının Prezidenti vəzifəsində ali və məsuliyyətli fəaliyyətinizdə uğurlar diləyim.

**Dərin hörmətlə,**

***Roin METREVELİ,***
***Gürcüstan Milli Elmlər Akademiyasının prezidenti, akademik***

***

**Hörmətli cənab Prezident.**

Yenidən Azərbaycan Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimizi çatdırırıq.

Biz Azərbaycan xalqının bu qələbə ilə bağlı sevincini və məmnunluq hissini bölüşürük. Bu, Azərbaycan xalqının Sizə və liderliyinizə olan inam və etibarının, hörmətinin göstəricisidir.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycan mühüm iqtisadi, sosial və siyasi məqsədlərə nail olmaqla bütün sahələrdə yüksək irəliləyişlər əldə edib.

Əminik ki, Siz ölkənizi bundan sonra da qətiyyətiniz və uzaqgörənliyinizlə idarə edərək sülh, firavanlıq və rifah şəraitində daha parlaq gələcəyə doğru aparacaqsınız. Sizə, Azərbaycan dövlətinə və xalqına uğurlar diləyir, ən xoş arzularımızı çatdırırıq.

**Dərin hörmət və səmimiyyətlə,**

***Cuzeppe KANİLİA,***
***İtaliyada fəaliyyət göstərən Napoli-Bakı Assosiasiyasının sədri***

***

**Hörmətli İlham Heydər oğlu.**

Sizi seçkilərdə inamlı qələbəniz və müstəqil Azərbaycanın Prezidenti vəzifəsinə yeni müddətə seçilməyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Qırğız xalqının üç oğul haqqında belə bir deyimi var: birinci oğul – adi, heç kimə ziyan vurmadan yaşayan oğuldur; ikinci oğul – ataya bərabər oğuldur, belə oğul haqqında xalq arasında deyirlər: “Əhsən, atasını pis vəziyyətdə qoymadı, heç kəsin qarşısında rüsvay etmədi”; nəhayət üçüncü oğul – atasını ötüb keçən oğuldur, belə insan haqqında “Öz xalqının oğlu” deyirlər. Mən Sizin simanızda öz xalqının oğlunu, öz xalqının istəklisini görürəm. Siz əzəli torpaqlarınızın geri qaytarılmasında cəsarət nümayiş etdirmisiniz və zəfər qazanmısınız.

Biz Sizin atanız, bütün Türk dünyasında, eləcə də bərəkətli Manas torpağında bu yaxınlarda 100 illiyi qeyd edilən, Azərbaycana öz xalqının oğlunu bəxş edən Heydər Əlirza oğlu Əliyevlə fəxr edirik.

Sizə möhkəm cansağlığı, ailə səadəti, çətin və şərəfli prezidentlik fəaliyyətinizdə uğurlar arzulayıram.

**Dərin hörmətlə,**

***Temirbek TOKTOQAZİYEV,***
***Qırğızıstanın “Manasın səsi” teleradio şirkətinin direktoru, yazıçı, “Atatürk” mükafatı laureatı***

***

**Hörmətli cənab Prezident.**

Yenidən Azərbaycan Prezidenti seçilməyiniz münasibətilə Sizi Gürcüstan Həmkarlar İttifaqları Konfederasiyasının üzvləri adından və şəxsən öz adımdan təbrik edirəm. Azərbaycan xalqı yenidən Sizə inam və etimad nümayiş etdirdi. İnanırıq ki, Sizin uzun illər dəstəklədiyiniz Azərbaycan və Gürcüstan xalqları arasında dostluq və əməkdaşlıq möhkəmlənməkdə davam edəcək və bu, xalqlarımızın rifahının daha da yaxşılaşmasına təkan verəcək, ölkələrimizə uğur gətirəcək.

Sizi bir daha təbrik edir və yeni-yeni nailiyyətlər arzulayırıq.

**Hörmətlə,**

***İrakli PETRİAŞVİLİ,***
***Gürcüstan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***

***

**Möhtərəm cənab Prezident.**

Müstəqillik dövründə ilk dəfə ölkənizin bütün ərazisində keçirilən Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Seçkilərin suverenliyi və ərazi bütövlüyü tam təmin olunmuş Azərbaycanın hər yerində, o cümlədən Xankəndidə, Şuşada və digər azad edilmiş ərazilərdə keçirilməsi qardaş Azərbaycan, eləcə də Türkiyə üçün xüsusi tarixi əhəmiyyət daşıyır.

Sizin Azərbaycan xalqına bəxş etdiyiniz Qarabağ Zəfəri uğurlu dövlət xadiminin, qalib sərkərdənin doğma xalqına əvəzsiz töhfəsidir. Azərbaycan xalqı Sizi Qarabağ Zəfərinin memarı olaraq növbəti dəfə Prezident seçməklə bütün dünyaya həmrəylik nümayiş etdirdi.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və Azərbaycanın daha da inkişafı naminə prezidentlik fəaliyyətinizdə uğurlar arzulayır,

“Bir millət, iki dövlət” prinsipi əsasında birlikdə yeni və daha böyük layihələrə imza atmağınızı arzu edirəm.

**Hörmətlə,**

***Ərdal AKSOY,***
***Türkiyədə fəaliyyət göstərən “Aksoy Holding”in İdarə Heyətinin sədri***

# Ermənistanda islahat məntiqi: Paşinyanın istəyi və 1999-cu ilin terroru

(əvvəli 1-ci səhifədə)

***

Erməni cəmiyyətində hazırda konstitusiya dəyişikliyi fonunda gedən diskussiyalarda başlıca məqam islahatın Azərbaycanın tələbi kimi assosiasiya olunmasıdır. Qıcıq yaradan amil də elə budur. “Azərbaycan Ermənistanı sındırmaq üçün hər şeyə əl atır” məntiqi Nikolu zəif düşürən cəhətdir. Böyük ölçüdə heç kəs reallığı düzgün qiymətləndirə bilmir. Məsələn, erməni cəmiyyəti anlamır ki, Azərbaycanın tələbi Ermənistanı aşağılamaqla əlaqədar deyil.

Diqqət yetirək, Ermənistanın hazırkı konstitusiyası ölkənin İstiqlaliyyət bəyannaməsinə əsaslanır. Həmin bəyannamədə isə Qarabağla bağlı ərazi iddiası yer alır. Nəinki Qarabağla, Türkiyə torpaqları ilə əlaqədar iddia da həmçinin. Azərbaycan çalışır ki, Bakı-İrəvan sülh müqaviləsinə maksimum dərəcədə təminat olsun.

Nəzərə alaq ki, Ermənistanda konstitusiya dəyişikliyi referendum yolu ilə həyata keçirilməlidir. Deməli, ona erməni xalqı səs verməlidir. Prinsipial yanaşsaq, bu səs onun iradəsidir. Mövcud iradə qonşu ölkələrə qarşı ərazi iddiasından daşınmağı təsdiqləməlidir. Ölkəmiz üçün vacib məqam budur ki, hakimiyyətlər gəldi-gedərdi, əsas olan isə xalqın mövqeyidir.

Əlbəttə, Ermənistanda hakimiyyət dəyişikliyi ola və yeni gələn qüvvələr nəzəri baxımdan qəbul ediləcəyi gözlənilən konstitusiyadan imtina yolu tuta, hətta, referendum da keçirə bilərlər. Heç referendum olmasa belə, onların işğalçı siyasəti yürütmələri mümkündür. Ancaq, hər halda, bir daha deyək ki, hazırda konstitusiya dəyişikliyi reallaşsa, bu, eyni zamanda, beynəlxalq aləmə də tutarlı sülh mesajı olacaq. Əlbəttə, Nikol konstitusiya dəyişikliyi məsələsini uzatmasa, onu Azərbaycanla sülhdən yayınmaq, yeni müharibə üçün vaxt udmaq, güclənmək naminə alətə çevirməsə...

Bir məqamı da nəzərə alaq ki, hazırda Ermənistanda konstitusiya dəyişikliyi mövzusu təşəbbüskar hakim komandanın reytinqinin aşağı düşdüyü bir vaxtda gündəmə gəlib. Bütün sosioloji sorğuların nəticələri bunu söyləməyə əsas verir. Paşinyan isə məqsədinə çatmaq istəyirsə, seçicilərin ən azı dörddə birinin dəstəyini qazanmalıdır. Yəni, Nikolun Ermənistan vətəndaşlarını Qarabağ və saxta “erməni soyqırımı” ilə bağlı məsələlərə dair heç bir eyhamın yer almayacağı yeni Konstitusiyanın qəbul edilməsinin zəruriliyinə inandırması çətin görünür.

***

Bəli, N.Paşinyan ölkəsinin düşdüyü hazırkı acınacaqlı durum səbəbilə özünü də günahkar sayır. Məsələyə bu baxımdan yanaşsaq, konstitusiya islahatları yalnız Azərbaycanın tələbi kimi nəzərdə tutula bilməz. Baş nazir psixoloji baxımdan keçmişdə olanlara görə təqsiri üzərindən uzaqlaşdırmaq yolu tutur. O, gələcək təhlükəsizlik üçün Qarabağın itirilməsinə, minlərlə insanın ölümünə səbəb olan bütün uğursuzluqları sıradan çıxarmaq fikrindədir. Bu məqsədlə isə bölgənin lazımsızlığı xalq tərəfindən bəyan edilməlidir. Deməli, referendum mütləqdir və Nikol öz fikrinə xalqı da şərik çıxarmaq niyyətindədir.

***

Paşinyan bir müddət əvvəl ölkə parlamentindəki çıxışı zamanı bildirmişdi ki, hazırkı konstitusiya erməni xalqının iradəsi ilə deyil, erməni elitasının istəyi ilə qəbul olunub. Baş nazirin fikrincə, onun və komandasının bütün günahı xalqın mesajına düzgün münasibət göstərməməklə, bu mesajı təhlil etməməklə bağlıdır.

Bəli, Paşinyanın referendum naminə təbliğatında özünə biçdiyi günah libası xalqın arzularına əhəmiyyət verməməklə, sadə insanların sülh istəyini nəzərə almamaqla əlaqədardır. Onun keçmiş uğursuzluqlar üçün “günah keçisi” axtarışındakı digər obyektlər ekslər, ruslar və beşinci kolondur. Nikolun fikrincə, nəticə Ermənistanı



“minalanmış sahə”yə çevirib və hazırda ölkə cəhənnəmdə yana bilər. Əsas məqsəd “minalanmış sahə”dən minimum itki ilə çıxmaqdır. Buna görə xalqa yeganə mümkün çıxış yolunu göstərmək lazımdır. Paşinyan özünü və komandasını mövcud istiqamətdə məsuliyyətli saydığını açıqlayıb.

Ancaq baş nazirə qarşı çıxanların da öz arqumentləri var. Əlbəttə, buna arqument demək mümkünsə. Onlar deyirlər ki, “sülh naminə tostlar” yalnız Ermənistanda deyilmir. Qəzzada da, Ukraynada da bu barədə söz açılır. Yəni, hamı sülh istəyir, ancaq məsələ sülhün qiymətindədir. Anti-Paşinyançılar, eyni zamanda, bildirirlər ki, sülh və əminamanlıq qələbə çalmalı, təntənə qazanmalıdır. Belələri, hətta, bir qədər də rişxəndlə bildirirlər ki, ən təhlükəsiz yer qəbiristanlıqdır.

Deməli, sən saydığını say, görək, fələk nə sayır. Bu deyimi Ermənistan üzərinə uyğunlaşdırsaq, Paşinyan bir şey deyir, ona qarşı çıxanlar isə tamam başqa bir şey. Erməni xalqı isə mövcud dolaşıq labirintdə, sanki, əli-qolu bağlı vəziyyətdədir. Onun avantürizmə müqavimət göstərmək gücünün mövcudsuzluğu ortadadır. Eynilə 1999-cu ildə olduğu kimi. Hərçənd, xalqın köhnələrdən zəhləsinin getdiyini də söyləmək mümkündür. Amma köhnələrdən. Yəni, köhnəlik kimi qiymətləndirilən siyasi ab-havanı təmsil edən şəxslərdən.

Bəs köhnənin avantürizmindən yaxa qurtarmaq necə? Erməni xalqı və cəmiyyəti bunu istəyir və dərk edirmi ki, hazırda bu avantürizmdən qurtulmamaq keçmiş baş nazir Sarkisyanın dediyi kimi, erməni gənclərinin gələcəyini şübhə altına alacaq? Məsələ barədə nə isə söyləmək çox çətindir. Hər halda, suallara Paşinyanın keçirmək istədiyi referendumda aydınlıq gələcək. Təbii ki, onun referendum istəyi, ümumən, sülh niyyətinin nə dərəcədə səmimi olduğunu zaman göstərəcək. Nəzərə alaq ki, indiyədək ötən əlahəzrət zaman belə bir səmimiyyətin olmadığını da deməyə əsas verir.

Digər tərəfdən, hesab edək ki, Nikol və komandası səmimidir. O zaman daha bir sual da ortaya çıxır: Erməni uşaqlarının gələcəyini acınacaqlı aqibətə çevirmiş 1999-cu ilin siyasi terroru yenidən təkrarlanmayacaq ki?

***Ə.RÜSTƏMOV***
***XQ***

# İrəvanın Avropa İttifaqı üzərindən əks-təbliğat oyunbazlığı

## Missiyanın məramına zidd fəaliyyəti Aİ-nin Bakıdakı səfirinin diqqətinə çatdırılıb



**Avropa İttifaqının (Aİ) mülki monitorinq missiyasını ərazisinə buraxdığı iki ilə yaxın müddətdə Ermənistanın hansı oyunlardan çıxdığı göz qabağındadır. Əyinlərində bronejilet, əllərində binokl şərti sərhədin o tayında kəşfiyyat fəaliyyəti ilə məşğul olan Fransa jandermeriyasının və Almaniya ordusunun istefada olan əməkdaşları haraya, kimlərə və hansı xarakterdə hesabatlar göndərdiyi, məruzələr etdiyi bugünədək məlum deyil.**

Bizə məlum olan həqiqət isə ondan ibarətdir ki, rəsmi İrəvan avropalı missionerlərin bir çox hallarda özləri üçün də qeyri-müəyyən fəaliyyətindən Azərbaycana təzyiq etmək, bundan daha təhlükəlisi, sülh danışıqlarını ləngitmək, ordusunu gücləndirmək üçün fürsət qazanmaq məqsədini güdür. İqtidar partiyasından olan deputat Armen Xaçatryanın yüksək kürsüdən yaxın bir neçə ildə Ermənistanın “müasir döyüş qabiliyyətinə sahib orduya malik olacağını” bəyan etməsi sonuncu versiyanın doğruluğunu isbatlayır.

Təəssüf ki, İrəvana bu məsələdə Aİ ilə yanaşı, AŞPA, ATƏT kimi beynəlxalq institutlar, ABŞ da dəstək verirlər. Aİ-nin uzunmüddətli, yarımhərbi monitorinq missiyasının tərkibindəki yetərli sayda casus, kəşfiyyatçının Ermənistan və Azərbaycan arasındakı şərti sərhəddə hansı işlərlə məşğul olduğu və onların bu fəaliyyətindən İrəvanın necə yararlandığı aşkara çıxır.

Elə bu xarakterli təxribatçı fəaliyyəti səbəbindən dünən Aİ-nin Azərbaycandakı səfiri Peter Mixalko ilk dəfə Xarici İşlər Nazirliyinə çağırılıb. XİN-in yaydığı rəsmi məlumata görə, görüş zamanı qurumun Ermənistandakı monitorinq missiyasının əldə olunmuş ilkin razılıqlara zidd olan fəaliyyətinin ciddi narahatlıq doğurduğu səfirin diqqətinə çatdırılıb. Eləcə də sözügedən missiyanın regional sabitlik, habelə Azərbaycanla Ermənistan arasında etimad quruculuğuna töhfə vermək kimi bəyan etdiyi məqsədlərinə zidd olaraq, Azərbaycan əleyhinə təbliğat vasitəsi kimi geniş şəkildə sui-istifadə olunduğu vurğulanıb.



Yəni, adı mülki, özü yarım-hərbi olan bu missiyanın işi, əslində, Avropa dövlətlərinin rəsmi və qeyri-rəsmi emissarlarının, nümayəndə heyətlərinin sərhəd bölgələrinə səfərlərini təşkil etmək imiş. Qərbin ermənipərəst dairələrinin “binokl diplomatiyası”nı reallaşdıran, onların agentinə çevrilən Aİ missionerlərinin dözülməz əməlləri yetkililərin diqqətinə çatdırılmalı idi. Aydın məsələdir ki, “avropalı turistlərin” Cənubi Qafqaz turnesindən əsas məqsəd Azərbaycana qarşı hansısa ideoloji, diplomatik həmləyə zəmin hazırlamaq olub. Bu, azmış kimi, Avropanın ayrı-ayrı ölkələrində Azərbaycanofob, İslamofob çıxışların səngimək bilməməsi həmin qüvvələrin əsl niyyətlərini üzə çıxarır.

Bu əsnada bir vacib məqamı qeyd etməyimiz yerinə düşər. Aİ-nin yarımhərbi missiyasının XİN-in xəbərdarlığında vurğulanan təxribatçı hərəkətlərinin son aylarda şərti sərhəd boyu müşahidə edilən sakitliyin fonunda baş verməsi təsadüfi sayıla biməz. Əlalxüsus, həniri gələn təxribatın İrəvanın Bakı ilə etimad yaratmağa yönəlik addımlarının aşkar göründüyü indiki mərhələdə törədilməsi narahatlıq doğurmaqla yanaşı, maraqlı ehtimal və versiyalara yol açır.

Beləliklə, rəsmi Bakı Aİ-nin Ermənistan ərazisindəki missiyasının mandatı ilə üst-üstə düşməyən əməlləri barədə xəbərdarlığını Azərbaycandakı səfiri Peter Mixalkonun vasitəsilə qurumun başbilənlərinə çatdırdı. Bununla Azərbaycanın suverenliyinə, bərpa etdiyi ərazi bütövlüyünə qarşı istənilən xarakterli hərəkət və davranışlara göz yummayacağını, zərurət yarandığı təqdirdə isə hayların işinə yarayan belə təxribatların qarşısını qətiyyətlə alacağını nümayiş etdirdi. Aİ rəsmilərinin bu xəbərdarlıqdan düzgün nəticə çıxaracağına ümidlər az olsa da, Bakı bu jesti həm də beynəlxalq hüquqa və diplomatik etiketə hörmət əlaməti kimi ortaya qoydu.

***İ.HƏSƏNQALA***
***XQ***

### Ekspert rəyi

**Elxan ŞAHİNOĞLU,**
**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi şərhçi**



Avropa İttifaqının Azərbaycandakı nümayəndəsinin Xarici İşlər Nazirliyinə çağırılaraq xəbərdar edilməsinin siyasi əhəmiyyəti var. Bakı Aİ ilə tərəfdaşlığını davam etdirir və bu quruma üzv doqquz dövlətlə əməıkdaşlıq sazişi imzalamışıq. Üstəlik, Brüsselin sülh danışıqlarında vasitəçiliyi qüvvədədir. Aİ Şurasının rəhbəri Şarl Mişel bu günlərdə İlham Əliyevə telefon açıb, onu Azərbaycan Prezidenti seçilməsi münasibətilə təbrik edib. O, söhbət əsnasında Bakı və İrəvan rəsmiləri arasında Brüsseldə görüşün yenidən təşkili ilə bağlı təklifini verib. Öz növbəsində Azərbaycan Prezidenti bu təklifə müsbət yanaşdığını söyləyib. Doğrudan da, Şarl Mişel Avropanın digər rəsmilərindən fərqli olaraq, anti-Azərbaycan açıqlamaları vermir, balansı gözləyir.

Əlbəttə, Avropa İttifaqı təkcə Şarl Mişeldən ibarət deyil. Bu qurumun strukturlarının Ermənistana göndərdiyi monitorinq missiyası özünə uyğun olmayan fəaliyyətlə məşğul olur. Azərbaycanla şərti sərhəd bölgələrinə səfərlərini, az qala, turist gəzintisinə çeviriblər. Düzdür, onların Ermənistan ərazisində olmaları İrəvanın daxili işidir, amma bizim ərazilərə binoklla baxmaları və bu hərəkətlərin ənənə halını alması Bakının haqlı narazılığına səbəb olub. Bu narazılıq da mütləq nəzərə çatdırılmalıydı. Aİ səfirinin XİN-ə çağırılmasının başqa bir əhəmiyyəti ondan ibarətdir ki, əgər Brüssel Ermənistan baş naziri ilə Azərbaycan Prezidenti arasında görüş təşkil edəcəksə, deyilən məsələyə birdəfəlik əncam çəksin. Yəni, Bakının mövqeyini nəzərə alsın və hayların dəyirmanına su tökən bu cür təxribatlara son qoysunlar.

### KÖŞƏ

# Paşinyan “baş istehkamçı” rolunda

## Baş nazir ölkəsini minalanmış əraziyə bənzədib

**Hər cür müqayisə qüsurlu sayılsa da, hayların baş nazirinin cəmiyyətin düşdüyü vəziyyəti Ermənistanı minalanmış ərazi ilə hərəkət etməyə çalışan piyada ilə müqayisə etməsi maraqlı olduğu qədər də ibrətamizdir. Nikol Paşinyan bu “minalı qara zolaqdan” dövləti və xalqı üçün yalnız bir çıxış yolu göründüyünü deyir. Bu zaman özünü, çox güman ki, istehkamçı qismində təsəvvürünə gətirən baş nazir tarixə qısa ekskurs etməyi də unutmur: “Keçdiyimiz tarixi təcrübəni hərtərəfli analiz edəndə belə bir qənaətə gəlməliyik: biz öz dövlətimizin daimiliyini və təhlükəsizliyini təmin etməkdən ötrü dövlətin bünövrəsinə hansı ideologiyanı, hansı konsepsiyanı qoymalıyıq”.**



**İmran BƏDİRXANLI**
**İmranbedirxanlı01@gmail.com**

İki gün əvvəl Aştarakda “Mülki müqavilə” partiyasının təşəbbüs qrupunun toplantısında kürsüdən bu sözləri xitab edən baş nazir Paşinyan sonra partiyadaşlarına belə bir məntiqi sualla müraciət edir: “Dövlətimizin həmişə Ermənistan Respublikası kimi qalması üçün biz öz işlərimizi necə təşkil etməliyik?”

Hayların baş naziri sualına özü cavab verməyə çalışır. Onun sözlərinə görə, gəldiyi qənaət bundan ibarətdir ki, Ermənistan Respublikasının möhkəmliyinin və təhlükəsizliyinin təməlində rəsmi İrəvanın həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda həyata keçirdiyi siyasətin legitimliyi dayanmalıdır.

Bəs bu legitimliyə necə nail olmaq lazımdır? Təəssüf ki, Nikol Paşinyan bu suala birbaşa cavab verməkdən yayınır. Bunun əvəzinə deyir ki, hazırda erməni cəmiyyəti bir növ minalanmış əraziyə düşüb və bu təhlükəli zonadan çıxmağın yolları və üsulları o qədər də çox deyil. “Sonda belə məlum ola bilər ki, həmin minalanmış sahədən yalnız bir çıxış yolu mümkündür”, – deyən baş nazir indi iqtidarda olan və başçılıq etdiyi siyasi hakimiyyətin əsas vəzifəsinin nədən ibarət olduğuna diqqət çəkir: “İqtidar şəraiti düzgün qiymətləndirməli və bunu ictimaiyyətə açıqlamalıdır. Sonra bu vəziyyətdən qurtuluş yollarını göstərməli, həmçinin, bu yolun nə qədər riskli və təhlükəli olduğunu başa salmalıdır”.

Həqiqi vəziyyətdən danışmalı olduqlarını etiraf edən Paşinyan bunu günün reallığının ən vacib məsələsi kimi önə çıxarır: “İctimaiyyəti bu barədə məlumatlandırmağa borcluyuq. Həm də onu xəbərdar etməliyik ki, atacağı bir yanlış addım minalanmış sahədə partlayışa səbəb olacaq”.

Belə məlum olur ki, vətəndaşlarına hansı təhlükəli durumla üz-üzə qaldıqlarını başa salmağa çalışan baş nazir bununla həm də xaricdəki haylara mesaj yollayır. Yəni, ay xalqın vəziyyətindən xəbərsiz lobbiçilər, diaspora zənginləri, başınızdan yuxarı tullanmağa çalışmayın. Onsuz da nə qədər yüksəyə qalxsanız da, qayıdıb minalanmış sahəyə düşəcəksiniz. Bunu dəqiq, bəzək-düzəksiz ermənilərə bəyan edən Paşinyan, zorən, ya könüllü, boynuna dövləti və xalqı həmin minalanmış ərazidən qurtaracaq baş istehkamçı vəzifəsini götürüb. Bəli, onu qarşıda çox çətin və təhlükəli bir missiya gözləyir. Hakimiyyətdə olduğu altı ilə yaxın müddətdə başı daşdan-daşa dəymiş Ermənistanın baş naziri, yəqin o təhlükəli əraziyə minaları “özününkülərin” – revanşist-daşnakların basdırdığını da bilməmiş deyil.

İstehkamçılar müharibə şəraitində olduqca önəmli missiyanı yerinə yetirirlər. Ordunun irəliləməsi üçün yolu, bəndi-dərəni minalardan təmizləyən bu xüsusi qoşun növünün xidmətindən bəzən bütöv alayın, briqadanın müqəddəratı asılı olur. Cəmiyyətin minalanmış sahəyə düşməsi isə daha qəliz məsələdir. İndi Nikol Paşinyan Ermənistan cəmiyyətini bu təhlükəli zonadan çıxarmaq üçün yollar aramaqdadır. Özünün etiraf etdiyi kimi, “əgər bir yanlış addım atarsa, həmin minalanmış sahədə partlayış baş verə bilər”. Yəni, indiki durumda özünü cəmiyyətin baş istehkamçısı rolunda görən hayların baş naziri yanlışlığa yol vermək şansının olmadığını yaxşı anlayır. Həm də onu da gözəl anlayır ki, istehkamçı öz işində yalnız bir dəfə səhvə yol verir.

# Yeni tarixin ilk səhifəsi: seçki və quruculuğun strateji məqamları



**II MƏQALƏ**

**Əgər gələcək haqqında düşünmürsünüzsə, istədiyiniz sabah olmayacaq.**

**Con Qolsuorsi**
**(Nobel mükafatı laureatı)**

## Yaxın gələcəyin iki mühüm siyasi amili

I məqalədə 7 fevral Prezident seçkilərinin nəticələrinə yaxın perspektivin reallıqları prizmasında baxmağın gərəkliyi məsələsi qoyulmuşdu. Orada Prezident İlham Əliyevin strateji olaraq intellektual, informasiya və mədəni həmlə ilə yeni tarixi mərhələdə liderlik fəlsəfəsini və liderlik nümunəsini yeniləşdirməyə başlamasının aktuallığı vurğulanmışdır. Özlüyündə bu proses kompleks xarakterlidir, bir sıra mürəkkəb siyasi, geosiyasi, ideoloji və şəxsi keyfiyyətləri özündə birləşdirir. Həmin bucaq altında seçkinin nəticələrinin çox əhəmiyyətli rol oynadığını dərk etmək çətin deyildir. Məsələnin bu tərəfinə iki faktorun işığında baxmaq faydalı olardı.

Birincisi, seçki Azərbaycan üçün konkret bir tarixi mərhələnin yekunudur. Bu mərhələdə milli ideyaya nail olunmuş və ölkənin davamlı inkişafı təmin edilmişdir. Güclü cəmiyyət quruculuğu özünün yeni səviyyəsinə yüksəlmişdir. Onun başlıca əlamətləri toplumun birliyi və yeni nəslin milli ruhda tərbiyəsidir. Toplumun birliyi (və ya cəmiyyətin həmrəliyi) indiki mərhələdə kollektiv fəaliyyəti uğura aparan substantiv və funksional faktordur. Milli birlik olmadan II Qarabağ savaşı kimi çətin və mürəkkəb vəzifənin öhdəsindən gəlmək mümkün deyildi.

Bununla yanaşı, yekunlaşan həmin mərhələdə toplumsal birliyi liderin təmin etməsi əsas rol oynamışdır. Yəni birlik sifarişi cəmiyyətin mövcud olduğu tarixi mərhələnin özəlliklərinin dərinlərindən gəlsə də, onun aparıcı, istiqamətverici və təminedici gücü lider olmuşdur. Liderin fəaliyyəti cəmiyyətdə həmrəyliyi yeni şərtlər daxilində stimullaşdırmış, kommunikativ (ünsiyyət) aspektdə onu yeni səviyyəyə yüksəltmişdir. Buna görə də yekunlaşan mərhələdə cəmiyyətin birliyinin başlıca faktorunun lider olduğu nəticəsini çıxara bilərik. Seçkilərin nəticəsi bunu rəqəmlərdə ifadə etmişdir. İlham Əliyevin 92,12 səs alması cəmiyyətin mütləq əksəriyyətinin Prezidenti dəstəklədiyinin, ona güvəninin çox yüksək olduğunun təsbitidir.

Eyni zamanda, həmin nəticə cəmiyyətin sosial həmrəyliklə yanaşı, siyasi həmrəyliyə də malik olduğunun göstəricisidir. Bu isə yalnız liderin fəaliyyətinə verilən kütləvi siyasi qiymət, toplumsal münasibətdir. Deməli, yüksək nəticənin seçki kontekstində başqa anlamı cəmiyyətin siyasi birliyinin nümayişidir. Bu aspektdə İlham Əliyevin qələbəsi həm də Azərbaycanın cəmiyyət olaraq gələcəyə "yatırmaq istədiyi siyasi liderlik krediti"ni ifadə edir.

## Cəmiyyətin "siyasi liderlik krediti"

"Siyasi liderlik krediti" ifadəsi lideroloq E.Hollanderin daxil etdiyi liderin "etibarlılıq krediti" anlayışından qaynaqlanır. Bu anlayışın kökündə liderin hər hansı qeyri-standart yenilik etmək istəyində cəmiyyət tərəfindən ona olan etibarı, yəni sərbəst fəaliyyət göstərmək dərəcəsi dayanır. Toplumun siyasi liderə inamının səviyyəsindən asılı olaraq, onun reallaşdırmaq istədiyi, öncələr müşahidə edilməyən yeniliyə etibarı formalaşır. Əgər liderə etibar böyükdürsə, siyasi liderin "krediti" də çoxdur. Bu etibarın fonunda liderin atdığı addımlar müsbət sonuclar verirsə, liderliyə olan etibarlılıq krediti artır, əks halda lideri iflas gözləyir.

Deməli, siyasi etibarlılıq krediti faktiki olaraq toplumun gözləntilərini qarşılamaq məharəti ilə bağlıdır. Bu da avtomatik olaraq məsələni liderlik nümunəsinə aparıb çıxarır. Yəni liderin hansı liderlik modeli üzrə fəaliyyət göstərməsi artıq strateji əhəmiyyət kəsb edir.

Bu baxımdan Azərbaycan cəmiyyəti seçkinin nəticəsi ilə Prezident İlham Əliyevə yeni tarixi mərhələ üçün yüksək etibarlılıq "krediti" vermişdir. Azərbaycan üçün siyasi liderliyin bu krediti dövlətçilik və liderlik nümunəsi baxımından, şübhəsiz ki, strateji mahiyyət kəsb edir. Çünki etibarlılıq kreditinin siyasi aspektdə əsas komponentləri sırasında iki vacib faktor da vardır: siyasi həyatda iştirak dərəcəsi və vətəndaş cəmiyyətinin inkişaf formaları!

7 fevral seçkiləri hər iki faktor üzrə aydın mənzərəni ortaya qoydu. Birincisi, seçkidə fəallıq çox yüksək oldu. Bu da seçicinin Prezidentə etibarlılıq dərəcəsinin mükəmməl səviyyədə olmasının göstəricisidir. Nadir cəmiyyətlərdə bu baş verə bilir. İkincisi, Prezident İlham Əliyev 2024-cü ilin yanvarında yerli telekanallara verdiyi müsahibədə vurğulamışdı ki, yekunlaşan mərhələnin başlıca əlamətlərindən biri vətəndaş cəmiyyətinin formalaşmasıdır. Azərbaycanda vətəndaş cəmiyyəti multikulturalizm formasında yaranmışdır. Multikultural dəyərlərin aparıcılıq təşkil etdiyi cəmiyyəti azad vətəndaş toplumu adlandırmaq olar. Seçkilər göstərdi ki, həmin modeli vətəndaşlar tam olaraq qəbul edirlər və onu reallaşdıran liderə də tam etimad göstərirlər.

Bu fikirlərdən digər mühüm faktor alınır. Yəni, seçkilərin nəticəsi Azərbaycan toplumunun yeni tarixi mərhələ üçün yeni liderlik nümunəsinə sifarişi olduğunu göstərmişdir! Bu, həm maraqlı, həm də strateji mənası dərin olan hadisədir! Müəyyən mənada söhbət Azərbaycanın liderlik kontekstində sinqulyarlıq mərhələsini fəth etməsi modelindən gedir.

## Yeni mərhələdə quruculuq və liderlik

Beləliklə, Azərbaycan Prezidenti yeni tarixi mərhələ üçün cəmiyyətin yüksək "siyasi etibarlılıq kreditini" almışdır. Bu, özlüyündə quruculuğun və liderliyin yeni mərhələdə fəlsəfəsini tələb edir. Azərbaycan xalqı bu vəzifənin öhdəsindən Prezident İlham Əliyevin yüksək səviyyədə gələcəyinə tam inanır. Bunu həm seçkilərin rəqəmlərdə ifadə olunan nəticəsindən, həm də seçkilərdən sonra toplumun İlham Əliyevin qələbəsinə olan reaksiyasından görmək mümkündür. Belə ki, sözün həqiqi mənasında, xalq dövlətin və cəmiyyətin gələcək zəfərlərini yalnız İlham Əliyevin liderliyində görür! Bu, mühüm zəruri bir şərtdir. İlham Əliyevin liderlik nümunəsi Avrasiya üçün bir örnəkdir. Bunun alternativi yoxdur. Deməli, biz 2031-ci ilə qədər olan müddətdə Azərbaycan Prezidentinin yeni tarixi mərhələdə quruculuq modelinin və ona uyğun liderlik nümunəsinin inkişafının şahidi olacağıq. Burada quruculuq və liderlik baxımından hansı əlamətləri əhəmiyyətli saymaq olar?

## Yaradıcı cəmiyyət: intellektual, mədəni və informasiyalı vəhdət

Yeni mərhələdə Azərbaycan cəmiyyətinin keyfiyyət transformasiyalarının davam edəcəyi gözlənilir. İlham Əliyev, ümumiyyətlə, fəaliyyətində insan kapitalına önəm verdiyindən bu mərhələdə də insanın intellektual potensialının milli sərvətə çevrilməsinin inkişaf edəcəyini proqnozlaşdırmaq olar. Azərbaycan Prezidentinin bu cür "intellektual gedişi" XXI əsrin yeni texnoloji reallıqlarına tam uyğundur. Cəmiyyət intellekti yüksək olan insanların sayəsində müasir tələblərə uyğun davamlı inkişaf edə bilər. Buna görədir ki, ölkənin strateji sənədlərində təhsil ön sırada yer alır. Təhsilin yeni modelinin tətbiqi və yüksək peşəkarlığa malik kadrların, xüsusilə gənclərin yetişdirilməsi strateji əhəmiyyəti olan məsələ kimi qəbul edilir.

Digər faktor mədəniyyət sisteminin daha da inkişaf etdirilməsidir. Etiraf olunur ki, XXI əsr mədəniyyətlərin rəqabəti əsridir. Mədəni inkişaf potensialı yüksək olan cəmiyyətlər bu yarışın qalibi ola bilərlər. Bu isə özlüyündə çoxaspektli mədəni inkişaf modelinin hazırlanmasını tələb edir. Azərbaycanda mədəniyyətin milli zəmində, lakin başqa mədəni sistemlərə də açıq olması kontekstində inkişafı həyata keçirilir. Bunun fonunda yeni mərhələdə mədəniyyətlərarası dialoqun yeni səviyyəyə yüksəldilməsini gözləmək olar.

Nəhayət, üçüncü faktor olan informasiya həmləsi geniş məna və məzmuna malik prosesi ifadə edir. Bura rəqəmsallığın inkişafı da daxil müxtəlif proqramların reallaşması aiddir. Məsələnin ekoloji aspekti də mövcuddur. Konkret olaraq, "yaşıl iqtisadiyyat"ın formalaşması birbaşa rəqəmsallaşma ilə bağlıdır. Yeni informasiya-kommunikasiya texnologiyalarının tətbiqi yeni tarixi mərhələnin başlıca istiqamətlərindən biri kimi görünür.

## Liderlik nümunəsi: növbəti mərhələ

Seçkilərin nəticələrinə baxanda, İlham Əliyevin 2030-cu ildə reallaşacağı gözlənilən sinqulyarlıq mərhələsini yeni liderlik nümunəsi ilə fəth edəcəyi gözlənilir. Həmin liderlik nümunəsinin milli, regional, ümumtürk və qlobal aspektləri vardır. Milli miqyasda İlham Əliyevin liderliyinin toplum tərəfindən tam dəstəkləndiyini 92,12 faiz səs aydın əks etdirir. Burada Azərbaycan Prezidentinin XXI əsrin şərtləri daxilində quruculuqla birləşdiricilyi üzvi surətdə sintez etməsi əsas yeri tutur. Prezidentin yüksək "siyasi liderlik krediti"nə malik olması onu deməyə əsas verir ki, qarşıdakı müddətdə bu istiqamətdə kifayət qədər cəsarətli və səmərəli addımlar atacaq, qeyri-standart yeniliklərin memarı olacaqdır.

Yeni liderliyin regional konteksti də çox aktual və maraqlıdır. İlham Əliyevin region miqyasında aparıcı nümunəvi liderliyi davam edəcəkdir. Azərbaycan Prezidenti cəsarətli layihələri və sülhyaradıcı fəaliyyəti ilə regionda sabitlik və inkişafın qarantı olmaqda davam edəcəkdir. İlham Əliyevin təşəbbüsü və eksklüziv fəaliyyəti ilə "Qafqaz evi" ideyası reallaşacaqdır. Bununla dövlət başçımızın Cənubi Qafqazda liderliyi tam inklüziv xarakter alacaqdır.

Beləliklə, 7 fevral Prezident seçkilərinin nəticələri prizmasında yaxın perspektiv üçün olduqca əhəmiyyətli vəzifələr meydana çıxmışdır. Azərbaycan, faktiki olaraq, həmin mərhələyə sürətli yeniləşməni davam etdirməklə və onun tələblərinə uyğun liderlik nümunəsi formalaşdırmaqla başlamışdır. Stratejidə Azərbaycan dövlətinin məqsədi sinqulyarlıq mərhələsini fəth etməkdir! Bu mərhələnin fatehi yeni ümummilli liderlik nümunəsidirmi? İlham Əliyevin fəaliyyətinin ümumi fəlsəfi və sinergetik anlamına dərindən nəzər salanda bu suala müsbət cavab vermək olur! Bu, milli, regional, ümumtürk və qlobal səviyyələrdə uğurlu liderlik nümunəsinə böyük ehtiyacın yaranması ilə izah oluna bilər. Bu kontekstdə ən şanslı lider isə İlham Əliyevdir!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Prezidentin anonsunu verdiyi dövr başlanır

(əvvəli 1-ci səhifədə)

Məmnunluq gətirən amillərdən biri də odur ki, seçkidən bir həftə keçməsinə baxmayaraq, dövlət başçımızın ünvanına gələn təbrik məktublarının ardı-arası kəsilmir. Hətta, bəzən bizim maraqlarımıza cavab verməyən bəyanatlar səsləndirmiş Avropa siyasətçiləri də özlərində qətiyyət taparaq, Azərbaycan Prezidentini təbrik edirlər. Bu isə bəzilərinin gözlədiyinin əksinə olaraq, Azərbaycan xalqının mütləq əksəriyyətinin Prezident İlham Əliyevin ətrafında birləşdiyini sübut etməsinin nəticəsidir.

Xalqın bu seçkidə nümayiş etdirdiyi qətiyyət və əzmkarlıq barədə söz düşmüşkən, mən bir faktı da – iki-üç cümlə ilə olsa da, xatırlatmağı məqsədəuyğun hesab edirəm. Söhbət ondan gedir ki, İsmayıllıda yaşayan Facebook dostum Aslan Aslanovun paylaşdığı "Seçici əzmkarlığı" adlı videomaterial mənim ürəyimi dağa döndərmişdi. Sükan arxasındakı soydaşımız 35-40 santimetr qalınlığında olan qarı avtomobillə yara-yara ucqar dağ kəndinə, səs verməyə gedir. Həmin anlarda fikirləşmişdim ki, dağ rayonunun sadə vətəndaşının ürəyində bu təpər varsa, hansısa Makronun, Paşinyanın və ya onlara bənzəyənlərin istənilən cəfəngiyyatlarının bir qara qəpiklik dəyəri olmayacaq. Qərəz...

Dünya hərb tarixinə çoxsaylı nümunələr bəxş etmiş çinlilərin müharibə və mübarizə aparan tərəflər haqqında belə bir deyimi var: "Çox əsgəri, silahı, pulu olanlar deyil, çox dostu olanlar qalib gəlirlər". Əslində, burada qeyri-adi bir məntiq yoxdur. Müdriklik bu fikri tamamlayan sonuncu ifadədədir, yəni, çox dostu olanlar qalib gəlirlər. Çox dostu isə ancaq müdrik liderlər qazana bilirlər.

Nə zaman, neçənci əsrdə, hətta kim tərəfindən deyildiyi belə dəqiqləşdirilməyən bu Şərq məntiqini oxuyanda adama elə gəlir ki, həmin sətirlərin müəllifi müasir Azərbaycan tarixi haqqında danışıb. Çünki xalqımızın iki yüz illik mübarizəsinin cəmi iyirmi ildə möhtəşəm zəfərlə yekunlaşdırılması bilavasitə liderin böyüklüyünün göstəricisi olduğu kimi, iki əsr boyu özü və ordusu haqqında ağlasığmaz miflər uyduran ermənilərin sarsıdıcı məğlubiyyətə düçar olması da məhz lidersizliyin nəticəsi idi.

Bu məqamda rusiyalı politoloq Sergey Markovun "Mən Azərbaycan və Ermənistan dövlət başçılarının nüfuz və ya təcrübəsini yan-yana qoymaq fikrindən uzağam"– ifadəsi elə mənim də köməyimə çatır. Çünki əvvəlki yazılarımdan birinə münasibət bildirən bəzi tələskən oxucular dərhal etiraz etmişdilər ki, hansı haqla oyuncaq dövlətin səbatsız və savadsız rəhbərinin adını dünya azərbaycanlılarının böyük liderinin adı ilə yanaşı çəkirsiniz? Təbii ki, elə düşünənlər də haqlıdırlar. Ancaq biz məğlub etdiyimiz, diz çökdürdüyümüz, kapitulyasiya sənədinə imza atdırdığımız, ordusunu və iqtisadiyyatını sarsıtdığımız dövlət haqqında danışarkən hansısa Afrika ölkəsinin rəhbərinin adını çəkə bilmərik axı.

Azərbaycan Prezidenti İlham Əliyev bu il yanvarın 10-da ölkənin yerli televiziya kanallarına müsahibə verərkən dedi ki, fevralın 7-də keçiriləcək prezident seçkiləri Azərbaycanın yeni mərhələyə qədəm qoyması ilə bağlıdır: "Bu gün ölkə qarşısında duran yeni vəzifələr yeni dövrün vəzifələridir. Biz... ölkəmizin suverenliyini tam bərpa etmişik və Sentyabr hadisələri, əlbəttə ki, ümumi kontekstdən çıxarıla bilməz. Yəni, sentyabra qədər getdiyimiz yol məqsədyönlü yol idi, məqsədə hesablanmış yol idi, düzgün yol idi. İstər siyasi müstəvidə, istər hərbi müstəvidə, istər ölkəmizdə gedən proseslər nöqteyi-nəzərindən bu hadisə bütün işlərimizin, elə bil ki, son nidası idi. Bu gün biz 2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi, xalq kimi başlayırıq. Hesab edirəm ki, müasir tariximizin yeni dövrü məhz sentyabrın 20-dən sonra başlayır".

Gün kimi aydın fikirlər və təkcə ölkə əhalisinin deyil, dünyanın hər yerindəki soydaşlarımızın səfərbər edilməsinə zəmin yaradan arqumentlərdir. İnanıram ki, bu cümlədəki "səfərbər eləmək" ifadəsi İrəvanda zərrəbinlə "tədqiq ediləcək" və yeni vay-şivən qaldıracaqlar. Qoy, olsun!

Bəs biz tərəqqinin növbəti mərhələsinə, inkişafın yeni dövrünə kimlərlə gedirik? Əlbəttə, ənənəvi dost, tərəfdaş ölkələrimizlə. Bu məqamda təkcə Türkdilli Dövlətlər Təşkilatının məlum üzvlərini və Qoşulmama Hərəkatındakı 120 dövlətdən ibarət tərəfdaşlarımızı nəzərdə tutmuruq. Onu da nəzərə alırıq ki, həm də Avropa İttifaqının iqtisadi baxımdan ən güclü olan ölkələrinin doqquzu ilə strateji tərəfdaşlıq səviyyəsində münasibətlərimiz var.

Bundan başqa, Asiya və Avropa iqtisadiyyatlarını bir-birinə qovuşdurmaq üçün mükəmməl iqtisadi layihələr hazırlayan Çin Xalq Respublikası da öz ideyalarının icrası prosesində Azərbaycana inanır, güvənir və olduqca böyük etimad göstərir. Üstəlik, Rusiya Federasiyası ilə Strateji Müttəfiqlik Fəaliyyəti haqqında sənəd imzalamışıq.

Bu məqamda ABŞ-ın Azərbaycana olan inamını, rəsmi Bakının Vaşinqtonla əməkdaşlıqda nümayiş etdirdiyi sədaqəti də unutmaq olmaz. Nə olsun ki, bir qrup ermənipərəst senator, İrəvanın sifarişlərini yerinə yetirən konqresmen və ya ikili standartlardan əl çəkə bilməyən riyakar siyasətçilər ölkəmizə qarşı ədalətsiz mövqe tutur, əsası olmayan iddialarla çıxış edirlər. Onlar son iyirmi ildə prezident səviyyəsində Vaşinqtondan Bakıya göndərilmiş məktubları açıb oxusunlar. Həmin məktubların hamısında birmənalı şəkildə etiraf olunur ki, Ağ ev bundan sonra da Azərbaycanla əməkdaşlıqda maraqlıdır və biz bunu davam etdirəcəyik.

Çox əcəb. Bəs Ermənistanın yanında kim var? Bəri başdan xatırladaq ki, Ermənistanın hansısa yeni dövrə getmək istəyi də yoxdur, imkanı da. Onlar olsa-olsa öz terrorçuluq ənənələri ilə köhnə dövrə – XIX əsrin sonları, XX əsrin əvvəllərinə qayıda bilərlər. Həmin qayıdış zamanı yanlarında görəcəkləri Paris və Dehli, qazancları isə Fransanın Afrikadan çıxarılmış silahları və Hindistanın əlli il əvvəlki texniki vasitələri olacaq. Çünki bu ölkənin lidersizliyi Ermənistanın öz müttəfiqlərini tez-tez dəyişməsi ilə nəticələnir. Fəsadlar isə gündən-günə artır.

Türk jurnalist Əli Göydənizin dediyi kimi, bu gün Ermənistanda qaraçı qaraçını tapıb, riyakar da riyakarı. Qoy getsinlər görək, hara qədər gedəcəklər.

***İttifaq MİRZƏBƏYLİ***

# Xarici İşlər Nazirliyində

## Azərbaycanın narahatlığı Aİ-nin səfirinə çatdırılıb

**Fevralın 12-də Avropa İttifaqının Azərbaycan Respublikasındakı səfiri Peter Mixalko Xarici İşlər Nazirliyinə çağırılıb.**



Nazirliyin Mətbuat xidməti idarəsindən bildiriblər ki, görüş zamanı Aİ-nin Ermənistandakı monitorinq missiyasının əldə edilmiş ilkin razılıqlara zidd olan fəaliyyətinin ciddi narahatlıq doğurduğu bir daha diqqətə çatdırılıb.

Sözügedən missiyanın regional sabitlik, habelə Azərbaycanla Ermənistan arasında etimad quruculuğuna töhfə vermək kimi bəyan edilmiş məqsədlərinə zidd olaraq, Azərbaycan əleyhinə təbliğat vasitəsi kimi geniş şəkildə sui-istifadə edildiyi vurğulanıb.

Missiyanın mahiyyət etibarilə müxtəlif Avropa rəsmilərinin, habelə qeyri-rəsmi nümayəndə heyətlərinin sərhəd bölgələrinə səfərlərinin təşkilinə töhfə verən “binokl diplomatiyası”nın agentinə çevrildiyi Aİ tərəfinin diqqətinə çatdırılıb. İstisnasız olaraq bu qəbildən bütün səfərlərdən Azərbaycana qarşı nifrətin yayılması, habelə əsassız Azərbaycanofobiyanın genişləndirilməsi üçün istifadə edildiyi bildirilib.

“Binokl diplomatiyası”nın bu fəallığının sərhəd boyunca indiyədək görülməmiş sakitliyin hökm sürdüyü, habelə həm Azərbaycanın, həm də Ermənistanın ciddi etimad quruculuğu tədbirləri həyata keçirdiyi bir zamanda müşahidə olunmasının xüsusilə narahatlıq doğurduğu diqqətə çatdırılıb.

Bununla yanaşı, monitorinq missiyasının məsul olduğu bölgələrdə qanunsuz keçid cəhdinin qarşısının alınması ilə bağlı son hadisə onun bəyan edilmiş tapşırıqlarına ciddi kölgə salır.

Bu qəbildən narahatlıq doğuran fəaliyyət heç bir şəkildə qeyd olunan missiyanın neytral bir aktor kimi inam və etimad quruculuğuna töhfə verməklə bağlı bəyan edilmiş məqsədlərinə uyğun gəlmir.

Həmçinin Ermənistan ərazisində yerləşdirilən missiyanın bəyan edilmiş mandatına uyğun olaraq neytral, mülki və silahsız missiya kimi fəaliyyət göstərməsi, habelə Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə qarşı yönəlmiş və ya onun legitim təhlükəsizlik maraqlarına bu və ya digər şəkildə təsir edəcək hər hansı fəaliyyətdən çəkinməsini təmin etmək üçün bütün lazımi tədbirlər görməyə dair Aİ tərəfinə ciddi şəkildə çağırış edilib.

***XQ***

## Ermənistan ərazi iddialarını davam etdirməkdədir

**Fevralın 11-də Ermənistanın baş naziri Nikol Paşinyan “The Telegraph” qəzetinə verdiyi müsahibə zamanı Azərbaycana qarşı növbəti dəfə böhtan xarakterli əsassız iddialar səsləndirib. Müsahibə zamanı, beynəlxalq razılıqların və öhdəliklərin yerinə yetirilməsini təşviq edən Ermənistan baş nazirinin təmsil etdiyi ölkəsinin beynəlxalq hüququn bütün norma və prinsiplərinə, habelə istinad etdiyi Alma-Ata bəyannaməsinə məram və məqsədlərinə zidd olaraq Azərbaycan ərazilərini 30 ilə yaxın müddətdə işğal altında saxlaması faktının üzərindən keçməyə çalışması təəssüf doğurur.**

Bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin Paşinyanın müsahibə zamanı səsləndirdiyi iddialara dair şərhində yer alıb.

**Şərhdə deyilir:** “Bununla yanaşı, 44 günlük Vətən müharibəsindən sonra Ermənistanın üçtərəfli Bəyanatın müddəalarını kobud şəkildə pozaraq, Azərbaycan ərazilərindən işğalçı qüvvələri çıxarması, ərazilərimizə silah-sursat, hərbi texnika və minaları ötürməkdə davam etməsi və digər kobud pozuntu və təxribatlar törətməsi barədə danılmaz faktlar Ermənistan tərəfinin əsl niyyətindən xəbər verir.

Ermənistan baş nazirinə, o da yaxşı məlumdur ki, Ermənistan tərəfi Praqa və Soçi görüşlərində və daha sonra Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan etsə də, Azərbaycan ərazilərində yaratdığı qondarma rejimin saxta “müstəqilliyi” ilə bağlı 2023-cü ilin sentyabr ayında təbrik bəyanatları verməklə yanaşı, bu günədək beynəlxalq təşkilat və məhkəmələrdə Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı iddiaları davam etdirməkdədir.

Ermənistan tərəfinin Alma-Ata bəyannaməsinə qoşulan zaman verdikləri qeyd şərti, Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa qarşı çıxan qüvvədə olan qanunvericilik aktlarının mövcudluğunu unutdurmağa çalışması da digər ciddi narahatlıq mənbəyidir.

Ermənistan tərəfi belə təxribatlar və Azərbaycana qarşı siyasi manipulyasiya dolu fikirlər və addımlar əvəzinə, sözdə deyil, əməldə beynəlxalq öhdəliklərə riayət etməli və sülh prosesinə töhfə verməlidir”.

***XQ***

## İrəvanın təxribatı sülh prosesinə ciddi zərbədir

**Fevralın 12-də Ermənistan silahlı qüvvələrinin növbəti hərbi təxribatı nəticəsində Azərbaycan Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu yaralanıb. Ermənistan tərəfinin bu təxribatı iki ölkə arasında sülh prosesinə ciddi zərbədir.**

XİN-dən bildirilib ki, son 4-5 ay ərzində sabitliyin hökm sürdüyü bir mühitdə bu kimi təhrikedici əməllər Ermənistan tərəfindən bəyan olunan sülh mesajları ilə açıq-aşkar ziddiyyət təşkil edir.

Eyni zamanda, bu kimi təxribatın məhz Ermənistandakı Avropa İttifaqı Missiyasının müşahidə həyata keçirdiyi ərazidən baş verməsi bu missiyanın məqsəd və məramlarına dair ciddi suallar yaradır.

Azərbaycana qarşı baş verən belə təxribatlara görə Ermənistanın hərbi-siyasi rəhbərliyi məsuliyyət daşıyır.

***XQ***

## Ermənistan tərəfdən mövqelərimiz atəşə tutulub

**Fevralın 12-də saat 13:37 radələrində Azərbaycan-Ermənistan şərti dövlət sərhədinin Zəngilan rayonu ərazisindən keçən hissəsində Ermənistan silahlı qüvvələrinin Qafan rayonunun Nerkin-And yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeyindən Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının Zəngilan rayonunun Kolluqışlaq kəndi ərazisində yerləşən mövqeyinə atəş açılıb.**




DSX-dən bildiriblər ki, təxribat nəticəsində Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu əsgər Xəlilzadə Pərviz Ağakişi oğlu yaralanıb. Hərbi qulluqçu helikopterlə ixtisaslaşmış tibb müəssisəsinə təxliyə edilib.

Baş vermiş hadisə, o cümlədən qarşı tərəfdən atəşin açılması anı videomüşahidə kameraları vasitəsilə qeydiyyata alınıb.

Hazırda əməliyyat şəraiti sabitdir və bölmələrimizin nəzarəti altındadır.

Ermənistan tərəfinin bu növbəti təxribatına görə məsuliyyət tam şəkildə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

***XQ***

# Nikolun “The Telegraph” nağılı

## Ermənistanın baş naziri sülh niyyətinin olmadığını bir daha açıqladı

**“Mən regionumuzda sülhün bərqərar olması üçün hər şeyi edəcəyəm”. Bunu Ermənistan baş naziri Nikol Paşinyan Britaniyanın “The Telegraph” nəşrinə müsahibəsində deyib. Necə deyərlər, avazın yaxşı gəlir, oxuduğun Quran olsa.**

Əlbəttə, bildirdiyimiz el misalıdır, ancaq onu da deməliyik ki, Nikolun nəinki Quranla, ümumən, heç bir müqəddəs kitabla hansısa əlaqəsi yoxdur. Erməni baş nazirin aşağıdakı fikri nə üçün işlətdiyini söyləmək də çətindir: “Mən Allaha inanıram və hesab edirəm ki, özünə hörmət edən hər bir dövlət beynəlxalq öhdəliklərinə hörmətlə yanaşmalıdır”.

Əlbəttə, bəzən vətənpərvərlik vicdansızlar üçün son sığınacaq olur. Demək istəmirik ki, Nikol vicdansızdır. Hərçənd, onun Ermənistan dövləti xüsusunda populistcəsinə söylədikləri, istər-istəməz, diqqətə çatdırdığımız deyimi aktuallaşdırmaqdadır. Paşinyanın vətənpərvərliyi özünü ölkəsini demokratik məmləkət qiyafəsində beynəlxalq ictimai rəyə sırımasında göstərir. Bəli, sırımasında. O, hesab edir ki, daim demokratiyadan danışmaqla, dünyanın anti-Azərbaycan qüvvələrinə, ölkəmizi insan hüquq və azadlıqları xüsusunda günahlandırmaq yolu tutanlara əlavə “fəaliyyət arqumenti” qazandırır. Ancaq dünya hər şeyi görür. Dünya görür ki, Paşinyanın demokratizmi sabun köpüyündən o yana keçmir. Ona görə də Nikol Britaniya nəşrinin ölkədə həbslərlə bağlı sualına cavab vermək məcburiyyətində qalır və ağ yalan danışır: “2018-ci ildən sonra Ermənistanda məhkəmə-hüquq sistemində və hüquq sahəsində dərin islahatlar başladı və biz böyük irəliləyişlər əldə etdik. Bizdə kimin həbs edilməsinə, kimin tutulmayacağına baş nazir qərar vermir”.

Guya ki, dünyanın harasındasa kiminsə həbsinə qərar verən hökumət rəhbəridir. Məsələ ondadır ki, Ermənistandakı qanunsuz həbslər və repressiv hərəkətlər demokratiyanı imitasiya edən Paşinyanın idarəçilik üsulunun ortaya çıxardığı acı reallıqdır. Yəni, şərt o deyil ki, həbs sifarişini şəxsən baş nazir özü versin. Nikolun anlamadığı budur. Ancaq Paşinyan əsəbləşməyi bacarır: “Mən sizin adsız mənbəyə, yaxud başqalarının istinad etdiyi, lakin sitat gətirdiyiniz adsız mənbəyə şərh verməyəcəyəm”.

Əlbəttə, Ermənistanın baş naziri cəfəngiyyata köklənməyi də əla bacarır. Xüsusən Azərbaycanla, ölkəmizlə sülh prosesi ilə bağlı danışanda. “2022-ci il oktyabrın əvvəlində Praqada Fransa prezidentinin və Avropa İttifaqı Şurası prezidentinin iştirakı ilə Ermənistan və Azərbaycan Alma-Ata Bəyannaməsi əsasında bir-birinin suverenliklərini qarşılıqlı şəkildə tanıdılar. Bundan sonra oktyabrın 30-da Rusiyada tərəflər sərhədlərin və iki ölkənin suverenliyinin tanınması əsasında kommunikasiyaların açılmasını təsdiqlədilər. Bu, 2023-cü ilin mayında Brüsseldə keçirilən görüşdə bir daha təsdiqləndi”, – deyən Nikol Azərbaycanı ittiham edir və müsahibənin davamında səsləndirdiyi fikirlərdən də onun niyyətinin nədən ibarət olduğunu görmək çətinlik törətmir. Başlıca məqam isə ondadır ki, hökumət rəhbərinin dediyi kimi, Ermənistan Azərbaycanın suverenliyini tanıyırdısa, nə üçün 2023-cü ilin sentyabrına – lokal xarakterli antiterror tədbirlərinədək, Qarabağda qanunsuz erməni silahlı birləşmələri saxlanılırdı? Hansı səbəbdən Paşinyan bildirmişdi ki, Qarabağın özünün seçilmiş hakimiyyəti var? Təsəvvür edin, Ermənistan, Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanıyır, digər yandan, Qarabağın Azərbaycanla mübarizə aparan hakimiyyəti olur?! Belə çıxır ki, həmin hakimiyyətin Ermənistana dəxli yoxdur? Bəs, yaxşı Nikol nə üçün separatçı rejimdə qondarma prezident seçkilərinin keçirilməsini dəstəkləmiş, yeni “prezidentə” təbrik mesajı göndərmişdi?

Bəli, aydındır ki, Ermənistan hakimiyyəti Praqada, Moskvada və Brüsseldə əldə edilmiş razılaşmaları yalnız öz prizmasında dəyərləndirirdi, reallıqlara meydan oxumaq yolu tuturdu. Məsələnin başqa adı yoxdur. Bu gün də Nikolun sülh istəklərində səmimiyyət göstəricisi istisnadır. Məsələn, erməni baş nazir “The Telegraph”a müsahibəsində deyir ki, hər bir güclü və suveren ölkə kimi Ermənistan Respublikasının güclü orduya malik olmaq hüququ var. Nikol beynəlxalq ictimaiyyətin Ermənistanın müdafiə qabiliyyətinin artdığına əminliyini də önə çəkir. Əlbəttə, bu, ilk növbədə Paşinyanın Ermənistanın militarist siyasətinin digər ölkəyə yönəlmədiyini, öz aləmində, əsaslandırmaq üçün etdiyi uğursuz gedişdir. Yada salaq ki, baş nazir bir müddət əvvəl Azərbaycanla hücum etməmək haqqında pakt imzalamağa razılığını da dilə gətirmişdi. Görünür, yarımçıq bildiyi tarixdə Hitler Almaniyası ilə SSRİ arasında imzalanmış “Molotov-Rubbentrop” paktına istinadı düşünmüşdü. Məlum olduğu kimi, nasist Almaniyası sənədi heçə sayaraq, SSRİ üzərinə hücuma keçmişdi. Deməli, sözügedən anlaşma əhəmiyyətsiz sənədə çevrilmişdi. Çox güman, Nikol də eyni yolu getmək barədə düşünür. Başqa qənaətə gəlməyə əsas yoxdur. Çünki hazırda erməni baş nazirin söylədikləri səmimi təsir bağışlamır.

Ermənistanın baş nazirinin qeyri-konstruktivliyi özünü onun Azərbaycana qarşı bilavasitə ünvanlanmış ittihamlarında da aşkar şəkildə göstərməkdədir. O bildirir ki, əgər Azərbaycanın mövqeyi imzaladığı sənədi və ya üzərinə götürdüyü beynəlxalq öhdəliyi tanımamaqdırsa, bunu birbaşa və açıq şəkildə deməlidir. Göründüyü kimi, Paşinyan aşkar həyasızlığa yol verir. Öhdəlikdən söz düşmüşkən, təfərrüatlara varmadan bildirək ki, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatdakı imzasına hörmətsiz yanaşan erməni baş nazirin özüdür.

Nikolun həyasızlığı xüsusilə azğın şəkildə onun növbəti fikirlərində də nəzərə çarpır. “Əgər Azərbaycan beynəlxalq öhdəliklərinə hörmət etməsə, o zaman istənilən dövlətə, daha sadə desək, istənilən qonşuya hücum edə bilər”, – deyən Paşinyana Ermənistan konstitusiyasının rəhbər tutduğu istiqlaliyyət bəyannaməsində qonşu ölkələrə qarşı ərazi iddiasının olduğunu xatırlatmaq niyyətindən uzağıq. Bu mənada onun ölkə konstitusiyasını dəyişdirmək istədiyini yada salmaq kifayətdir. Bu isə Allaha inandığını deyən N.Paşinyanın növbəti allahsızlığıdır.

Ancaq erməni baş nazirin həyasızlığının daha bir təzahürü də var. Məsələn, Paşinyan bildirir ki, ölkəsi 2022-ci ilin dekabrından Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutuna qoşulma prosesinə başlayıb və guya, bu qərar həmin ilin sentyabrında Azərbaycanın hücumundan sonra Ermənistanın təhlükəsizlik sistemində yaranmış çatlarla bağlı olub. Göründüyü kimi, Paşinyan yenə də anti-Azərbaycan ritorikasını anti-Rusiya məntiqi ilə çulğalaşdırır.

Məsələ burasındadır ki, BCM-in Roma Statutuna qoşulma Qərb dairələrinin İrəvan qarşısında qoyduğu tələbdir. Çünki BCM Rusiya Prezidenti Vladimir Putinin və digər ölkə rəsmilərinin həbsinə order verib. Ermənistan Roma Statutuna qoşulmaqla və BCM-in tamhüquqlu üzvünə çevrilməklə, faktiki olaraq, Kreml rəhbərinin ölkəyə girişinə məhdudiyyəti rəsmiləşdirir. Yəni, Ermənistan rəhbərliyinin Roma Statutu ilə Azərbaycanı məsuliyyətə cəlb etmək üçün əlavə rıçaq qazanmaq və məsələni təhlükəsizlik amili ilə əsaslandırmaq niyyətləri cəfəngiyyatdan başqa bir şey deyil.

Aydındır ki, İrəvanın BCM müstəvisini ölkəmizə qarşı istifadə imkanları məhduddur. Bunun heç düz əməlli hüquqi mexanizmi də yoxdur. Yəni, başlıca məqam Rusiyadan üz döndərməkdir. Əlbəttə, İrəvan belə dəst-xətt seçərkən, Azərbaycanı Rusiyayönümlü göstərmək, “Moskvanın Bakının təcavüzünü dəstəkləməsi” ritorikasını əldə bayraq edərək, dünyanın Rusiya əleyhinə antipatiyasını Bakıya doğru yönəltmək kimi sərsəm gedişə baş vurur ki, bu da Cənubi Qafqazda sülhə meydan oxumaq niyyətidir.

Özünün anti-Rusiya ritorikasını davam etdirən N.Paşinyanın sözlərinə görə, ölkəsi Moskvadan üz döndərmir, tərəfdaşlarla münasibətlərini şaxələndirmək vəzifəsini qarşıya qoyur. Məlumdur ki, Nikolun söylədikləri növbəti ağ yalandır. Yəni, ölkənin tutduğu xətt gün kimi aydındır və bu, heç də Ermənistanın müstəqil dövlət kimi müəyyənləşdirdiyi yol deyil, xaricin diktəsidir.

Diktədən söz düşmüşkən, Paşinyan bu deyimi ölkəsində gedən islahatların, guya, qısamüddətli maraqlardan irəli gəlmədiyini bildirəndə də gündəmə gətirir. O deyir ki, Ermənistan–Avropa İttifaqı münasibətlərinin dərinləşməsi göz qabağındadır. Paşinyanın sözlərindən belə çıxır ki, mövcud dərinləşmə ölkənin demokratik islahatlar sahəsində nəzərəçarpacaq irəliləyiş əldə etməsi ilə bağlıdır.

Paşinyan “The Telegraph”a müsahibəsində onu da deyir ki, Ermənistan NATO-ya üzv olmaq imkanını müzakirə etmir. Məsələ Nikolun gözünün içinədək yalan danışmasında deyil. Əlbəttə, rəsmi İrəvan bütün beynəlxalq platformalardan, o cümlədən, NATO müstəvisindən ölkəmizə qarşı yararlanmağı düşünür, bu, öz yerində. Başlıca məqam isə ondadır ki, Ermənistanın hansı addım atacağını müəyyənləşdirən böyük ölçüdə Nikol yox, xaricdəki ermənipərəst dairələrdir. Yəni, hazırda ən məsul şəxs kimi Paşinyanın ölkəsi üçün NATO-ya qoşulmağın prioritet olmadığını vurğulamasının heç bir mənası yoxdur. Xaricdəki ağaları nəyi diktə etsələr, Nikol onu da həyata keçirəcək. Cənubi Qafqaz ölkəsi olan Ermənistan üçün heç bir nəticə verməyəcək Roma Statutuna qoşulmaq necə reallaşdısa, NATO-ya üzvlük də eyni mahiyyətə söykənən addımdır. Sadəcə, Roma Statutuna qoşulmaqla, NATO üzvlük başqa-başqa məsələlərdir. Paşinyan və onun havadarları bunu yaxşı bilirlər. Bilirlər ki, belə bir şeyin reallaşması ölkə üçün, faktiki olaraq, ölüm hökmüdür. Ona görə də Nikol çox əmin şəkildə İrəvanın alyansa üzvlük niyyətinin olmadığını vurğulayır.

Sonda erməni baş nazirin müsahibəsindəki bir məqama da diqqət yetirək. Məlum olduğu kimi, Ermənistanda siyasi vəziyyət stabil deyil. Bu, heç şübhəsiz, ölkə həyatına da mənfi təsirini göstərməkdədir. Belə olan halda, görəsən, Paşinyan necə müəyyənləşdirir ki, ölkəsi daxili təhlükəsizlik indeksinə görə dünyada 7-ci yerdədir. Bu fikir absurddur. Heç də o maraqlı deyil ki, siyahıda sonrakı yerləri hansı ölkələr tutur? Görəsən, “reytinqdə” Ermənistanı qabaqlayan “yazıq ölkələr” kimlərdir?

***Ə.CAHANGİROĞLU***
***XQ***

## Yenə qeyri-dəqiq mina xəritələri verilib

**Ermənistan tərəfi Azərbaycanın işğaldan azad olunmuş ərazilərində mövcud olan mina sahələrinə dair 8 ədəd formulyarı Azərbaycan tərəfinə təqdim edib. Təqdim olunan formulyarlar əsasən Kəlbəcər rayonu Murovdağ silsiləsini əhatə edən minalanmış ərazilərə dair qeydlərdən ibarətdir.**

Minatəmizləmə Agentliyindən (ANAMA) verilən məlumata görə, əvvəl olduğu kimi son təqdim edilən formulyarlarda da məlumatlar qeyri-dəqiq, etibarsız və natamam əks olunub. Formulyarlar üzərində təhlil və emal işləri aparıldıqdan sonra qeyd edilən məlumatların real mina sahələri ilə uzlaşmadığı, istinad nöqtələrinin koordinatlarının yanlış və yararsız olduğu müəyyən edilib.

Ümumilikdə mina sahələrinə dair Ermənistan tərəfindən təqdim edilən formulyarlar keçmiş təmas xətti boyu ərazilərin bir qismini əhatə edir. Keçmiş təmas xəttinin Xocavənd, Tərtər və Goranboy rayonları ərazisindən keçən hissəsi, habelə 2020-ci ilin noyabr ayında geri çəkilən zaman Ermənistan hərbi birləşmələri tərəfindən minalanmış ərazilər barədə məlumatlar hələ də təqdim edilməyib.

Qeyd edək ki, Ermənistan tərəfindən Ağdam, Füzuli, Cəbrayıl və Zəngilan rayonlarında basdırılan mina sahələrinə dair 2021-ci ildə verilmiş məlumatların dəqiqliyi 25 faiz təşkil edib.

***XQ***

# Milli vergi sistemi iqtisadi yüksəlişi stimullaşdırır

## Ötən il bu xidmət büdcəyə 16 milyard manat köçürüb

**İqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında vergi xidməti işçilərini peşə bayramı münasibətilə təbrik edərək bu sistemdə vəzifə öhdəliklərinin məsuliyyətlə yerinə yetirildiyini, vergi orqanının biznes mühitinin təkmilləşməsi, dövlət-biznes tərəfdaşlığının təşviqi və iqtisadi təhlükəsizliyin təminatında əhəmiyyətli rol oynadığını vurğulayıb.**



Nazır daha sonra qeyd edib ki, şəffaflığın və vergi mədəniyyətinin yüksəldilməsi ilə səciyyələnən vergi daxilolmalarının davamlı artımı maliyyə sabitliyinə, sosial layihələrin icrasına və vətəndaşların rifahına mühüm töhfələr verir.

Yeri gəlmişkən, ölkə iqtisadiyyatının inkişafında və dövlət büdcəsi gəlirlərinin formalaşmasında vergi xidməti işçilərinin mühüm rolunu nəzərə alaraq, peşə bayramı Azərbaycan Prezidentinin sərəncamı ilə 2005-ci ildə təsis olunub.

Dövlət Vergi Xidməti hazırda ölkənin büdcə gəlirlərinin formalaşması, iqtisadi inkişafın təmin edilməsi, sahibkarlığın dəstəklənməsi prosesinin fəal iştirakçısı olan, fiskal yığımların əhəmiyyətli hissəsini təmin edən qurum olmaqla yanaşı, həm də iqtisadiyyatı və sahibkarlıq mühitinin inkişafını tənzimləyən bir sistem kimi fəaliyyət göstərməkdədir.

Son illərdə dövlət büdcəsinə vergi daxilolmalarının təmin edilməsi, vergi ödəyicilərinə xidmətlərin çeşidinin və biznesin fəaliyyətinə səmərəli vergi nəzarətinin qurulmasında rəqəmsallaşmanın genişləndirilməsi, habelə biznes və investisiya mühitinin cəlbediciliyinin artırılması vergi orqanlarının fəaliyyətinin başlıca prioritetlərini təşkil edib. İqtisadi artımın bərpasında vergi təşviq alətlərindən fəal istifadəyə önəm verilib.

Ötən il ərzində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə vergi daxilolmalarının həcmi 2022-ci illə müqayisədə 3,8 faiz artaraq 16 milyard 127 milyon manata çatıb. Bu müddətdə qeyri-neft-qaz sektorundan vergi daxilolmaları əvvəlki illə müqayisədə 19,3 faiz artıb və 9 milyard 707,8 milyon manat təşkil edib. Əldə olunan fiskal nəticələrdə iqtisadi artımla yanaşı, "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması, biznes fəaliyyətinin və gəlirlərin leqallaşdırılması kontekstində atılan addımların da böyük rolu olub.

Son illərdə qeyri-neft-qaz sektorundan vergi daxilolmalarının dinamik artımında və vergitutma bazasının genişlənməsində "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması və şəffaflaşma ən mühüm amil olub. Rəqabətin təmin edilməsi, sahibkarlığın təşviqi və leqal fəaliyyət vergi stimullarının tətbiqi şəraitində genişlənib. Bunun nəticəsində "kölgə iqtisadiyyatı"nda cəmlənmiş dövriyyələrin "ağarması" prosesi sürətlənib. Bu, bəyan edilən dövriyyələrin, daxili istehsalın və ticarətin göstəricilərində, ticarət əməliyyatlarında sənədləşmənin səviyyəsində, elektron qaimələrin dövriyyədəki payında, bağlanmış əmək müqavilələrinin sayında özünü büruzə verib.

Xatırladaq ki, respublikamızda əmək müqavilələrinin sayı 2019-cu il yanvarın 1-i ilə müqayisədə 406,9 min artaraq cari il yanvarın 1-nə 1 milyon 809 min, o cümlədən qeyri-neft-qaz özəl sektorunda 358 min və ya 1,6 dəfə artaraq 897,9 min olub.

Bununla yanaşı, hesabat ilində məcburi dövlət sosial sığorta ödənişləri üzrə proqnozdan əlavə 413,2 milyon manat daxilolma təmin edilib, bu sahədə artım 13,3 faiz olub. Qeyri-büdcə təşkilatları üzrə artım 15,1 faiz təşkil edib.

Dövriyyələrin şəffaflaşmasında yeni nəsil nəzarət-kassa aparatlarının geniş tətbiqi mühüm amillərdən biridir. İndiyədək ölkə ərazisində 98 mindən çox yeni nəsil kassa aparatı quraşdırılıb. Bu kassalardan istifadə hesablaşmaların daha şəffaf aparılmasına, malların qanunsuz dövriyyəsinin qarşısının alınmasına və dövriyyəyə nəzarətin təmin edilməsinə imkan yaradıb. Nəticədə bu aparatlar üzrə dövriyyələrin artımı ötən il də davam edib və dövriyyənin həcmi 22 milyard manata çatıb.

Azərbaycanda uğurla tətbiq edilən "ƏDV geri al" layihəsi iqtisadiyyatın şəffaflaşdırılması istiqamətində mühüm nəticələr verməkdədir. 2023-cü il ərzində fiziki şəxs olan istehlakçılara ödədikləri ƏDV üzrə 154 milyon 178,8 min manat geri qaytarılıb. Ötən ildən etibarən nağdsız ödəniş edən istehlakçılara qaytarılan ƏDV məbləği artırılıb. Bu da faktiki olaraq nağdsız ödənişlə alış-verişin genişlənməsinə səbəb olub. Ötən il ölkədə nağdsız ödənişlərin həcmi əvvəlki illə müqayisədə 2 dəfə artaraq 48 milyard 978 milyon manat təşkil edib. Bu həm də vergi islahatlarının nağdsız dövriyyənin artımına verdiyi töhfədir.

İqtisadi aktivlik, "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması istiqamətində aparılan işlər bir çox sahələrdə fəaliyyətin leqallaşmasına, aktiv ödəyici kateqoriyasının artmasına imkan verib. ƏDV ödəyicilərinin sayında müşahidə olunan artım isə fiskal nöqteyi-nəzərindən xüsusilə aktualdır. 2023-cü ildə aktiv vergi ödəyicilərinin sayı 7 faiz, aktiv ƏDV ödəyicilərinin sayı 14,4 faiz, aktiv obyektlərin sayı 8,1 faiz artıb. 2024-cü ilin əvvəlində aktiv vergi ödəyicilərinin sayı isə 761,7 minə yaxın olub.

Ötən il istər vergi qanunvericiliyi, istərsə də Vergi Məcəlləsində əhəmiyyətli dəyişikliklər edilib. Sahibkarlıq assosiasiyaları, sahibkarların ictimai birlikləri ilə əlaqələrin genişləndirilməsi istiqamətində intensiv iş aparılıb. Həm qanunvericilikdə olan son dəyişikliklər, həm də perspektiv dəyişikliklər sahibkarların ictimai birlikləri ilə, sahibkarları təmsil edən assosiasiyalarla mütəmadi müzakirə olunur.

Dövlət Vergi Xidməti qarşıda duran əsas hədəflərə və iqtisadi sistemin yeni çağırışlarına uyğun olaraq təşviq, effektiv nəzarət, rəqəmsallaşma prinsiplərinə söykənən rəqəmsal platformanı təkmilləşdirməkdə davam edir. Vergi sistemində rəqəmsallaşma səviyyəsi və rəqəmsal inzibatçılıq daha da təkmilləşir. Sayı 760 mini keçmiş aktiv vergi ödəyicilərinə münasibətdə effektiv nəzarətin qurulması yalnız bu yolla mümkündür. Bu baxımdan, vergi xidmətinin rəqəmsallaşma səviyyəsi və dərinliyi artırılmaqdadır.

Beynəlxalq təcrübəyə uyğun olaraq, vergi qanunvericiliyinə bir sıra yeniliklər daxil edilib. O cümlədən müxtəlif vergidən yayınma sxemlərinin tətbiqinin qarşısının alınması, ölkədəki qeyri-rezident və rezident şəxslər üçün beynəlxalq vergitutma baxımından ədalətli və əlverişli sistemin yaradılması, həmçinin avtomatik məlumat mübadiləsinin genişlənməsi və emalın daha effektiv aparılması, beynəlxalq müqavilələr şəbəkəsinin artırılması, inzibati yardım üzrə digər formatların tətbiq edilməsi, müqavilələrin tətbiqi ilə bağlı proseslərin rəqəmsallaşdırılması ilə bağlı beynəlxalq standartlar qanunvericiliyə daxil edilib. Xüsusilə də, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının təşəbbüsü ilə dünyanın 60-dan çox ölkəsinin, o cümlədən Azərbaycanın da qoşulduğu "Vergitutma bazasının aşınması və mənfəətin köçürülməsi (BEPS)" layihəsi ilə bağlı qanunvericilikdə yeniliklər mövcuddur.

***Vaqif BAYRAMOV***
***XQ***



## Azərbaycan ərazisindən tranzit daşımalar artıb

**Yanvar ayında "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin törəmə müəssisəsi olan "ADY Ekspress" şirkəti tətəfindən daşınan yüklərin ümumi həcmi 453 min 621 ton təşkil edib ki, bu da ötən ilin eyni dövrünə nisbətən 108 min 597 ton və ya 31 faiz çoxdur.**

"ADY Ekspress"dən verilən məlumata görə, yük daşımalarında artım həm tranzit, həm də idxal-ixrac rejimində nəql edilən yüklərə aid olub. Artımı şərtləndirən əsas amillərdən biri də Azərbaycan ərazisindən tranzit daşımaların çoxalması ilə bağlıdır. Belə ki, 2023-cü ilin yanvarında "ADY Express" tərəfindən həyata keçirilən tranzit yükdaşımaların həcmi 240 min 370 ton təşkil etdiyi halda, cari ilin yanvarında bu rəqəm 280 min 838 tona yüksəlib. Bu isə 40 min 469 ton və ya 17 faiz artım deməkdir.

Qeyd edk ki, tranzit yüklərin əsas hissəsi Azərbaycan ərazisindən keçən Orta Dəhliz vasitəsi ilə daşınıb. Yeri gəlmişkən, Orta Dəhliz Şərq və Qərb arasında beynəlxalq daşımalarda əsas tranzit marşrutlardan biri kimi xüsusi əhəmiyyət kəsb edir. Belə ki, bu dəhliz Çin və Mərkəzi Asiya ölkələrindən Avropaya və əks istiqamətdə yüklərin sürətli və səmərəli daşınmasını təmin edərək Azərbaycanı bu marşrut üzrə əsas tranzit qovşağına çevirir.

## 1 ayda gömrük gəliri 473 milyon manat olub

**2024-cü ilin yanvar ayında gömrük xətti ilə büdcə daxilolmaları 6,5 faiz azalaraq 473 milyon 728,4 min manat təşkil edib.Bu barədə Dövlət Gömrük Komitəsi məlumat yayıb.**



Bildirilib ki, ötən ay gömrük rüsumları üzrə daxilolmalar 136 milyon 951,8 min manat (ötən ilin eyni dövrünə nisbətən 12,3 faiz çox), əlavə dəyər vergisi üzrə daxilolmalar 314 milyon 877,5 min manat (13,9 faiz az), aksizlər üzrə daxilolmalar 18 milyon 507,3 min manat (24,7 faiz çox), yol vergisi üzrə daxilolmalar isə 3 milyon 391,8 min manat (23,7 faiz az) təşkil edib.

***XQ***

## Qarabağda 130 kilometr fiber-optik kabel çəkilib

**Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən 2023-ci il ərzində dövlət qurumlarına etibarlı və dayanıqlı məlumat mübadiləsi üçün qurulmuş "AzStateNet" şəbəkəsinin genişləndirilməsi məqsədilə ölkə üzrə, ümümilikdə, 550 kilometrə yaxın fiber-optik kabel çəkilişi aparılıb.**



Xidmətdən verilən məlumata görə, respublikanın regionları üzrə istifadəyə verilmiş 300 kilometrə yaxın optik kabelin 130 kilometrdən çoxu yalnız Qarabağ regionu üzrə bu şəbəkədə dövlət qurumlarının etibarlı məlumat mübadiləsi üçün çəkilib.

Bakı şəhəri və Abşeron yarımadasında isə "AzStateNet" şəbəkəsi üzrə əlavə 250 kilometrə yaxın fiber-optik kabelin çəkilişi həyata keçirilib.

Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən qurulan "AzStateNet" şəbəkəsi üzərindən dövlət qurumlarına xüsusi təyinatlı rabitə xidmətləri ilə yanaşı, telekommunikasiya kanallarının ayrılması, İnternet, Data və digər xidmətlər də göstərilir.

## Əmək müqavilələrinin sayı 1,8 milyonu ötüb

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin yaydığı məlumatda 2024-cü il fevral ayının 1-nə 1 milyon 817 min əmək müqaviləsi bağlandığı və bunun 2019-cu ilin əvvəli ilə müqayisədə 414,1 min vahid çox olduğu bildirilib.**



Qeyd edilib ki, qeyri-neft sektorunun özəl bölməsində həmin göstəricinin 364 min 533 artaraq 904 min 455-ə çatıb.

***XQ***

# "Əsrin müqaviləsi"nin yeni hədəfləri

## Ötən il layihə üzrə 2,22 milyard dollar xərclənib

**Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair saziş – "Əsrin müqaviləsi" çərçivəsində həyata keçirilən tədbirlər, mühüm infrastruktur layihələrinin reallaşdırılması ölkəmizin davamlı sosial-iqtisadi inkişafı üçün möhkəm təməl, etibarlı bazadır. Təkcə onu qeyd etmək kifayətdir ki, bu tarixi saziş özünün zəngin karbohidrogen ehtiyatlarından düzgün, səmərəli şəkildə istifadə edən Azərbaycan Respublikasını regionun ən sabit və dinamik inkişaf edən ölkəsinə çevirib. Eyni zamanda neftdən əldə edilən gəlirlər hesabına Azərbaycanın iqtisadi imkanları xeyli artıb.**

Əvvəlki dövrlərdə olduğu kimi, 2023-ci ildə də "Əsrin müqaviləsi" çərçivəsində tikinti-quraşdırma, qazma və hasilatla bağlı əməliyyatlar uğurla davam etdirilib. "BP-Azərbaycan" şirkətinin 2023-cü ilin nəticələrinə dair hesabatına əsasən, ötən il konsorsium iştirakçıları tərəfindən "Azəri-Çıraq-Günəşli" layihəsinin əməliyyat tədbirlərinə 504 milyon dollar, əsaslı məsrəflərinə isə 1 milyard 518 milyon dollar xərclənib.

2023-cü ildə "Azəri–Mərkəzi-Şərqi" (ACE) layihəsi çərçivəsində tikinti-quraşdırma işləri nəzərdə tutulmuş qrafik əsasında davam etdirilib. Martın 16-da "Azəri Mərkəzi Şərqi" platformasının dayaq bloku inşa olunduğu Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodundan dənizə yola salınıb. Dayaq bloku "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin "STB-1" barjı vasitəsilə müqavilə sahəsinə çatdırılıb. Qurğu AÇG yatağı sahəsində suyun 137 metr dərinliyində öz daimi yerinə quraşdırılıb. Dayaq blokunun dənizdə quraşdırılması əməliyyatları "Azərbaycan" kran barjı vasitəsilə həyata keçirilib. Buna qədər isə dayaq bloku istismar sınaqları vasitəsilə tam yoxlanılıb. Yeri gəlmişkən, ACE platformasının dayaq blokunun çəkisi 16 min ton, hündürlüyü isə 153 metr təşkil edir. Bu unikal qurğuya suvurma, neft ixracı və qaz ixracı üçün nəzərdə tutulmuş üç hasilat dik borusu daxildir.

Aprel ayının 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bibiheybətdəki tikinti-quraşdırma sahəsinə baş çəkərək artıq



tikintisi başa çatdırılmış ACE platformasının üst modullarının dənizə öz daimi yerinə yola salınmazdan əvvəlki hazırlıq vəziyyəti ilə tanış olub.

Üst modulların quruda aparılması planlaşdırılan əsas istismar sınaqları isə ilin birinci yarısında uğurla başa çatdırılıb. İlk dəfə olaraq təhlükəsizlik sınaqları quruda, həm də azot qazından istifadə edilməklə icra olunub. Əvvəllər belə sınaqlar yalnız dənizdə platforma işə salınarkən sistemə karbohidrogen vurmaqla keçirilsə də, ACE platformasında buna ehtiyac olmayıb.

Əsas istismar sınaqları bitdikdən sonra, avqust ayının 7-də ACE platformasının üst modulları inşa edildiyi Bayıl tikinti-quraşdırma sahəsindən AÇG yatağı sahəsinə yola salınıb. Üst modulların daşınması, sürüşdürmə üsulu ilə dayaq blokunun üzərinə yerləşdirilməsi, montajı və quraşdırılması işləri diqqətlə planlaşdırıldığından bu işlər təxminən iki günə tamamlanıb.

Daha sonra layihə dənizdə montaj-sazlama işləri ilə davam etdirilib və platforma yaşayış üçün hazır vəziyyətə gətirilib. Bu da platformada heyət sayının artırılmasına və dördüncü rübdə bir sıra mühüm işlərin başa çatdırılmasına imkan yaradıb. İlin son ayında ACE platforması əməliyyatlara təhvil verilib ki, bu da layihə çərçivəsində icra olunan ən mühüm işlərdən biri kimi diqqət çəkir. Eyni zamanda layihə çərçivəsində qazma qurğusunun hazırlığı istiqamətində də işlər davam etdirilib. Həyata keçirilmiş tədbirlər inteqrasiya olunmuş təhvilalma testini heç bir ciddi məsələ aşkarlanmadan başa çatdırmağa imkan yaradıb. Bundan sonra 4 quyu konduktoru tam dərinliyədək uğurla qazılıb. Daha sonra qazma sistemləri bütövlükdə təhvil verilib. ACE platformasında ilk hasilat quyusunun qazılmasına dekabr ayının 4-də başlanılıb.

Bütövlükdə isə, 2023-cü ilin sonuna Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Günəşli" neft-qaz yataqları blokunda quraşdırılan "Azəri Mərkəzi Şərqi" platformasının tikintisi layihəsi üzrə işlər 97 faiz yerinə yetirilib. Bununla yanaşı, cari ilin əvvəllərində ACE-dən hasilatın başlanması üçün tələb olunan bütün digər işlər və hazırlıqlar qrafikə uyğun olaraq davam etdirilir.

Hesabatda o da bildirilir ki, 2023-cü ildə "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan neft hasilatı sabit, təhlükəsiz və etibarlı şəkildə davam etdirilib. İl ərzində AÇG-də ümumilikdə, 137 hasilat, 45 su və 8 qaz injektor quyusu istismarda olub. Ötən il 6 hasilat platforması vasitəsilə gündə orta hesabla 363 min barel və ya ümumilikdə, təxminən, 133 milyon barel, yəni 18 milyon ton neft çıxarılıb. Ümumi hasilatın 23 min bareli "Çıraq", 96 min bareli "Mərkəzi Azəri", 86 min bareli "Qərbi Azəri", 58 min bareli "Şərqi Azəri", 67 min bareli "Dərinsulu Günəşli" və 33 min bareli "Qərbi Çıraq" platformalarının payına düşüb. Yeri gəlmişkən, 2023-cü il dekabr ayının 12-də AÇG layihəsinin səhmdarları "Qərbi Azəri" platformasından bir milyardıncı barel neft hasilatının əldə olunmasını qeyd ediblər.

AÇG-də neft hasilatının sabit saxlanılması məqsədilə konsorsium iştirakçıları tərəfindən qazma əməliyyatları da nəzərdə tutulmuş qrafikə uyğun davam etdirilib. İl ərzində müqavilə sahəsində 8 neft hasilatı, 6 su və 1 qaz injektor quyusu tamamlanaraq istismara daxil edilib.

Qeyd edək ki, əsrin neft sazişinə əsasən, AÇG-dən neftlə bərabər çıxarılan səmt qazı təmənnasız olaraq Azərbaycan dövlətinə çatır. Ötən il Səngəçal terminalından, həmçinin "Neft Daşları"ndakı qurğu vasitəsilə gündə orta hesabla 5,5 milyon kubmetr, ümumilikdə isə, 2 milyard kubmetr səmt qazı Azərbaycanın qazpaylama sitemınə təhvil verilib. Hasil edilən səmt qazının qalan hissəsi isə təzyiqi saxlamaq məqsədilə yenidən kollektora vurulub.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

Naxçıvan Muxtar Respublikası – 100

# Qədim türk yurdu – Azərbaycanın ayrılmaz hissəsi

**Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədrləri olmuş Fətəli xan Xoyski və Nəsib bəy Yusifbəyli imkanları daxilində Naxçıvan diyarına hərbi və maliyyə köməkliyi göstərir, onun Azərbaycanın ərazisi kimi qorunub saxlanılması üçün siyasi və diplomatik dəstək verirdilər.**

*(Əvvəli XQ-nin 10,11 fevral 2024-cü il tarixli saylarında)*

## Naxçıvanın sovetləşməsi

1920-ci ilin əvvəlində Naxçıvan ərazisində hərbi-siyasi vəziyyət yenidən gərginləşməyə başladı. Erməni daşnakları tərəfindən bütün sərhəd boyu Naxçıvan diyarının Vedibasardan Ordubada qədərki ərazilərə hücum üçün hazırlıqlar görülür, nizami silahlı qüvvələr cəmləşdirilirdi. 1920-ci ilin yanvarında Naxçıvanı işğal etmək üçün daşnak Ermənistanı yeni cəhd göstərirdi. Naxçıvan rəhbərləri arasında birliyin olmaması vəziyyəti çətinləşdirirdi. Cavid bəyin xahişi, Kazım Qarabəkir paşanın qərarı ilə Naxçıvana Əli Teymur bəyin komandanlığı altında 50 nəfərdən ibarət yeni türk qoşun hissəsi gəldi. Kəlbəli xanın, Ədib bəyin, Abbasqulu bəy Şadlinskinin başçılığı ilə yerli hərbi dəstələr erməni quldur dəstələrinə layiqli cavab verdilər və İrəvanın 8 km-liyinə çatdılar.

1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyəti devrildi və bolşeviklər hakimiyyətə gəlməklə Şimali Azərbaycan sovetləşdirildi. Aprel çevrilişindən sonra Ermənistan hökuməti bildirdi ki, əgər Azərbaycan Şərur-Dərələyəz qəzasından və Naxçıvan diyarından imtina edərsə, o da Qarabağ və Zəngəzurun Azərbaycana birləşdirilməsinə razılıq verər. Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov bu təklifi rədd edərək, Culfa və Naxçıvanın sovet qoşunları tərəfindən dərhal tutulmasını və Azərbaycana birləşdirilməsini təkidlə tələb edirdi.



Erməni basqınlarından cana doymuş yerli əhali 1920-ci ilin iyulunda məktubla N.Nərimanova və Q.Orconikidzeyə müraciət etdi. Məktubda deyilirdi: "Yerli əhali öz qüvvəsi ilə daşnaklardan müdafiə olunur, Qırmızı ordunun köməyi ilə bizim diyarı azad etməyi və Azərbaycanla birləşdirməyi təmin etməyi təvəqqe edirik".

1920-ci ilin iyulun 28-də XI Ordu hissələri Naxçıvan şəhərinə daxil olur. Elə həmin gün bölgədə Sovet hakimiyyəti elan olunur və M.Bəktaşi, A.Qədimov, F.Mahmudbəyov və b. ibarət Naxçıvan İnqilab Komitəsi yaradılır.

1920-ci il avqustun 10-da Naxçıvan İnqilab Komitəsinin sədri M.Bəktaşi Azərbaycan SSR XKS-in sədri N.Nərimanova məktubla müraciət edir. Məktubda deyilirdi: "Naxçıvan əhalisinin böyük əksəriyyətinin qərarı ilə Naxçıvan ölkəsi özünü Azərbaycan SSR-in ayrılmaz hissəsi hesab edir..."

## Sovet Rusiyasının ikili siyasəti

Bu dövrdə Sovet Rusiyası yenə ikili siyasət yeridirdi. Bir tərəfdən erməni daşnak qüvvələri ilə müharibə aparır, digər tərəfdən isə onlarla danışıq aparırdı. Bu danışıqlarda Azərbaycanın iştirakı olmadan onun mübahisəsiz torpaqlarının Ermənistana verilməsi məsələsi də müzakirə olunurdu. Bunu bilən N.Nərimanov Leninə göndərdiyi məktubda yazırdı: "Dəhşətli vəziyyət yaranmışdır. Mərkəz Gürcüstanın və Ermənistanın müstəqilliyini, Azərbaycanın istiqlaliyyətini tanımış, lakin eyni zamanda həmin mərkəz Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini Ermənistana verir...".

Sovet Rusiyası Ermənistanı öz tərəfinə çəkmək, öz nüfuz dairəsinə almaq üçün Azərbaycanın əzəli torpaqları olan Naxçıvan və Zəngəzuru Ermənistana verməyi planlaşdırırdı. Bu yolla həm də Ermənistanı sovetləşdirmək istəyirdi. Sovet Rusiyasının Azərbaycanın bu bölgəsinə dair planlarını İ.Stalinin 1920-ci ilin noyabrın 9-da Bakıdakı çıxışında dediyi bu sözlər də təsdiqləyir: "Əgər Zəngəzur və Naxçıvanın kimə məxsus olmasını bilmək istəyirlərsə, onları Ermənistanın indiki hökumətinə vermək olmaz, orada sovet hökuməti yaranarsa vermək olar".

İ.Stalinin bu fikri özünü çox gözlətmədi. 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti qurulduqdan dərhal sonra Azərbaycan torpaqlarının Ermənistana verilməsi istiqamətində konkret addımlar atılmağa başlandı.

Ermənistanın bolşeviklərin nəzarəti altına keçməsi ilə əlaqədar Azərbaycan Hərbi İnqilab Komitəsi 1 dekabr 1920-ci ildə bəyanatla çıxış etdi. HİK-in sədri N.Nərimanovun imzası ilə yayılan bəyanat Rusiyanın diqtəsi ilə yazılmışdı və "iki sovet respublikası arasında ərazi mübahisələrinin" Azərbaycanın milli mənafelərinə zidd şəkildə həll edilməsinə yönəlmişdi. Bəyanatda deyilirdi: "... Bundan sonra heç bir ərazi əsrlər boyu qonşu olan iki xalqın qanının tökülməsinə səbəb ola bilməz. Zəngəzur və Naxçıvan qəzaları Sovet Ermənistanının ayrılmaz hissəsidir. Dağlıq Qarabağın zəhmətkeş kəndlilərinə isə öz müqəddəratını təyin etmək hüququ verilir". Bu qərarı AK (b) P Mərkəzi Komitəsi qəbul etmişdi, N.Nərimanov bunu sadəcə bəyan etmişdi.

## Gümrü müqaviləsi və Naxçıvan

"Böyük Ermənistan" ideyasını həyata keçirmək üçün Naxçıvana, Qarabağa və Zəngəzura sadəcə olaraq iddia etməklə kifayətlənməyən ermənilər, bu torpaqlar uğrunda mübarizədə nəinki hərbi, həm də siyasi vasitələrdən maksimum istifadə etməyə çalışırdı. Sevr müqaviləsindən (1920, 10 avqust) sonra Antanta dövlətlərinə arxalanan daşnak Ermənistanı İngiltərə, Fransa və İtalya kimi yeni ərazilər ələ keçirmək məqsədi ilə 24 sentyabr 1920-ci ildə Türkiyə ilə müharibəyə başlayır. Dinc əhaliyə divan tutmağa üstünlük verən daşnaklar Qarsda, İrəvanda, Şərur-Dərələyəz və b. bölgələrdə yaşayan türk-müsəlman əhalini öldürməyə başlayırlar. Türk ordusunun əks-hücumu daşnak ordusunun darmadağın olması ilə nəticələnir. Türkiyə ilə müharibə daşnakların planlaşdırdığı kimi uzun sürməsə də, nəticəsi onlar üçün gözlənilməz oldu. Həmin ilin noyabrın 18-də daşnaklar məğlub oldular. 1920-ci il dekabrın 2-də Gümrüdə Türkiyə ilə Ermənistanın daşnak hökuməti arasında müqavilə imzalandaı. Daşnaklar xəyallarında qurduqları "böyük Ermənistan"ın ərazisinin İrəvan və Göyçə gölü rayonu ilə məhdudlaşdığını təsbit etmiş müqaviləyə imza atırlar. Müqavilənin ikinci və on ikinci maddələri bilavasitə Naxçıvanla bağlı idi. Gümrü müqaviləsinin ikinci maddəsində Naxçıvan, Şahtaxtı və Şərur bölgəsində bu yerlərin idarə formasını müəyyən edəcək referendumun keçirilməsinə qədər, Türkiyənin himayəsi altında yerli özünüidarəetmənini yaradıldığı və Ermənistanın bu bölgənin daxili işlərinə qarışa bilməyəcəyi təsbit edilmişdir. İkinci maddədə Naxçıvanın ərazisi də müəyyənləşdirilmişdi. Antanta dövlətlərinin əlaltısı olan daşnak Ermənistan üzərində qələbəsindən sonra, Türkiyə ilk dəfə Naxçıvanın özünü idarəetmə hüququna nail olmasına kömək etdi.

On ikinci maddəyə görə isə Türkiyə Şərur-Şahtaxtı-Naxçıvan-Culfa yolu və İran-Maku-Ermənistan tranzit yolunun təhlükəsizliyinə təminat verirdi.

Ermənistan-Türkiyə müharibəsində daşnakların məğlubiyyəti nəticəsində Türkiyənin regionda hərbi və siyasi nüfuzunun artması, Sovet Rusiyasını Ermənistanı sovetləşdirməyə məcbur edir. Nəticədə Sovet Rusiyası ilə Sovet Ermənistanı dekabrın 2-də Gümrü müqaviləsini imzalayırlar. Səkkiz maddədən ibarət Gümrü sazişinin üçüncü maddəsində göstərilirdi ki, Rusiya Sovet hökuməti Ermənistanın 1920-ci il oktyabrın 23-nə kimi sahib olduğu aşağıdakı ərazilərini – İrəvan quberniyasının Qars vilayəti hissəsinin, Zəngəzur qəzasının, Qazax qəzası hissəsinin, Tiflis quberniyası hissəsinin "Sovet Erməni Respublikasının" tərkibinə daxil olduğunu mübahisəsiz təsdiq edir.

Q.Orconokidze dekabrın 2-də Azərbaycan torpaqlarının Ermənistana verilməsi barədə Rusiya rəhbərliyinə məlumat verir.

## Naxçıvan əhalisinin etirazları

Azərbaycanın müəyyən torpaqlarının Ermənistana verilməsi xəbərindən məlumat alan Naxçıvan əhalisi kəskin etirazlarını bildirir və buna yol verməyəcəklərini bəyan edirlər. Vəziyyətin gərginləşdiyini görən Azərbaycan rəhbərliyi Hərbi İnqilab Komitəsinin üzvü, Ədliyyə komissarı Behbud ağa Şahtaxtinskini dekabrın 15-də Naxçıvana göndərdi. B.Şahtaxtinski Naxçıvan şəhərində, Şərur və Ordubadda əhali ilə keçirdiyi görüşlərdə 1920-ci il 1 dekabr tarixli bəyanatı ilə əlaqədar əsil həqiqəti əhaliyə çatdırdı və çıxış yollarını göstərdi.

B.Şahtaxtinskinin əhali ilə görüşləri və söhbətləri öz nəticəsini verdi. Diyarın əhalisi Azərbaycanın himayəsi altında olmaqla Naxçıvanda müstəqil Sovet Respublikası yaradılmasını tələb edirlər. Naxçıvan əhalisinin qətiyyətli mövqeyi mərkəzin öz mövqeyini müəyyən qədər də olsa dəyişməsinə səbəb oldu. Naxçıvanın azərbaycanlı əhalisinin qətiyyətli və inadlı mübarizəsi ermənilərin Naxçıvan barəsindəki planlarını pozdu. Məkrli niyyətlərini hələlik pərdələyən ermənilər və Ermənistan İnqilab Komitəsi 1920-ci il dekabrın 28-də Naxçıvanı müstəqil sovet respublikası kimi tanımış və bu ərazi ilə əlaqədar iddialarından imtina etmişdir. Əslində Ermənistanın Naxçıvanı Azərbaycanın bir hissəsi kimi deyil. Müstəqil respublika kimi tanıması onun məkrli planlarının tərkib hissəsi idi. Naxçıvanı müstəqil qurum kimi tanımaqla Ermənistan gələcəkdə onu ilhaq etmək niyyə-




ti güdürdü.

Naxçıvan ərazisini Azərbaycandan ayıran Zəngəzur mahalının qərb hissəsinin Ermənistana verilməsi Naxçıvanın muxtariyyət məsələsini zəruri edirdi. Ümummilli lider Heydər Əliyev qeyd edirdi ki, əgər Zəngəzur mahalının Ermənistana verilməsi olmasaydı, bəlkə də Naxçıvanın muxtariyyəti də lazım deyildi və Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi.

Naxçıvan diyarının əhalisi Azərbaycan SSR-in tərkibində muxtariyyət tələb edirdi. 1921-ci ilin yanvarında Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin təşəbbüsü ilə keçirilmiş rəy sorğusunda Naxçıvan əhalisinin 90 faizindən çoxu Naxçıvan diyarının muxtar respublika hüququnda Azərbaycan SSR-in tərkibində qalmasına səs verdi. Bu rəy sorğusunun nəticəsi Naxçıvanın Azərbaycanın tərkibində saxlanılmasında mühüm rol oynadı.

## Moskva müqaviləsi və Naxçıvan

Belə bir fakt da qeyd edilməlidir ki, Türkiyə tərəfinin Naxçıvan məsələsinə münasibətdə tutduğu mövqe bu işdə mühüm əhəmiyyət kəsb etmişdir. Türkiyə ilə Sovet Rusiyası arasında gedən danışıqlarda Naxçıvanın taleyi məsələsi daim Türkiyə nümayəndə heyətinin diqqət mərkəzində olmuşdur.

Naxçıvan məsələsində N.Nərimanovun sonradan prinsipial mövqe tutması, onun adından B.Şahtaxtinskinin Moskvada apardığı danışıqlar, V.Leninə müraciətləri Moskvanın Naxçıvan məsələsinə münasibətinin dəyişməsinə, nəticə etibarı ilə Naxçıvana Azərbaycanın himayəsində muxtariyyət statusu verilməsinə təsir etdi. Ümumiyyətlə, B.Şahtaxtinskinin Naxçıvanın muxtariyyət statusu qazanmasında çox böyük xidməti olmuşdur. O, fəaliyyəti dövründə Azərbaycanın müxtəlif problemləri ilə bağlı V.Leninə teleqramlar göndərmiş, təhliledici məktublar yazmış, bu məktublara arayışlar da əlavə etmişdir. Onun V.Leninə göndərdiyi məktub və arayışlar içərisində 1921-ci il martın 1-də göndərdiyi məktub və arayışın xüsusi əhəmiyyəti olmuşdur. Martın 7-də V.Leninin dərkənarı ilə Siyasi Büroya göndərilən həmin məktuba martın 16-da Stalinin, Çiçerinin və b. iştirakı ilə baxılmışdır.

Türkiyədən Moskvaya gələn heyət 1921-ci il fevralın 26-da danışıqlara başladı. Türk heyətinə Yusif Kamal bəy başçılıq edirdi. Rus-türk konfransı fevralın 26-dan martın 18-nə qədər davam etdi və həmin gün "Dostluq və qardaşlıq haqqında" sovet-türk müqaviləsi imzalandaı. Hər iki tərəfin razılığı ilə müqavilənin imzalandığı tarix 16 mart yazıldı. Müqavilə 16 maddə və 3 əlavədən ibarətdir. Moskva müqaviləsində ərazi-sərhəd məsələsi, Batum şəhəri və limanı, Cənubi Qafqaz respublikalarının suverenliyi, Milli Aktın tanınması, zorla qəbul etdirilmiş müqavilələr, hərbi əsirlərin qaytarılması və başqa məsələlər müzakirə edilmişdir.

Konfransda müzakirə edilən ən mühüm məsələlərdən biri də Naxçıvan məsələsi idi. Türkiyə tərəfi Naxçıvan məsələsinə böyük əhəmiyyət verirdi. Ermənilər Naxçıvanı işğal etmək istəyəndə Türkiyə Batum müqaviləsinə (1918, 4 iyun) görə onu öz hamayəsinə götürmüşdü. Türkiyə tərəfi Moskva danışıqlarında Naxçıvanın Azərbaycanın himayəsində olmasını istəyirdilər. Moskva müqaviləsinin 3-cü maddəsində göstərilirdi ki, "Razılığa gələn hər iki tərəf bu müqavilənin I (c) əlavəsində göstərilən sərhədlərin içərisində Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsinə razıdırlar, o şərtlə ki, Azərbaycan bu protektoratlığı heç heç bir zaman üçüncü bir dövlətə güzəştə getməyəcəkdir".

Moskva müqaviləsi ilə Naxçıvanın ərazisi 6038 kv. km müəyyən edilmiş və "Naxçıvan ərazisi" adlı I (c) əlavəsində bölgənin sərhədləri arasındakı kimi müəyyən edilirdi: "Ararat stansiyası – Saray Bulaq dağı – Kömürlü dağ – Sayat dağı (7868) – Qurdqulaq kəndi – Həməsür dağı (8060) – 8022 yüksəkliyi – Kükü dağı (8282) və keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədi".

N.Nərimanov 1921-ci ilin may ayında keçirilən I Ümumazərbaycan qurultayındakı nitqində deyirdi: "Sovet Rusiyası və Türkiyə ilə müqaviləyə əsasən Naxçıvan Azərbaycanın protektoratlığı altında müstəqil respublika elan olunur. Orada bizim nümayəndəmiz olacaqdır və biz bütün münasibətlərdə Naxçıvana xidmət edəcəyik".

Qazanılmış uğurda Azərbaycan diplomatiyasının da böyük rolu var idi. Məhz, Naxçıvan məsələsinin həllindəki roluna görə, Nəriman Nərimanov Moskva danışıqlarına ezam edilmiş Azərbaycan nümayəndəsi B.Şahtaxtinskiyə yazırdı: "Naxçıvana görə çox sağ ol! Görürsən, sən artıq işin içinə girmisən və işi düzgün aparırsan. Bu məni sevindirir".

**(ardı var)**

***İsmayıl HACIYEV,***
***AMEA Naxçıvan bölməsinin sədri, akademik***




# Asayişin texniki təchizatı yüksəldilir

**Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dəmir Yolu Nəqliyyatında Polis Şöbəsinin yeni inzibati binası istifadəyə verilib. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli mərasimdə iştirak edib.**



Səlahiyyətli nümayəndə əvvəlcə muxtar respublikanın polis orqanlarına təqdim olunan yeni xidməti avtomobillərə baxıb. Muxtar respublikanın daxili işlər naziri, general-mayor Süleyman Neymətov məlumat verərək bildirib ki, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin ayırdığı 16 yeni xidməti avtomobildən 4 "BMW" yol-patrul xidməti, 12 "JAC-T8" isə mühafizə, post-patrul və dəmir yolu polis xidmətləri üçün nəzərdə tutulub. Bu avtomobillər yüksək manevr imkanları və müasir təchizatı ilə xidmətin operativ təşkilinə imkan verəcək.

Sonra səlahiyyətli nümayəndə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dəmir Yolu Nəqliyyatında Polis Şöbəsinin yeni inzibati binasında yaradılan şəraitlə tanış olub. Üçmərtəbəli binanın foyesində Ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin hüquq-mühafizə orqanları ilə keçirdiyi görüşləri əks etdirən fotoguşə yaradılıb. Məlumat verilib ki, şöbədə növbətçi, qəbul, xüsusi vasitələrin saxlanması otaqları, kriminalistik tədqiqatlar, istintaq və tədqiqat, təşkilati-inspektor qrupları üçün və digər xidməti otaqlar, eləcə də server otağı, arxiv, iclas zalı və bufet yerləşir. Xidmətin operativ təşkili üçün otaqların hər biri ən müasir avadanlıqlarla təchiz olunub.

# Həmkarlar İttifaqlarının fəallığı artır

**Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının rəsmi saytının təqdimat mərasimində iştirak edən Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli kollektivi təbrik edərək şuranın 2023-cü ili uğurla başa vurduğunu bildirib, nailiyyətlərin davamlı olmasını diləyib.**



Qeyd edilib ki, "Heydər Əliyev İli" çərçivəsində ötən il ölkəmizdə olduqca əlamətdar və faydalı tədbirlər keçirilib. Qeyri-hökumət təşkilatlarının bu istiqamətdə fəaliyyəti də yüksək qiymətləndirilməlidir. Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası da ötən il Naxçıvanda keçirilən bir sıra tədbirlərin, xüsusilə sosial layihələrin təşkilində fəal iştirakı ilə seçilib. Aparılan struktur dəyişiklikləri və kadr islahatları şuranın fəaliyyət imkanlarını daha da genişləndirib. Bu gün rəsmi saytın istifadəyə verilməsi də Həmkarlar İttifaqları Şurasının daha bir uğurudur.

Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev çıxışında qeyd edib ki, sayt müasir iş prinsiplərinin və innovativ yeniliklərin tətbiqi, həmçinin ictimai fəaliyyəti gücləndirmək və media ilə əlaqələrin daha dinamik şəkildə qurulmasını təmin etmək məqsədilə yaradılıb. Şura bundan sonra da muxtar respublikanın inkişafı ilə bağlı həyata keçirilən tədbirlərdə və sosial layihələrdə fəal iştirak edəcək.

Sonra Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının rəsmi veb-saytının təqdimatı olub.

**Səbuhi HƏSƏNOV,**
**"Xalq qəzeti"nin bölgə müxbiri**

**Naxçıvan**



Prezident seçkilərinin əks-sədası

# Ata vəsiyyətinə sədaqət

*FƏRHAD BƏDƏLBƏYLİ,*
*Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti, professor*



2024-cü il 7 fevral tarixi xalqımız üçün böyük bir əlamətdar gün oldu. Biz bir xalq kimi bir daha sübuta yetirdik və dünyaya bəyan etdik ki, Prezidentimizin ətrafında sıx birləşmişik. Azərbaycan Respublikasının Prezidenti, möhtərəm İlham Əliyev müasir dövrün ən görkəmli dövlət başçılarındandır. O, xalq qarşısında tarixi xidmətləri olan fateh sərkərdəmizdir.

Ulu öndərimiz Heydər Əliyevin dühasından bəhrələnən və onun ideyalarını davam etdirən İlham Əliyev daim dövlətin və xalqın rifahını düşünür, bütün həyatını və fəaliyyətini bu amala həsr edir, Ata vəsiyyətini ləyaqətlə həyata keçirir.

Möhtərəm Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin başçılığı altında Qarabağdakı möhtəşəm Qələbəmiz, əzəli-əbədi tarpaqlarımızın tamamilə düşməndən azad olunaraq Azərbaycanın sərhədlərinin bütövləşməsi, ölkəmizin suverenliyinin bərpa olunması, həqiqətən də, möhtəşəm bir hadisədir və Zəfər tariximizin şərəfli səhifələrinə yazılmışdır. Biz mədəniyyət xadimləri hər zaman Prezidentimizlə məsləkdaş olaraq, bu Qələbədən ruhlanıb, öz yaradıcılığımızda bunu tərənnüm edirik. İndi səsimiz Şuşadan, Xankəndidən, Laçından, Kəlbəcərdən və Qarabağ torpağının, Azərbaycanımızın hər yerindən gəlir. Möhtəşəm quruculuq, bərpa işlərinin aparılması, beynəlxalq tədbirlərin keçirilməsi bizə qürur verir.

İlham Əliyev beynəlxalq miqyasda Azərbaycan həqiqətlərini dünyaya çatdıran, dövlətin iqtisadi və siyasi maraqlarını təmin edən və ən inkişaf etmiş ölkələr sırasında Azərbaycanı təmsil edən Lider kimi, beynəlxalq aləmdə dövlətimizin haqqının və hüququnun qarantına çevrilmişdir.

Əziz Prezidentimiz görkəmli dövlət xadimi, mahir siyasətçi olmaqla yanaşı, həm də mədəniyyətimizin dərin bilicisi və hamisi kimi tanınmışdır. Mədəniyyət sahəsində həyata keçirilən siyasət, mədəniyyət və incəsənət xadimlərinə hər zaman diqqət və qayğı göstərilməsi bunu bir daha sübut edir. Bizim Prezidentimizlə görüşlərimiz, söhbətlərimiz hər dəfə bir mədəniyyət hadisəsinə çevrilir.

Azərbaycan Prezidenti İlham Əliyevin həm dünya miqyasında, həm də Vətənimiz üçün nə qədər böyük işlər gördüyünün şahidiyik. Azərbaycanın siyasi, iqtisadi yüksəlişini təmin etməklə yanaşı, o, sözün əsl mənasında, tarixi bir Zəfərə imza atdı, Azərbaycan tarixində yeni bir səhifə açdı. Buna görə biz bütün arzularımızı, amallarımızı gerçəkləşdirən bir insan kimi Prezidentimizə minnətdarıq. Biz hər zaman xalqımızın parlaq gələcəyi naminə çalışan əziz Prezidentimizin yanındayıq və onu dəstəkləyirik.

Böyük fəxrlə və qürur hissi ilə cənab İlham Əliyevi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə ürəkdən təbrik edir, Vətənimiz naminə yüksək nailiyyətlər arzulayırıq!

Biz Sizinlə fəxr edirik, əziz Prezidentimiz! Tanrı Sizi qorusun!

Redaksiamızın qonaqları

# Səudiyyə Ərəbistanı səfiri "Xalq qəzeti"ndə



**Dünən "Xalq qəzeti" redaksiyasında Səudiyyə Ərəbistanının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri İssam bin Saleh əl-Cuteyli ilə görüş keçirildi.**



Səudiyyəli diplomatı redaksiya kollektivi adından salamlayan baş redaktor Əflatun Amaşov bir çox ortaq dəyərləri paylaşan xalqlarımızın bir-birinə daha da yaxınlaşmasında dövlət rəhbərlərinin dostluq əlaqələrinin yaratdığı əlverişli şəraitin media qurumlarının əməkdaşlığını da yeni səviyyəyə qaldırmağı tələb etdiyini söylədi. O bildirdi ki, dost ölkənin Azərbaycandakı səfirliyinin bu yöndə səyləri qarşılıqlı surətdə yeni təşəbbüslər doğurur. Bu mövzuda ətraflı məsləhətləşməyə və ortaq hədəfləri müəyyən etməyə ehtiyac duyulur.

Səudiyyə Ərəbistanının Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olduğunu, indi isə ikitərəfli əlaqələrin yüksək inkişaf səviyyəsinə qalxdığını deyən səfir ölkəsinin ali rəhbərlərinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi növbədənkənar prezident seçkilərində qazandığı parlaq qələbə münasibətilə təbrik etdiklərini görüş iştirakçılarının nəzərinə çatdırdı. Səfir İssam bin Saleh əl-Cuteyli də, eyni zamanda, ölkələrimiz arasında yüksək səviyyəli dialoqun dəstəklənməsində, xalqlarımızın bir-birinin həyatından baha ətraflı məlumat əldə etməsində media qurumlarının imkanlarından geniş istifadənin zəruriliyini vurğuladı. O qeyd etdi ki, jurnalist kollektivlərinin yaradıcılıq əlaqələri, qarşılıqlı səfərlər, birgə tədbirlər bu yöndə səyləri daha səmərəli məcraya yönəldə bilər.

"Xalq qəzeti"nin son dövrdə bu istiqamətdə müəyyən addımlar atdığını xatırladan Əflatun Amaşov ölkələrimizin media əməkdaşlığının genişlənməsində və xalqlarımız üçün faydalı olmasında rəhbərlik etdiyi redaksiyanın öz töhfəsini bundan sonra da əsirgəməyəcəyini söylədi. O, "Xalq qəzeti" ilə Səudiyyə Ərəbistanının nüfuzlu nəşrlərindən biri ilə sıx əməkdaşlığın qurulmasını, qarşılıqlı informasiya mübadiləsinin aparılılmasını təklif etdi. Baş redaktor Ər-Riyadda, yaxud Bakıda Müsəlman Ölkələri Jurnalistlərinin Forumunun təşkil edilməsini təklif etdi.

İssam bin Saleh əl-Cuteyli başçısı olduğu diplomatik missiyanın ölkələrimizin media ictimaiyyətinin birgə hədəflərinin müəyyən edilməsinə yardımçı olacağını söylədi. Baş redaktorun təşəbbüsünü yüksək dəyərləndirən səfir İssam bin Saleh əl-Cuteyli iki ölkənin media mənsubları arasında təcrübə mübadiləsini, qarşılıqlı səfərləri təşkil etməyə hazır olduğunu, bu sahəyə ciddi önəm verdiklərini və əməli fəaliyyətə keçməyin məqamının çatdığını bildirdi.

**XQ**

Elm xadimlərimiz

# Çağdaş siyasi tariximizin nüfuzlu tədqiqatçısı

**Bakı Dövlət Universitetinin professoru İbrahim Zeynalov zəngin yaradıcılıq yolu keçmiş alimlərimizdəndir. Əsl elmi-tədqiqatçı ömrü yaşayıb, halal zəhməti, gərgin, yaradıcı əməyi, zəngin fəaliyyəti ilə həmkarlarının və tələbələrinin rəğbətini qazanıb.**



İbrahim müəllim Tovuz rayonunun Aşağı Ayıblı – indiki Əyyublu kəndində doğulub. Atasını erkən yaşlarında itirdiyindən ailəyə böyüklük edib, kiçik qardaşları – İman və Dumana ata əvəzi olub. Orta məktəbdə həm savadı, həm də təlim-tərbiyəsi ilə seçilən İbrahim BDU-nun (keçmiş ADU) tarix fakultəsinə qəbul imtahanlarında bütün fənnlərdən yüksək qiymət alsa da, müsabiqədən keçə bilmədi. Səbəb bəlli idi, havadarlıq, tapşırıq olmayanda asan iş də çətinə düşürdü...

Ancaq o vaxtlar Azərbaycan KP MK-nın 1-ci katibi olan ulu öndər Heydər Əliyevin verdiyi göstəriş İbrahimin, eləcə də universitetin sayılıb-seçilən fakültələrində təhsil almaq istəyən bir çox fəhlə-kəndli balalarının həyatında bir ümid işığı yandırdı. Ulu öndərin universitetə qəbul zamanı "fəhlə-kəndli balalarına üstünlük verilsin" qərarı ədalətin bərpası olmuş, tarixçi, hüquqşünas, jurnalist, şərqşünas olmaq istəyən gənclərin yollarını açdı. İbrahimin ADU-nin tarix fakultəsinə qəbul olunmasında bu faktın böyük rolu oldu.

İbrahim Zeynalov 1980-ci ildə universiteti fərqlənmə diplomu ilə bitirəndə fakültənin dekanlığı, xüsusilə də müəllimi olmuş tanınmış tarixçi alim Səfiyar Musayev ona bu ali təhsil ocağında qalmağı təklif etmişdi. Amma ailə vəziyyəti ilə əlaqədar razı olmamış, hətta sevimli müəlliminə də bildirmişdi ki, kiçik qardaşı Duman (sonralar polis orqanlarında rəhbər vəzifələrdə çalışdı, ruhu şad olsun) hüquq fakultəsinə qəbul olunub, onun təhsilini davam etdirməsi üçün maddi köməyi lazımdır. Bir müddət sonra isə o, nəhayət, universitetə qayıdıb əyani aspiranturaya qəbul olundu, 1986-cı ildə elmi işini uğurla müdafiə etdi.

Elə o vaxtdan da taleyini doğma univerisitetlə bağlayıb – müəllim, baş müəllim, dosent vəzifələrində çalışıb. 2 il BDU-da təlim-tərbiyə işləri üzrə proroktor olub, 4 il (1996–2000-ci illlər) bu flaqman təhsil ocağında aspirantura şöbəsinə rəhbərlik edib. 2019–2020-ci illərdə tarix fakültəsinin dekanı vəzifəsini icra edən İbrahim müəllim sonradan dekan vəzifəsinə seçilib və bu işi uğurla davam etdirməkdədir. Həm də "Ümumi tarix" və "Vətən tarixi" indekisləri üzrə dissertasiya şurasının sədridir.

Bu illər ərzidə müxtəlif vəzifələrdə çalışsa da, elmi yaradıcılığını davam etdirib, 1999-cu uldə doktorluq disertasiyasını müdafiə edərək AAK-ın qərarı ilə tarix elmləri doktoru elmi adını alıb. 2000-ci ildən isə tarix fakultəsində professor vəzifəsini tutmaqdadır.

Professor İbrahim Zeynalov zəngin yaradıcılıq yolu keçmiş məhsuldar alimlərdəndir. O, 7 elmi monoqrafiyanın, 20-dən çox dərs vəsaitinin, 3 kitabın, 6 dərsliyin, 10-dan çox fənn proqramının, ümumilikdə 280-dan çox elmi məqalənin müəllifidir. Onun "Vətən Müharibəsi tarixi: Şəxsiyyət faktoru", "Heydər Əliyev", "Qarabağ Azərbaycandır! Zəfər epopeyası", "Azərbaycanın ərazi bütövlüyünün və tarixi ədalətin bərpası Azərbaycanın Prezidenti İlham Əliyevin adı ilə bağlıdır", "Siyasi tarix" (dərslik); "Azərbaycanın iqtisadiyyatı və sosial inkişafı (70–80-ci illərdə)"; "Azərbaycanın sosial-iqtisadi inkişafı XX əsrin II yarısında" (dərslik); "Totalitar Sovet Cəmiyyəti: Tarixin ibrət dərsləri (Azərbaycan SSR XX əsrin 20–50-ci illərində)", "Vətənin xilaskar oğlu", "İlham Əliyev: Azərbaycan son 17 ildə – uğurlu siyasətinin davamı", "44 günlük Vətən Müharibəsində Ermənistanın hərbi-siyasi iflası" əsərləri tədqiqatçıların böyük rəğbətini qazanıb. Nəşrə hazırladığı yeni əsəri – "Azərbaycan milli dövlətçilik tarixində Heydər Əliyev zirvəsi: dahi şəxsiyyətin ömür yolu" adlanır. Əminik ki, çap mərhələsində olan 665 səhifəlik bu kitabın Ulu öndərin zəngin irsinin öyrənilməsində xüsusi əhəmiyyəti olacaq.

İbrahim müəllim fəal YAP-çı kimi ölkənin ictimai-siyasi həyatında yaxından iştirak edir, gəncliyin vətənə, dövlətçiliyə sədaqət ruhunda yetişməsində yorulmadan çalışır. Onun rəhbərliyi altında 12 nəfər tarix üzrə fəlsəfə doktoru, 1 nəfər isə tarix elmləri doktoru elmi işini başa vurub, hazırda 5 nəfər fəlsəfə doktoru və 4 nəfər elmlər doktoru proqramı üzrə elmi tədqiqatlar aparır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif olunmuşdur. A.Bakıxanov adına mükafatla, "BDU-nin 100 illiyi" yubiley medalı və kadrların hazırlığındakı xidmətlərinə görə çoxsaylı fəxri fərmanlarla təltif edilib. Tələbkar və qayğıkeş alimin ən böyük mükafatı isə tələbələrinin, rəhbərlik etdiyi kollektivin ona əvəzsiz sevgisidir.

* * *

Bakıya hər gələndə onunla görüşə bilməsəm də, budəfəki səfərimdə ziyarət etdim. Bir-bir hamını soruşdu. Aldığı cavablardan məmnun olduğunu hiss etdim. Qələm dostum Çingiz Qəribli ilə həmmüəllif olduğumuz, Tovuz döyüşlərindən bəhs edən "Doğuluş" kitabını ona verdim, "70 illik yubileyinizə hədiyyə olsun", – dedim. Kövrəldi, amma kitabı vərəqləyə-vərəqləyə: "Xoşbəxtəm ki, işğaldan azad olunmuş torpaqlarımızı, 30 ildən sonra ölkəmizin suverenliyini gördüm, – dedi.

Sonra da davam etdi ki, taleyimizdə xüsusi yeri olacaq prezident seçkilərinə də qalib ölkənin vətəndaşları kimi səfərbər olaraq getdik. Böyük sərkərdəyə – Ali Baş Komandan İlham Əliyevə səs verməklə Azərbaycanın daha böyük uğurlarına xeyir-dua verdik. Mənim üçünsə bu günlərin sevinci dünyalar qədər böyükdür. 70 illiyim seçkilər ilinə təsadüf etdi, Bu günlər həyatımın ən yaddaqalan tarixi olacaq...

Axşam kəndə qayıdacağımı söylədim. Heç nə deməsə də, gözlərindəki suallar açıqca oxunurdu. Hiss etdim ki, boya-başa çatdığı, əzizlərinin məzarlarını qoyub gəldiyi doğma kəndi Əyyubluya dönən eloğlusuna qibtə elədi... Amma ömrünün 40 ildən çoxunu həsr etdiyi, saysız-hesabsız tələbələr, alimlər yetişdirdiyi BDU-da onu gözləyənlər də az deyil, xüsusən də prezident seçkilərindən sonra başlanan yeni dövrdə ona burada daha böyük ehtiyac var.

Yolların həmişə işıqlı, ömrün mənalı olsun, professor!

***Ramiz ÇIRAQLI,***
***"Tovuz" qəzetinin baş redaktor müavini***

Vida sözü

# Nə xoşbəxt idilər bir zaman, Allah!

**AMEA-nın Əlyazmalar İnstitutunun direktor müavini, filologiya elmləri doktoru, professor Paşa Kərimovun adına ilk dəfə həyatdan vaxtsız köçmüş atası – unudulmaz şairimiz Əli Kərimin "Vəsiyyət" şeirində rast gəlmişəm:**



***…Gecələr yazmaq,***
***oxumaq eşqi gələndə***
***asın təbəssümümü***
***divar lampası kimi***
***başı üstdən üç canımın,***
***üç igid oğlanımın –***
***Paşamın, Azərimin,***
***Orxanımın…***

Daha sonra Paşaya həsr etdiyi "Xətlər variasiyaları" şeiri ilə tanış oldum: **S aat 1-dir… Baxmayıb gecənin bu çağına, Oğlum düz xətlər çəkir Ərzin hər bucağına".** O vaxt yaşadıqları Vaqif küçəsindəki evdə yazılmış bu şeir ilk baxışda uşaq marağı kimi nəzərə çarpan bu "əyləncəli həndəsə" əslində, dünyanın o zamankı mənzərəsinə, Yer planetinin müqəddəratına bir baxış idi.

Təəssüf ki, 10 yaşındaykən atasını itirmiş Paşa Əli oğlu 65 yaşının tamamına 2 həftə qalmış – bu il yanvarın 25-də dünyadan köçdü. Orta təhsilini Bakı şəhərində 132 saylı məktəbdə aldıqdan sonra Paşa Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirərək, Əli Kərimin ədəbiyyata həsr olunan ömrünü davam etdirirdi.

Mərhum alim bir müsahibəsində bu barədə deyib: "Bir dəfə futbol oynayırdıq. Atam da, sən demə, pəncərədən bizə baxırmış. Mən oyun zamanı bir də gördüm ki, yerdə qəzet qırığı var. O qədər bizə oxumağı aşılamışdı, maraq mənə güc gəldi, oyunu vecimə almadım, qəzet qırığını götürüb oxumağa başladım. Uşaqlar qışqır-bağır saldılar ki, əşşi, oxumağın yeridir, top gəlir, burax onu, oyuna fikir ver. Atam pəncərədən bu mənzərəyə baxıb xeyli gülübmüş. Sonra da anama deyib ki, deyəsən, bu uşaq da o yolun yolçusudur. Yəni yazı-pozuyla məşğul olacaq. Demək istədiyim odur ki, bu cür şeylərə çox diqqət edirdi. Kitabxanadan nə kitabı aldın, kimi oxuyursan və s. O vaxt mən gündəlik yazırdım, onu da soruşurdu ki, nə yazmısan, gətir göstər. Bax, bizi belə bir mühitdə, ovqatda böyütmüşdü".

Beləcə, mayasını Əli Kərimin poetik ruhundan götürmüş Paşa Əlioğlu yaradıcılıq imkanlarını bədii araşdırmalarla genişləndirib. 1982-ci ildən AMEA-nın Əlyazmalar İnstitutunda işləyib, elmi katib, direktor müavini vəzifələrində çalışıb. O, həmçinin Multidissiplinar əlyazmalar və əski çap kitabları şöbəsinin müdiri idi. 1991-ci ildə "Əlican Qövsi Təbrizinin "Divan"ının tekstoloji tədqiqi və elmi-tənqidi mətni" mövzusunda namizədlik, 2012-ci ildə isə "XVII əsr anadilli Azərbaycan lirikası" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib. Alim klassik ədəbi abidələrimizin filoloji və tekstoloji araşdırılması və nəşrə hazırlanması ilə məşğul olurdu. İlk dəfə XVI–XVII əsr Azərbaycan şairlərindən Yusif bəy Ustaclu, Qövsi Təbrizi, Mürtəzaqulu xan Şamlu, Vəhid Qəzvini, Sadiq bəy Əfşar, Təsir Təbrizi və başqalarının türkcə divanlarını, XIX əsr şairi Mirzə İsmayıl Qasir və Mirzə Baxış Nadimin şeirlərini, bir sıra başqa abidələrimizi o, çap etdirib. İnstitutun direktoru və AMEA Humanitar elmlər bölməsinin akademik katibi Teymur Kərimlinin qeyd etdiyi kimi, Paşa Əlioğlu söz sənətimizin naməlum səhifələrini üzə çıxardığı məqalələri ilə tanınan görkəmli ədəbiyyatşünas, mətnşünas, əlyazmaçı alim idi. "Biz onu daim iş başında, gözündə eynək, bir əlində lupa, bir əlində qələm əlyazmalar üzərində çalışan görməyə alışmışdıq".

Paşa Əlioğlu 2001 və 2009-cu illərdə Prezident təqaüdçüsü olmuşdu. 2012-ci ildə Türk Ədəbiyyatı Vəqfinin təsis etdiyi "Türk ədəbiyyatına xidmət baratı" mükafatına layiq görülmüşdü. 2015-ci ildə "Tərəqqi" medalı ilə təltif olunmuş, 1 mart 2017-ci il tarixində İqtisadi Əməkdaşlıq Təşkilatının 13-cü sammitində "Elm və texnologiya" nominasiyası üzrə xüsusi mükafata layiq görülmüşdü. Əlyazmalar İnstitutunun nəzdindəki "Dinşünaslıq" üzrə birdəfəlik ixtisaslaşdırılmış Dissertasiya Şurasının sədri, UNESCO-nun "Dünya yaddaşı" proqramı üzrə Azərbaycan Milli Komitəsinin sədr müavini idi. "Azərbaycan", "Multikulturalizm", "Filologiya məsələləri", "Əlyazmalar yanmır", çalışığı institutun "Elmi əsərlər" jurnallarının redaksiya heyətlərinə üzv seçilmişdi.

Ötən ilin əvvəlində atasının kitablarının türk və rus dillərində çapından sevinərək demişdi: "Əli Kərimin, demək olar ki, bütün əsərləri Türkiyədə "Bəngü" nəşriyyatında Türkiyə türkcəsində çap olundu. Artıq qardaş ölkədə onun şeirləri böyük sevgi ilə oxunacaq. Daha sonra kitablar rus dilinə də tərcümə olundu və Əli Kərim yaradıcılığının əhatə dairəsi bir az da genişləndi. Rus dilində də kitabın çıxması Ə.Kərim poeziyasının daha geniş coğrafiyada tanınmasına vəsilə olacaq". Sonda isə Paşa Əlioğlu bu gözəl işlərin təşəbbüskarı olan Milli Məclisin Mədəniyyət Komitəsinin sədri, mərhum Qənirə Paşayevaya təşəkkürünü bildirmişdi.

Əli Kərim də, ömür-gün yoldaşı Elza xanım da, oğulları Orxan da dünyaya əlvida deyiblər. İndi də Paşanın ruhu gedib onlara qovuşub. Bu gün təkcə Azər qalır. Türkiyənin Bilkənd Universitetində riyaziyyat üzrə professor kimi çalışan Azər Kərimova zəng etdik. Ata və anasından, Orxan və Paşadan anbaan kövrələ-kövrələ, qırıq-qırıq cümlələrlə bəhs eləyir. O, danışdıqca yadıma atasının yazdığı "Nə xoşbəxt imişəm bir zaman, Allah" şeiri düşür:

***Nə xoşbəxt imişəm bir zaman, Allah,***
***Xəbərim olmayıb bu səadətdən.***
***Nə xoşbəxt imişəm, nə xoşbəxt, xoşbəxt!***
***Bu gün eşitmişəm bunu həsrətdən...***
***Dünya başdan-başa səadət imiş,***
***Mənsə bu dünyanın qoynundayammış...***

Nə etmək olar, insan "Həmişə səfərdə"dir, "Qızıl qanad"larsa daim xatirə kəhkəşanında çırpınmaqla təsəllimiz olur.

***Ə.NƏCƏFXANLI***
**XQ**

13 fevral 2024-cü il, çərşənbə axşamı Xalq qəzeti

# Avropanın suverenlik konstruksiyası pas atıb

## Yaxud Aİ üzv dövlətlərin müstəqilliyini necə məhdudlaşdırır?

**Ayrı-ayrı dövlətlərin və regionların beynəlxalq siyasətə töhfələri haqqında mülahizələr yürüdərkən, qarşılaşdığımız ən mühüm problemlərdən biri də Avropanın strateji tənəzzülünün miqyasını tam olaraq qiymətləndirə bilməməyimizdir. Hətta obyektiv məlumatlar Avropa dövlətlərinin və onların birliyinin qlobal müstəvidə və ya öz periferiyasında ən mühüm məsələlərin həllinə təsir göstərə bilməməsindən xəbər versə belə, "Köhnə qitə"nın artıq real dünya siyasətinin hüdudlarından kənarda olduğunu qəbul etmək çətindir.**



Bunun bir sıra obyektiv səbəbləri var. Avropa İttifaqı (Aİ) özünəməxsusluğu ilə fərqlənən siyasi aktordur. Xarici siyasət fəaliyyəti üçün stimul olan suverenlik bu konstruksiya daxilində üzv dövlətlər və müxtəlif institusional oyunçular arasında bölüşdürülür. Ona görə də Aİ-nin xarici siyasətini müzakirə edərkən nəyi nəzərdə tutduğumuzu aydınlaşdırmaq lazımdır. Bu qurumda bir tərəfdən, hər bir üzv dövlətin milli prioritetləri var. Digər tərəfdən, Aİ-nin özü üçüncü ölkələrlə ünsiyyətdə və yüksəksəviyyəli çoxtərəfli görüşlərdə vahid mövqedən çıxış edir.

Soyuq müharibədən sonrakı dövrdə kütləvi şüurun ən maraqlı fenomenlərindən biri, o zamankı uğurlu siyasi layihələrin daim bizimlə qalacağına inam idi. Biz həmişə gələcəyin mümkün qədər proqnozlaşdırıla bilən olmasını və mövcud rifahın əbədi olaraq qalmasını təmin etməyə çalışırıq. Beynəlxalq siyasətdə də belə oldu. 100 il əvvəl Avropa müstəmləkə imperiyalarının dağılması və Böyük depressiyadan sonrakı ümumi iqtisadi eqoizm böyük bir şok oldu.

Əlbəttə, indi inqilabi xarakter daşıyan dəyişikliklər daha dramatik şəkildə qəbul edilir. Avropa təkcə öz sabitliyi ideyasını özünə təlqin etmədi, həm də ətrafındakıların əksəriyyətini inandırdı ki, onları ən ağrılı şəkildə qəbul edir.

Məlumdur ki, Aİ-də qanunvericilik səslərin əhaliyə nisbətdə paylanması əsasında iştirakçı ölkələr tərəfindən nizamlanır. Əgər biz Aİ haqqında "Müqavilə" kimi fundamental sənədlərdən danışırıqsa, onda sırf hüquqi baxımdan Brüssel, ümumiyyətlə, müzakirədən kənarda qalır. Hər şey Avropa ölkələrinin paytaxtları arasında pərdəarxası sövdələşmələr çərçivəsində baş verir.

Deməli, vətəndaşları siyasətə təsir etmək hüququndan məhrum edən bir kimsə varsa, bu da onların öz milli elitasıdır. Nümunə kimi Avropa Parlamentinin 2019-cu ildə Avropa Komissiyasının rəhbəri vəzifəsinə ən böyük fraksiyasının nümayəndəsinin namizədliyini irəli sürmək cəhdini xatırlayın. O zaman parlamentarilərin təşəbbüsü Almaniyanın o dönəmdəki kansleri Angela Merkelin başçılıq etdiyi aparıcı Aİ ölkələri tərəfindən bir göz qırpımında "dəfn olundu". Onların müstəqil siyasətçiyə qətiyyən ehtiyacı yox idi və ona görə də yüksək vəzifəyə Ursula fon der Lyayeni təyin etdilər. Bu xanım isə buna qədər artıq Almaniya hökumətində mümkün olan nə olubsa, hamısını iflasa uğratmışdı. Avropa Parlamentinə onların qərarları ilə oturub durmayan, onlara tabe olmayan ölkələrə qarşı sanksiyalar qəbul etmək, barmaq sirkələmək, Mərkəzi Asiyada insan haqlarının pozulmasını bəhanə edib hiddətlərini bildirmək və ümumiyyətlə, Aİ daxilində pul bölgüsü üçün heç bir əhəmiyyət kəsb etməyən işlər görmək qalır deyə məhz bu xanımı ora qoydular.

Sual oluna bilər ki, əgər Avropa Komissiyasına onların himayədarlıq etdikləri siyasətçi rəhbərlik edirsə, nəyə görə avropalı siyasətçilər vaxtaşırı onu bütün günahlarda ittiham edirlər? Sadəcə ona görə ki, özündən müştəbehliyindən və çox yerə burun soxmasından ən kiçik şübhə belə yarananda, profilaktika üçün Brüssel məmurlarını dərhal yerlərinə oturtdursunlar. İndi də Berlin və Parisin xanım fon der Lyayenin tarixdəki rolunu bir qədər yüksək qiymətləndirdiyindən şübhələnməyə əsasları var. Bircə ona görə ki, Ukraynaya görə Rusiya ilə mübarizə fonunda Aİ-nin baş bürokrat xanımı sözün əsl mənasında televiziya ekranlarından düşmür və müxtəlif beynəlxalq konfranslarda hamıdan başda oturmağa çalışır. Daha çox şübhə doğuran məqam onun amerikalılarla yaxşı əlaqələr qurmasındadır. Onlar da məlum olduğu kimi, prinsipcə, əli təmiz olmayan və siyasi cəhətdən qeyri-sabit şəxsləri çox sevirlər. Ona görə də indi hətta öz müxalifətçilərinin sərt çıxışları belə Avropanın ənənəvi elitaları tərəfindən kifayət qədər müsbət qarşılanır.

Əlbəttə, almanların və ya fransızların əksəriyyəti indi öz ölkələrinin Aİ-dən çıxmasını istəmir. Orada fəaliyyət göstərən ümumi bazarın şirkətlər üçün əhəmiyyətli üstünlükləri var, onlar üçün xarici rəqiblərdən qorunma, mal və xidmətlər daha əlçatandır. Ancaq bütün bu "komfort"a görə onlara daha çox vəsait ödəmək lazım gəlir. Bu xərclərin isə xeyli hissəsini müxtəlif xarici siyasət vəsaitləri təşkil edir. İndiki vəziyyətdə isə onlar arasında əsas yeri Kiyevdəki rejimə dəstək, ümumiyyətlə, Rusiya ilə münaqişənin iqtisadi nəticələri tutur. Bunlar da Almaniya üçün çox həssas məsələlərdir.

Reallıqlardan biri də ondan ibarətdir ki, son 15 ildə gedən proseslər nəticəsində Aİ böyük pulların yenidən bölüşdürülməsi maşınına çevrilib. Bu, yəqin ki, Almaniya hökumətinə rəhbərlik etdiyi illərdə Merkelin ən ciddi nailiyyəti oldu. Bəzi Aİ ölkələri sənaye iqtisadiyyatını və yüksək əlavə dəyərə malik məhsulların istehsalını inkişaf etdirdi, digərləri isə iqtisadi siyasət sahəsində müstəqil olaraq nəyisə həll etmək imkanından məhrum oldular. Aİ-nin yeni dövlətləri, xüsusən də Polşanı belə bir vəziyyət tamamilə qane edirdi. Onlar Aİ-yə dotasiya almaq üçün girdilər və indi də xüsusi bir iş görmürlər. Əslində əhalisi nisbətən az olan Şimalı Avropa ölkələri qazanın dibindən onlara verilən paydan məmnundurlar. Lakin Cənubun böyük dövlətləri çox məyus və çaşqın görünürlər. İtaliya, İspaniya, Yunanıstan və Portuqaliya artıq sənaye liderləri kimi qalmaq qabiliyyətlərini tamamilə itiriblər.



İlk vaxtlar durğunluq dövründəki SSRİ-ni xatırladan bu model Almaniyanın istəyinə uyğun idi. Məhz buna görə Merkel müstəsna uğurlu siyasətçi kimi təqaüdə çıxdı. Amma indi ABŞ və İngiltərənin Rusiya ilə qarşıdurmasının Avropanın üzərinə qoyduğu xərcləri ən çox Almaniya ödəməyə başlayıb və bu da artıq Federativ Respublikanın vətəndaşlarının xoşuna gəlməməyə başlayıb. Üstəlik, onlar ənənəvi siyasətçilərdən yorulublar. Elə buna görə də ölkədə "Almaniya üçün Alternativ" partiyasının populyarlığı artır.

Aİ-nin sabitliyi üçün digər narahatedici amil Böyük Britaniya nümunəsidir. Əvvəla, Britaniyanın Aİ-dən çıxması bu təşkilat üçün ciddi zərbə oldu, çünki o, kövrək daxili maraqlar balansını və güc nisbətini pozdu. İndi Avropa ABŞ-la münasibətlərində xeyli zəifləyib, çünki əvvəllər britaniyalılar qitədəki müttəfiqlərinin maraqlarını ən azı müəyyən dərəcədə qorumağa məcbur idilər. Vaşinqton isə Britaniya "satellitləri"nin bu problemi həll edə biləcəyinə inanaraq Berlinə və Parisə daha az təzyiq göstərirdi.

İkincisi, Avropa inteqrasiyasının mövcud olduğu onilliklər ərzində ilk dəfə olaraq böyük bir ölkə qurumu tərk etmək qərarına gəldi. Digər Aİ ölkələrinin siyasətçiləri və vətəndaşları gördülər ki, bu konstruksiya çərçivəsində qadağan edilmiş bir mövzu yoxdur. Aİ-nin dəyərləri isə özlərini Almaniya, Fransa və Avropa bürokratiyasının müştərisindən artıq və yüksəkdə təsəvvür etməyən dövlətlər üçün qeyd-şərtsizdir.

Gələcəkdə hakimiyyətə can atan avropalı siyasətçilər indi də sürətlə dəyişən dünya nizamı fonunda ABŞ, Çin və ya Rusiya ilə münasibətləri necə quracaqları barədə düşünürlər. Ənənəvi siyasi partiyaların tənəzzülünü nəzərə alsaq, şübhəsiz, bunu yeni nəsil siyasətçilər etməli olacaqlar. Ancaq münasibətlərin belə mürəkkəb vəziyyətində Brüsselə hansı rolun ayrılacağı əsla məlum deyil.

Avropalılar gec-tez, "biz hansı prinsiplər əsasında birləşmişik" sualına üz tutmalı olacaqlar. Əlbəttə, indidən biz bu söhbətin nə dərəcədə ciddi olacağını dəqiq proqnozlaşdıra bilmərik. Ola bilsin ki, bu məsələ, son vaxtlara qədər tamamilə dəyişməz görünən Aİ-nin bütün konstruksiyasının əsaslarına toxunsun.

İstənilən halda Avropa ABŞ-dan fərqli olaraq, öz qüvvəsinə arxalanıb muxtar mövcudluğa qətiyyən qabil deyil və bu da onun liderlərini gec-tez daha ciddi danışmağa məcbur edəcək. Nəhayət, İkinci Dünya müharibəsindən sonrakı dövrdə Avropa inteqrasiyanın fantastik nailiyyətləri, həmçinin avropalıların faktiki olaraq, yaxın vaxtlara qədər əldə etdikləri iqtisadi və texnoloji nailiyyətlər ona gətirib çıxardı ki, kənardan Avropa "virtual olaraq" dünyanın aparıcı oyunçularına aid edildi.

Bu, Amerikanın Avrasiyadakı hərbi-siyasi gücünün coğrafi bazası kimi Avropanın rolunun və bu qitənin imkan və ambisiyalarının harada kəsişdiyini başa düşməyi çətinləşdirir. Bu amillər mahiyyətcə Avropanın dünyada sahib olduğu mövqeyi, həqiqətdə olduğu kimi dərk etməyə çox az yer qoyur.

Aydındır ki, indiki dövrdə Aİ dövlətlərinin müstəqilliyi məsələsinə əlli, yüz il əvvəlki kriteriyalarla yanaşmaq doğru olmazdı. Klassik mənada suverenlik indi nisbi anlayışdır, çünki dövlətin qlobal iqtisadiyyatda iştirakının hansı xüsusiyyətlərinin onu məhdudlaşdırdığını söyləmək çətindir. Hətta KXDR kimi ölkələri belə xarici mühitdən tam müstəqil hesab etmək olmaz. Lakin Avropaya gələndə bu konstruksiyanın hərbi siyasət məsələlərində suverenliyinə Transatlantik münasibətlər sisteminin çox sərt məhdudiyyətləri tətbiq edilib. Bu münasibətlər, şəxsi məsələlər üzrə müzakirələrdə özü-özlüyündə sövdələşmənin müəyyən elementlərini ehtiva edir. Lakin prinsipial əhəmiyyət kəsb edən məsələlərdə Avropanın müstəqil hərəkət etmək imkanlarından danışmaq əsla mümkün deyil. ABŞ-ın Avropa üzərində paradoksal şəkildə sərt nəzarəti Rusiya, Çin, həmçinin başqa siyasi oyunçular üçün problemdir, lakin bu, eyni zamanda avropalıların özlərinin də axmaq bir addım atmamasına təminat veirir.

Avropa elitasının hazırki vəziyyəti az maraq doğurmur. Qitədə son yüz ildəki təkamülün özəl ideoloji düzgünlüyünə arxayın olan güclü liderlərin yetişdirməsi üçün unikal mühit formalaşmayıb. Müharibələrə başlamaq üçün məhz beləleri lazımdır, lakin söhbət onun Avrasiyada ABŞ-ın ərazi bazası kimi mövcud olmasından gedərsə, bu ölümcül dərəcədə təhlükəlidir. Bu mənada, əlbəttə, Aİ-yə daxil olmayan müstəqil dövlətlərə qitədə konkret kiminlə münasibətdə olmasına daha çox diqqət yetirmələri vacib olardı. Ola bilsin ki, orada həqiqətən də xüsusi bir mühit formalaşıb ki, dövlət məmurları ənənəvi millətçilik və milli maraqlar baxımından özlərini düşünmürlər.

Amma buna inanmaq əsla mümkün deyil. Qulun qulu olmaq və bu yükün altına girmək əsla milli mənafeyə yaxşı bir şey vəd etmir və etməyəcək də. Ancaq dünyanın hər hansı gücünə söykənmədən müstəqil siyasi oyunçu kimi qalmaq istəyi də dünyanın reallıqlarına mütənasib görünmür. Əgər müstəqillik konstruksiyası pas atan Aİ hegemon lider hesab edilən ABŞ-ın əlində, el dilində desək, "əsirdisə", onda bu qurumdan kənarda olan ölkələr suverenlikləri və müstəqillikləri ilə ehtiyatlı davransalar, əsla peşimançılıq çəkməzlər.

***İlqar RÜSTƏMOV***
***XQ***

# Qırğızların ABŞ-a xatırlatması: "İşlərimizə qarışmayın!"

## Bişkekin QHT planı Vaşinqtonu narahat edir

**Qırğızıstan prezidenti Sadır Japarov digər ölkələrdən, o cümlədən ABŞ-dan respublikanın daxili işlərinə qarışmamağı xahiş edib. O, Qırğızıstanda qəbul oluna biləcək xarici agentlər haqqında qanun layihəsi ilə bağlı narahatlığını bildirən Amerika dövlət katibi Entoni Blinkenin məktubunu belə şərh edib. Cənab Japarov deyib ki, digər ölkələr tərəfindən maliyyələşdirilən QHT-lərdən ibarət kiçik, lakin "çox səsli qrup" "öz çətinlikləri və təqibləri haqqında spekulyasiya edir". İddialara görə, bu, onlara sponsorluq edən xarici strukturları "onların rəhbərliyinə tabe olmağa" və "ABŞ və Aİ vergi ödəyicilərindən pul xərcləməyə" məcbur edir. Qırğızıstan prezidentinin sözlərinə görə, həmin QHT-lər insanlar arasında "yalan, etibarsız məlumatlar" yayırlar. O, ABŞ-dan maliyyələşən qeyri-hökumət və qeyri-kommersiya təşkilatlarının auditinin keçirilməsini təklif edib.**



ABŞ Qırğızıstanda qəbul olunacaq xarici agentlər haqqında qanun layihəsindən narahatdır. Xatırladaq ki, bu barədə Amerikanın dövlət katibi Entoni Blinken Qırğızıstan lideri Sadır Japarova məktubunda yazmışdı. Məktubda bildirilmişdi ki, "fəal vətəndaş cəmiyyəti Qırğızıstan demokratiyasının əsas hissəsidir və qanun layihəsi (qəbul edilərsə) bütün vəziyyətə mənfi təsir göstərə bilər". Beləliklə, cənab Blinkenin fikrincə, qanun layihəsi hazırkı formada "vətəndaşların səhiyyə və təhsil sahəsində mühüm xidmətlərə çıxışını təhlükə altına qoyur". Ancaq fakt budur ki, onların bir çoxu ABŞ hökuməti və beynəlxalq tərəfdaşlar tərəfindən maliyyələşdirilən QHT proqramları vasitəsilə həyata keçirilir.

Dövlət katibi qırğız liderə bildirmişdi ki, bəzi amerikalı tərəfdaşlar bu qanundan narahatdırlar və onlar Qırğızıstanda fəaliyyətini dayandırmağı düşünürlər: "Mən sizi bu narahatlıqları ölçüb-biçməyə və parlament liderləri ilə müzakirə etməyə çağırıram. Ümid edirəm ki, biz ABŞ və Qırğızıstan arasında ikitərəfli əlaqələri gücləndirməyə davam edə bilərik". Eyni zamanda E.Blinken əlavə dəqiqləşdirməyə getmədən xəbərdarlıq edib ki, "Biz belə qanunların qəbulunun mənfi nəticələrini artıq görmüşük".

QHT-lər haqqında qanuna dəyişiklik ötən ilin əvvəlində deputat Nadirə Nərmətova tərəfindən irəli sürülüb. O, xaricdən maliyyələşən QHT-lər üçün "xarici nümayəndə" termininin qanunvericiliyə daxil edilməsi, habelə belə təşkilatların reyestrinin yaradılması təklifi ilə çıxış edib. Reyestrə daxil olmaq təşkilatın ölkədə fəaliyyət göstərməsinə icazə verildiyi anlamına gələcək. N.Nərmətova QHT-lərə münasibətdə dövlətin səlahiyyətlərinin genişləndirilməsini də təklif edib: hakimiyyətə qanunu pozduğuna görə birtərəfli qaydada altı ay müddətinə təşkilatın fəaliyyətini dayandırmaq imkanı veriləcək. Həmçinin hakimiyyət orqanlarına təşkilatları bu reyestrdən çıxarmaq hüququnun verilməsi nəzərdə tutulur ki, bu da əksər hallarda onların bağlanması ilə nəticələnəcək.

Bundan əlavə, qeyri-kommersiya təşkilatlarının hər hansı siyasi fəaliyyətdə - korrupsiya işlərinin araşdırılmasından tutmuş mitinqlərdə iştirakına qadağa qoyulması nəzərdə tutulur. Nadirə Nərmətova bu məqsədlə Cinayət Məcəlləsinə "Vətəndaşların şəxsiyyətinə və hüquqlarına qəsd edən qeyri-kommersiya təşkilatı yaratma" maddəsinin daxil edilməsini təklif edir. Bu maddənin pozulması 50-100 min som məbləğində cərimə (1 som 0,0190 manata bərabərdir-red.) və ya beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılacaq. Belə birliklərin fəaliyyətində fəal iştiraka və bu cür təşkilatların təbliğatına görə 100-200 min som məbləğində cərimə və ya on ilədək müddətə azadlıqdan məhrumetmə nəzərdə tutulur. Layihə parlamentin konstitusiya komitəsi tərəfindən ikinci oxunuşda demək olar ki, yekdilliklə qəbul edilib.

Statistikaya görə, bu gün Qırğızıstanda 30 mindən çox QHT qeydiyyatdan keçib. Rəsmi Bişkek bu sahədə hüquqi tənzimlənmələrin vacibliyini önə çəkir. Ancaq Vaşinqton qırğızların təşəbbüsünü "vətəndaş cəmiyyətinə təhlükə" hesab etdiyini açıqlayır. Bununla belə, cənab Japarovun ABŞ dövlət katibinə göndərdiyi məktub göstərir ki, Bişkek bu məsələdə güşəştə getməyəcək. Qırğız lideri məktubunda bildirib ki, Bişkek ABŞ ilə bərabərhüquqlu əməkdaşlığın tərəfdarıdır və bütün ölkələr və beynəlxalq tərəfdaşlarla, o cümlədən ABŞ-la birgə işləməyə hazırdır. Lakin cənab Japarov xüsusilə vurğulayıb ki, xarici ölkələr Qırğızıstanın daxili işlərinə qarışmasınlar. S.Japarov, həmçinin E.Blinkeni respublikada insan hüquq və azadlıqlarının "Konstitusiya və qanunlarla etibarlı şəkildə qorunduğuna" əmin olmaq üçün Bişkekə səfərə dəvət edib.

ABŞ-ın Qırğızıstana belə maraq göstərməsi sırf vətəndaş cəmiyyəti ilə bağlı deyil. Vaşinqton Qırğızıstanın strateji mövqeyini nəzərə alaraq, əvvəllər zəifləmiş münasibətləri bərpa etməyə çalışır. Qırğızıstanla ABŞ arasında əməkdaşlığın əsasları 1993-cü ildə Vaşinqtonda imzalanmış əməkdaşlıq sazişinə əsaslanır. 2001-ci ildə ABŞ-ın Əfqanıstandakı əməliyyatından sonra ikitərəfli münasibətlər "strateji tərəfdaşlıq" səviyyəsinə yüksəlib. 2001-ci ildə ABŞ Bişkek yaxınlığında hava bazası yaradıb. Lakin sonradan münasibətlər korlanmağa başlayıb və Qırğızıstan Amerika bazasını bağlayıb. 2021-ci ilin avqustunda Amerika qoşunlarının Əfqanıstandan çıxarılması ilə Vaşinqton Mərkəzi Asiya regionunda hərbi mövcudluğunu bir daha artırmaqda maraqlıdır. Birləşmiş Ştatlar keçmişdəki problemləri həll etməyə və pozulmuş münasibətləri bərpa etməyə çalışır. Qırğızıstan öz iqtisadi problemlərini həll etmək üçün ilk növbədə yeni tərəfdaşlara ehtiyac duyur. Lakin son məktub dueli göstərir ki, Qırğızıstan ABŞ-ın diktəsi ilə hərəkət etməyəcək.

***S.MƏMMƏDOV***
***XQ***


# "A-QROUP" Sığorta Şirkəti yeni ünvanda

2024-cü il yanvarın 29-dan etibarən "A-QROUP" Sığorta Şirkəti öz müştərilərini Bakı şəhəri, Azadlıq prospekti 3 nömrəli ünvanda yerləşən yeni ofisində qarşılayır.

Şirkətin əlaqə nömrələri dəyişilməyib: *0909 / (012) 377 09 09.

"A-QROUP" " Sığorta Şirkəti 28 il ərzində onlara güvənən və təkrar bərabərlikdən məmnun olan müştərilərinə təşəkkür edir.

"Sizə minnətdar olaraq sizin üçün inkişaf edirik!" – sizin "A-QROUP" Sığorta Şirkətiniz.

# Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

## QƏRAR

**№ 3-27/3-7-1/2024**

**Bakı şəhəri 12 yanvar 2024-cü il**

**Universal poçt rabitəsi xidmətlərinin tariflərinin tənzimlənməsi haqqında**

"Azərbaycan Respublikası Prezidentinin "Poçt haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 31 avqust tarixli 115 nömrəli və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» 2007-ci il 22 may tarixli 583 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 13 noyabr tarixli 2350 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 21 noyabr tarixli 889s nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 3.0.7-ci yarımbəndini və 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. Universal poçt rabitəsi xidmətləri üzrə tariflər təsdiq edilsin (əlavə olunur).
2. Hüquq şöbəsi bu Qərarın qəbul edildiyi gündən 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.
3. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

**Kollegiyanın sədri,**
**rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev**

**Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2024-cü il "12" yanvar tarixli 3-27/3-7-1/2024 nömrəli qərarı ilə təsdiq edilmişdir.**

**Universal poçt rabitəsi xidmətləri üzrə tariflər**

**1. Daxili poçt göndərişlərinin Azərbaycan Respublikası daxilində göndərilməsi üçün tariflər**

| № | Poçt göndərişlərinin və xidmətlərin növləri | Tariflər (manatla, ƏDV ilə) | |
|---|---|---|---|
| | | sadə | sifarişli |
| 1. | **Poçt kartı:**<br>- minimal ölçüləri: **90** mm x**140** mm;<br>- maksimal ölçüləri: **120** mm x **235** mm | 0,30 | 0,90 |
| 2. | Kiçik ölçülü məktub:<br>- minimal ölçüləri: **90** mm x **140** mm; - maksimal qalınlığı: **5** mm;<br>- maksimal ölçüləri: **165** mm x **245** mm; - maksimal çəkisi: **100** qram | | |
| *2.1.* | *-20 qramadək* | *0,30* | *0,90* |
| *2.2.* | *-20 qramdan 50 qramadək* | *0,40* | *1,00* |
| *2.3.* | *-50 qramdan 100 qramadək* | *0,50* | *1,10* |
| 3. | **Böyük ölçülü məktub və banderol:**<br>minimal ölçüləri: **90** mm x **140** mm; - maksimal qalınlığı: **20** mm;<br>maksimal ölçüləri: **305** mm x **381** mm; - maksimal çəkisi: **500** qram;<br>ən azı bir parametrinə görə kiçik ölçülü məktubdan böyük | | |
| *3.1.* | *-100 qramadək* | *0,80* | *1,40* |
| *3.2.* | *-100 qramdan 250 qramadək* | *1,10* | *1,70* |
| *3.3.* | *-250 qramdan 500 qramadək* | *1,40* | *2,00* |
| 4. | **Həcmli məktub, banderol və kiçik paket:**<br>- minimal ölçüləri: **90** mm x **140** mm;<br>- maksimal ölçüləri: **600** mm, üç ölçüsünün cəmi **900** mm<br>**Rulon şəklində:**<br>- minimal uzunluğu: **100** mm, uzunluq və ikiqat diametrinin cəmi **170** mm;<br>- maksimal uzunluğu: **900** mm, uzunluq və ikiqat diametrinin cəmi **1040** mm;<br>- ən azı bir parametrinə görə kiçik ölçülü məktubdan və böyük ölçülü məktub və banderoldan böyük | | |
| *4.1.* | *-250 qramadək* | *1,40* | *2,00* |
| *4.2.* | *-250 qramdan 500 qramadək* | *1,80* | *2,40* |
| *4.3.* | *-500 qramdan 1000 qramadək* | *2,20* | *2,80* |
| *4.4.* | *-1000 qramdan 1500 qramadək* | *2,60* | *3,20* |
| *4.5.* | *-1500 qramdan 2000 qramadək* | *3,00* | *3,60* |
| 5. | **Adi bağlama (standart ölçülü, qiyməti bəyan olunmamış):**<br>- ən böyük ölçüsü **1050** mm;<br>- uzunluq və ən böyük en kəsiyinin perimetrinin cəmi maksimum **2000** mm; - maksimal çəkisi: **10** kq | | |
| 5.1. | *- çəkidən asılı olmayaraq hər bir bağlama üçün* | | *3,00* |
| 5.2. | *- hər tam və natamam 1 kiloqram üçün* | | *0,60* |

**2. Beynəlxalq poçt göndərişlərinin Azərbaycan Respublikasından göndərilməsi tarifləri**

| № | Poçt göndərişlərinin və xidmətlərin növləri | Tariflər (manatla, ƏDV ilə) | | | |
|---|---|---|---|---|---|
| | | sadə | | sifarişli | |
| | | I zona | II zona | I zona | II zona |
| 1. | **Poçt kartı:**<br>- minimal ölçüləri: **90** mm x**140** mm;<br>- maksimal ölçüləri: **120** mm x **235** mm | 0,90 | 1,00 | 5,10 | 5,20 |
| 2. | **Kiçik ölçülü məktub:**<br>- minimal ölçüləri: **90** mm x **140** mm; - maksimal qalınlığı: **5** mm;<br>- maksimal ölçüləri: **165** mm x **245** mm; - maksimal çəkisi: **100** qram | | | | |
| *2.1.* | *-20 qramadək* | *0,90* | *1,00* | *5,10* | *5,20* |
| *2.2.* | *-20 qramdan 50 qramadək* | *1,40* | *1,60* | *5,60* | *5,80* |
| *2.3.* | *-50 qramdan 100 qramadək* | *2,10* | *2,50* | *6,30* | *6,70* |
| 3. | **Böyük ölçülü məktub və banderol:**<br>- minimal ölçüləri: **90** mm x **140** mm; - maksimal qalınlığı: **20** mm;<br>- maksimal ölçüləri: **305** mm x **381** mm; - maksimal çəkisi: **500** qram;<br>- ən azı bir parametrinə görə kiçik ölçülü məktubdan böyük | | | | |
| *3.1.* | *-100 qramadək* | *2,60* | *3,20* | *6,80* | *7,40* |
| *3.2.* | *-100 qramdan 250 qramadək* | *5,10* | *6,30* | *9,30* | *10,50* |
| *3.3.* | *-250 qramdan 500 qramadək* | *9,30* | *11,80* | *13,50* | *16,00* |
| 4. | **Həcmli məktub, banderol və kiçik paket:**<br>- minimal ölçüləri: **90** mm x **140** mm;<br>- maksimal ölçüləri: ən böyük ölçüsü **600** mm, üç ölçüsünün cəmi **900** mm<br>**Rulon şəklində:**<br>- minimal uzunluğu: **100** mm, uzunluq və ikiqat diametrinin cəmi **170** mm;<br>- maksimal uzunluğu: **900** mm, uzunluq və ikiqat diametrinin cəmi **1040** mm;<br>- ən azı bir parametrinə görə kiçik ölçülü məktubdan və böyük ölçülü məktub və banderoldan böyük | | | | |
| *4.1.* | *-250 qramadək* | *5,70* | *7,10* | *9,90* | *11,30* |
| *4.2.* | *-250 qramdan 500 qramadək* | *10,20* | *12,90* | *14,40* | *17,10* |
| *4.3.* | *-500 qramdan 1000 qramadək* | *19,00* | *24,20* | *23,20* | *28,40* |
| *4.4.* | *-1000 qramdan 1500 qramadək* | *26,90* | *34,70* | *31,10* | *38,90* |
| *4.5.* | *-1500 qramdan 2000 qramadək* | *35,40* | *45,80* | *39,60* | *50,00* |

**Qeyd:** I zona ölkələr: Türkiyə, İran, Pakistan Gürcüstan, Ukrayna, MDB və Baltikyanı ölkələr;
II zona ölkələr: digər ölkələr.

**3. Beynəlxalq adi poçt (çəkisi 10 kq qədər, ölçüsü standart, qiyməti bəyan olunmamış) bağlamalarının Azərbaycan Respublikasından göndərilməsi tarifləri**

| № | İSO kodu | Təyinat ölkəsinin adı | Tariflər (manatla, ƏDV ilə) | |
|---|---|---|---|---|
| | | | bağlama üçün | 1 kq çəki üçün |
| 1. | US | ABŞ | 24,00 | 15,10 |
| 2. | AL | Albaniya | 29,60 | 6,00 |
| 3. | DE | Almaniya | 33,80 | 6,30 |
| 4. | AO | Anqola | 27,10 | 19,50 |
| 5. | AG | Antiqua və Barbuda | 27,60 | 18,90 |
| 6. | AR | Argentina | 26,80 | 18,70 |
| 7. | AU | Avstraliya | 25,40 | 22,60 |
| 8. | AT | Avstriya | 31,00 | 6,00 |
| 9. | BS | Bahamaz | 28,30 | 20,00 |
| 10. | BD | Banqladeş | 21,70 | 15,40 |
| 11. | BB | Barbados | 30,60 | 19,50 |
| 12. | BY | Belarus | 27,00 | 9,60 |
| 13. | BE | Belçika | 42,40 | 7,20 |
| 14. | BZ | Beliz | 35,10 | 22,40 |
| 15. | BJ | Benin | 28,60 | 14,80 |
| 16. | BH | Bəhreyn | 25,90 | 9,40 |
| 17. | AE | Birləşmiş Ərəb Əmirlikləri | 17,30 | 4,00 |
| 18. | BO | Boliviya | 38,20 | 26,80 |
| 19. | BG | Bolqarıstan | 24,00 | 6,90 |
| 20. | BA | Bosniya və Hersoqovina | 27,70 | 6,80 |
| 21. | BW | Botsvana | 30,30 | 24,00 |
| 22. | GB | Böyük Britaniya | 37,00 | 11,00 |
| 22.1. | AI | -Anquilla | 20,30 | 17,20 |
| 22.2. | SH | -Asension | 20,20 | 12,50 |
| 22.3. | BM | -Bermud | 35,30 | 17,80 |
| 22.4. | KY | -Kayman | 25,10 | 27,50 |
| 22.5. | FK | -Folklend (Malvin) | 24,30 | 36,00 |
| 22.6. | GI | -Qibraltar | 29,70 | 9,80 |
| 22.7. | MS | -Montserrat | 19,70 | 23,30 |
| 22.8. | PN | -Pitkern | 42,90 | 53,00 |
| 22.9. | SH | -Sent Yelena | 22,00 | 13,00 |
| 22.10. | TA | -Tristan-da-Kunya | 19,60 | 13,10 |
| 22.11. | TC | -Terks və Kaykos | 19,70 | 24,40 |
| 22.12. | VG | -Virciniya adaları | 20,60 | 24,50 |
| 23. | BR | Braziliya | 28,50 | 16,90 |
| 24. | BN | Bruney Darussalam | 21,00 | 21,00 |
| 25. | BF | Burkina Faso | 25,90 | 21,80 |
| 26. | BI | Burundi | 38,20 | 14,80 |
| 27. | BT | Butan | 27,00 | 17,40 |
| 28. | ZA | Cənubi Afrika | 26,80 | 12,00 |
| 29. | SS | Cənubi Sudan | 27,60 | 19,10 |
| 30. | DJ | Cibuti | 23,50 | 11,20 |
| 31. | TD | Çad | 24,40 | 17,10 |
| 32. | CZ | Çexiya | 24,30 | 6,60 |
| 33. | CL | Çili | 38,20 | 32,00 |
| 33.1. | | - Pasxa adası | 29,70 | 34,60 |
| 34. | CN | Çin (Xalq Respublikası) | 24,00 | 10,40 |
| 34.1. | HK | -Honq Konq | 32,00 | 10,10 |
| 34.2. | MO | -Makao | 39,80 | 24,30 |
| 34.3. | TW | -Tayvan | 25,80 | 21,00 |
| 35. | DK | Danimarka | 31,80 | 6,70 |
| 36. | DM | Dominika | 28,70 | 19,20 |
| 37. | DO | Dominikan Respublikası | 29,50 | 20,00 |
| 38. | ET | Efiopiya | 16,80 | 12,90 |
| 39. | EC | Ekvador | 35,10 | 25,00 |
| 40. | GQ | Ekvatorial Qvineya | 27,60 | 15,20 |
| 41. | ER | Eritrey | 38,20 | 15,40 |
| 42. | EE | Estoniya | 27,60 | 11,70 |
| 43. | AF | Əfqanıstan | 32,30 | 14,40 |
| 44. | DZ | Əlcəzair | 23,60 | 13,70 |
| 45. | PS | Fələstin | 22,20 | 6,70 |
| 46. | FJ | Fici | 32,40 | 36,40 |
| 47. | PH | Filippin | 21,90 | 22,70 |
| 48. | FI | Finlandiya | 38,10 | 7,80 |
| 48.1. | AX | -Aland adaları | 19,70 | 11,00 |
| 49. | FR | Fransa (Monako, Andorra) | 33,20 | 6,70 |
| 49.1. | GF | -Qviana (Fransa) | 43,50 | 20,00 |
| 49.2. | PF | -Polineziya (Fransa) | 41,30 | 35,50 |
| 49.3. | GP | -Qvadelupa | 43,50 | 19,50 |
| 49.4. | MQ | -Martinika | 43,50 | 19,70 |
| 49.5. | YT | -Mayotte | 42,30 | 24,20 |
| 49.6. | NC | -Yeni Kaledoniya | 38,30 | 36,60 |
| 49.7. | RE | -Reunyon | 35,60 | 23,80 |
| 49.8. | PM | -Sent Pyer və Mikalon | 43,50 | 21,60 |
| 49.9. | WF | -Uillis və Futuna | 35,50 | 38,70 |
| 50. | GE | Gürcüstan | 32,40 | 6,50 |
| 51. | HT | Haiti | 29,00 | 20,30 |
| 52. | IN | Hindistan | 29,30 | 8,30 |
| 53. | HN | Honduras | 29,80 | 23,50 |
| 54. | HR | Xorvatiya | 22,30 | 6,30 |
| 55. | ID | İndoneziya | 25,10 | 12,90 |
| 56. | JO | İordaniya | 21,00 | 9,20 |
| 57. | IQ | İraq | 21,10 | 7,50 |
| 58. | IR | İran | 34,10 | 4,90 |
| 59. | IE | İrlandiya | 29,40 | 8,70 |
| 60. | IS | İslandiya | 49,80 | 11,80 |
| 61. | ES | İspaniya (Kanar adaları) | 29,90 | 9,50 |
| 62. | IL | İsrail | 27,70 | 7,40 |
| 63. | SE | İsveç | 36,40 | 7,40 |
| 64. | CH | İsveçrə | 27,50 | 6,90 |
| 65. | IT | İtaliya | 28,10 | 7,20 |
| 66. | CV | Kabo-Verde | 34,10 | 15,50 |
| 67. | KH | Kamboca | 22,30 | 20,90 |
| 68. | CM | Kamerun | 25,40 | 18,40 |
| 69. | CA | Kanada | 28,40 | 15,50 |
| 70. | KE | Kenya | 26,50 | 14,00 |
| 71. | CY | Kipr | 26,50 | 9,50 |
| 72. | KI | Kiribati | 22,40 | 32,70 |
| 73. | CO | Kolumbiya | 37,70 | 25,80 |
| 74. | KM | Komor adaları | 20,30 | 15,90 |
| 75. | CG | Konqo | 21,50 | 18,60 |
| 76. | CD | Konqo Dem. Respublikası | 27,60 | 20,70 |
| 77. | KR | Koreya (Cənubi) | 27,00 | 9,80 |
| 78. | KP | Koreya XDR | 28,00 | 22,00 |
| 79. | CR | Kosta Rika | 39,40 | 26,10 |
| 80. | CI | Kot Divuar | 24,10 | 21,10 |
| 81. | CU | Kuba | 23,30 | 21,90 |
| 82. | KW | Küveyt | 21,30 | 9,50 |
| 83. | GA | Qabon | 25,10 | 20,70 |
| 84. | GM | Qambiya | 34,20 | 14,00 |
| 85. | GH | Qana | 34,70 | 21,70 |
| 86. | GY | Qayana | 26,10 | 35,00 |
| 87. | QA | Qatar | 22,20 | 7,60 |
| 88. | KZ | Qazaxıstan | 27,80 | 15,20 |
| 89. | KG | Qırğızıstan | 21,60 | 6,90 |
| 90. | GD | Qrenada | 28,00 | 19,60 |
| 91. | GT | Qvatemala | 28,00 | 23,10 |
| 92. | GN | Qvineya | 33,10 | 15,40 |
| 93. | GW | Qvineya-Bissau | 40,60 | 14,40 |
| 94. | LA | Laos | 24,10 | 21,60 |
| 95. | LV | Latviya | 21,20 | 10,20 |
| 96. | LS | Lesoto | 28,10 | 22,00 |
| 97. | LR | Liberiya | 28,90 | 15,40 |
| 98. | LI | Lixtenşteyn | 28,00 | 7,00 |
| 99. | LT | Litva | 30,00 | 11,70 |
| 100. | LB | Livan | 26,60 | 6,80 |
| 101. | LY | Liviya Camahiriyyəsi | 26,00 | 8,70 |
| 102. | LU | Lüksemburq | 30,00 | 6,60 |
| 103. | HU | Macarıstan | 30,30 | 7,70 |
| 104. | MG | Madaqaskar | 30,40 | 18,00 |
| 105. | MK | Makedoniya | 23,60 | 8,20 |
| 106. | MW | Malavi | 29,80 | 18,80 |
| 107. | MY | Malayziya | 24,10 | 10,00 |
| 108. | MV | Maldiv | 25,30 | 13,50 |
| 109. | ML | Mali | 31,60 | 14,90 |
| 110. | MT | Malta | 26,60 | 12,50 |
| 111. | MU | Mavrikiy | 24,80 | 17,90 |
| 112. | MR | Mavritaniya | 36,30 | 14,80 |
| 113. | MX | Meksika | 23,30 | 16,80 |
| 114. | MA | Mərakeş | 24,90 | 11,30 |
| 115. | CF | Mərkəzi Afrika | 35,60 | 15,30 |
| 116. | EG | Misir | 24,90 | 10,20 |
| 117. | MD | Moldova | 28,70 | 11,00 |
| 118. | MN | Monqolustan | 31,50 | 16,50 |
| 119. | ME | Monteneqro | 28,40 | 8,20 |
| 120. | MZ | Mozambik | 30,00 | 21,00 |
| 121. | MM | Myanma | 22,80 | 20,50 |
| 122. | NA | Namibiya | 33,30 | 21,20 |
| 123. | NR | Nauru | 19,70 | 26,00 |
| 124. | NP | Nepal | 28,80 | 18,40 |
| 125. | NL | Niderland | 29,40 | 6,70 |
| 125.1. | AW | -Aruba | 29,90 | 21,20 |
| 125.2. | CW | -Kürasao (Bonayre, Saba) | 34,00 | 22,90 |
| 126. | NE | Niger | 29,10 | 14,30 |
| 127. | NG | Nigeriya | 33,90 | 15,60 |
| 128. | NI | Nikaraqua | 30,20 | 24,10 |
| 129. | NO | Norveç | 40,10 | 8,90 |
| 130. | OM | Oman | 25,90 | 8,70 |
| 131. | UZ | Özbəkistan | 38,20 | 7,50 |
| 132. | PK | Pakistan | 23,90 | 11,40 |
| 133. | PA | Panama | 28,20 | 22,90 |
| 134. | PG | Papua-Yeni Qvineya | 42,60 | 35,30 |
| 135. | PY | Paraqvay | 30,30 | 27,40 |
| 136. | PE | Peru | 35,70 | 28,50 |
| 137. | PL | Polşa | 27,90 | 7,80 |
| 138. | PT | Portuqaliya (Azor və Madeyra) | 32,10 | 9,00 |
| 139. | RW | Ruanda | 24,90 | 17,30 |
| 140. | RO | Rumınıya | 33,10 | 8,40 |
| 141. | RU | Rusiya Federasiyası | 40,10 | 10,00 |
| 142. | SV | Salvador | 30,20 | 23,70 |
| 143. | WS | Samoa (Qərbi) | 23,60 | 34,60 |
| 144. | ST | San-Tome və Prinsipi | 30,10 | 16,20 |
| 145. | KN | Sent-Kristofer və Nevis | 29,10 | 19,20 |
| 146. | LC | Sent-Lüsiya | 29,20 | 19,40 |
| 147. | VC | Sent-Vinsent və Qrenadina | 29,40 | 21,90 |
| 148. | SN | Seneqal | 32,30 | 14,70 |
| 149. | RS | Serbiya | 30,80 | 6,70 |
| 150. | SC | Seyşel adaları | 22,30 | 13,80 |
| 151. | SA | Səudiyyə Ərəbistanı | 18,00 | 9,40 |
| 152. | SL | Sierra-Leone | 31,80 | 15,40 |
| 153. | SG | Sinqapur | 24,10 | 10,00 |
| 154. | SX | Sint-Marten | 20,50 | 20,80 |
| 155. | SK | Slovakiya | 22,80 | 6,30 |
| 156. | SI | Sloveniya | 24,10 | 6,60 |
| 157. | SB | Solomon adaları | 20,90 | 27,00 |
| 158. | SO | Somali | 19,70 | 16,30 |
| 159. | SD | Sudan | 27,00 | 10,20 |
| 160. | SR | Surinam | 28,40 | 20,30 |
| 161. | SY | Suriya | 32,30 | 12,30 |
| 162. | SZ | Svazilend (Esvatini) | 24,70 | 21,80 |
| 163. | LK | Şri Lanka | 22,60 | 13,80 |
| 164. | TJ | Tacikistan | 20,80 | 11,50 |
| 165. | TH | Tailand | 23,20 | 21,10 |
| 166. | TZ | Tanzaniya | 24,20 | 15,80 |
| 167. | TL | Timor-Leşte | 28,00 | 26,30 |
| 168. | TG | Toqo | 34,60 | 15,30 |
| 169. | TO | Tonqa | 22,70 | 28,50 |
| 170. | TT | Trinidad və Tobaqo | 28,90 | 20,40 |
| 171. | TN | Tunis | 28,30 | 10,10 |
| 172. | TV | Tuvalu | 19,70 | 29,20 |
| 173. | TR | Türkiyə | 17,80 | 4,90 |
| 174. | TM | Türkmənistan | 19,70 | 6,60 |
| 175. | UA | Ukrayna | 35,40 | 6,70 |
| 176. | UG | Uqanda | 25,40 | 15,20 |
| 177. | UY | Uruqvay | 33,80 | 19,70 |
| 178. | VU | Vanuatu | 20,20 | 26,40 |
| 179. | VA | Vatikan | 26,00 | 6,90 |
| 180. | VE | Venesuela | 31,60 | 21,60 |
| 181. | VN | Vyetnam | 21,00 | 10,90 |
| 182. | JM | Yamayka | 33,90 | 22,20 |
| 183. | JP | Yaponiya | 26,00 | 10,50 |
| 184. | NZ | Yeni Zelandiya | 29,70 | 22,60 |
| 184.1. | CK | -Kuk adaları | 47,90 | 33,90 |
| 185. | YE | Yəmən | 29,70 | 16,70 |
| 186. | GR | Yunanıstan | 24,40 | 8,00 |
| 187. | ZM | Zambiya | 23,80 | 19,10 |
| 188. | ZW | Zimbabve | 31,60 | 20,70 |

**Qeyd:** Bağlamanın göndərilmə haqqı təyinat ölkəsindən asılı olaraq bağlamaya görə sabit tarifə onun faktiki çəkisinin kiloqramına (0,1-ə qədər dəqiqliklə götürülmüş) görə tarifin əlavə olunması yolu ilə müəyyən edilir.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 32 (30436) 13 fevral 2024-cü il, çərşənbə axşamı

# Mir Möhsün Nəvvab – Şuşa bilicisi



**Mir Möhsün Nəvvab (1833-1918) Şuşa şəhərində yaşayıb–yaratmış istedadlı şair, rəssam, astronom, ədəbiyyatşünas, nəqqaş, tarixçi, xəttat və musiqişünas olub. Azərbaycan dilində yazdığı "Rəqəmlərin izahı" əsəri bütün Şərqdə bu qəbildən yaradılmış ən uğurlu risalələrdən sayılır. M.M.Nəvvab mütərəqqi fikirli ziyalı kimi doğma Şuşanın mədəni və ictimai həyatında fəal iştirak edib. Çoxlu şeirlər yazıb, özünün açdığı mətbəədə kitablar nəşr edib, dərs deyib, elm və incəsənətin müxtəlif sahələrinə həsr olunmuş 20-dən artıq əsər yazıb. Bu gün oxuculara xalqımızın bu dəyərli, vətənpərvər ziyalısı ilə bağlı xatirələri təqdim edirik.**

### Musiqi ruhi məlhəmdir

Müasirləri yazırlar ki, Nəvvab musiqiyə qulaq asmağı, muğamatı dinləməyi çox sevərdi. Hətta xanəndənin təsirli səsindən bəzən gözləri yaşararmış. Dövrünün bütün xanəndələri ilə dost imiş. Mir Möhsün bu barədə söz düşəndə deyərdi:

– İnsanın musiqidən aldığı həzzi başqa heç şeylə əvəz etmək olmaz. Gör, nə günə qalmışıq ki, bizi dünyanın ən gözəl hissindən məhrum etməyə çalışırlar. Musiqidən nəinki insanlar, hətta quşlar da təsirlənir. Lazım olduqda, musiqi ilə müalicə də edirlər.

Nəvvab həmişə fəxrlə qeyd edirdi ki, onun xəstə könlünü daim ilhamlandıran, yaşadan məhz musiqidir. O, milli musiqimizin beşiyi olan Şuşada doğulduğu və bütün ömrü boyu burada yaşadığı üçün sonsuz qürur duyurdu.

### Halallıq, gözütoxluq

Şuşada bir çoxları Nəvvabı kimyagər, öncəgörən, hər şeydən xəbəri olan bir şəxs hesab edirdilər. Bir gün dostları onu sınamaq üçün bir torba qızılı gətirib Nəvvabın yaşadığı evin damında gizlədirlər. Nəvvab bundan xəbər tutanda düzəltdiyi üstürlab vasitəsilə onun başı üstündə nəsə olduğunu "görür". Əvvəlcə gözlərinə inanmır, ikinci dəfə baxır, təəccüblənir və dəhşətə gəlir.

Sonra şəhərin ən hörmətli şəxslərindən birini çağırıb deyir:

– Dələduzlar qızılı gətirib evimin damında gizlədiblər. İndi də mənə sataşırlar?

– Narahat olmayın, ağa, sizə sataşmaq yox, sizi sınamaq istəyiblər, – deyə həmin şəxs söyləyir.

### Üzümlə müalicə

Nəvvab gənc yaşlarında qaraciyər xəstəliyinə tutulur. Çoxları onun tezliklə dünyasını dəyişəcəyini düşünürlər. Lakin Nəvab ruhdan düşmür, özünün hazırladığı müalicə üsulu sayəsində 85 il ömür sürür.

Nəvvabın qaraciyər xəstəliyinə qarşı müalicəsi çox sadə imiş: Birinci, özünün müəyyən etdiyi sərt rejimə əməl etmək, ikincisi, rejimdən kənara çıxmamaqla, il ərzində hər gün üzüm yemək.

Nəvvab ilin bütün fəsillərində üzüm yeməkdən ötrü otağın zirzəmisində əvvəldən kifayət qədər üzüm saxlayırmış.

**Z.HÜSEYNLİ**
**XQ**

# Bədii gimnastlarımız 10 medal qazanıblar



**Azərbaycanın bədii gimnastları Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilmiş "Queen Cup" beynəlxalq turnirində 10 medal qazanıblar.**

Azərbaycan Gimnastika Federasiyasından mətbuata verilən məlumata görə, "Ocaq Sport" klubunun təmsilçilərindən yeddisi qızıl, biri gümüş, ikisi isə bürünc mükafata sahib çıxıblar.



Neslihan Əkbərli alətsiz, Alsu Abdullayeva lentlə, Nuray Məmmədova topla hərəkətlərdə fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. İnara Abıyeva gürzlərlə hərəkətlərdə qızıl, alətsiz çıxışda bürünc, Aylin Yusifli isə gürzlərlə hərəkətlərdə gümüş, topla hərəkətlərin icrasında bürünc medallara layiq görülüblər.

**XQ**

# "Bir səs, bir ürək"

## Kiprli musiqiçilərin Naxçıvanın yubileyinə töhfəsi



**Şimali Kipr Türk Respublikasının Çağdaş Musiqi Dərnəyinin xor kollektivi Naxçıvanda konsert proqramı ilə çıxış edib. Naxçıvan Dövlət Universitetinin konservatoriyasında təşkil olunan "Bir səs, bir ürək" adlı konsert proqramı Muxtar Respublikanın yaranmasının 100 illiyinə həsr olunub.**

Azərbaycan-Şimali Kipr Dostluq Cəmiyyətinin sədri Orxan Həsənoğlu Azərbaycan xalqının Şimali Kipr Türk Respublikasına qarşı hər zaman sevgiylə yanaşdığını və qardaşlıq əlaqələrinin möhkəm, sarsılmaz bağlarla qurulduğunu bildirib.

Türkiyə Respublikasının Naxçıvandakı baş konsulu Asip Kaya Naxçıvan Muxtar Respublikasının 100 illiyinin qeyd edilməsinin əhəmiyyətini vurğulayaraq, ölkəsinin daim Azərbaycanın yanında olduğunu bildirib.

Sonra Şimali Kipr Respublikasının Çağdaş Musiqi Dərnəyinin Türk Klassik Musiqisi kollektivinin ifasında rəngarəng musiqilər səsləndirilib.

Repertuarda yer almış klassik türk musiqisinin inciləri – "Sən uzaqlarda deyil, damarımda, qanımsan", "Vida busəsi", "Bülbülüm altın qəfəsdə", "Mağusa limanı", eləcə də Azərbaycan musiqisindən "Nazəndə sevgilim", "Ay qız" kimi mahnılar iştirakçılar tərəfindən alqış sədaları ilə qarşılanıb.

Sonda, Ersin Tünayın dirijorluğu ilə xor kollektivi "Azərbaycan" mahnısını ifa edərək iştirakçılara çoşğulu anlar yaşadıb.

**F.HÜQUQQIZI**
**XQ**

# İslandiyada vulkan püskürməsi

***İslandiyada vulkan püskürməsi nəticəsində lavanın qar sahələrini necə əhatə etdiyi ilə bağlı görüntülər qeydə alınıb. Dron vasitəsilə çəkilmiş videogörüntülər "Nation Geographic"ə məxsus pilotsuz uçuş aparatı ilə çəkilib.***

Heyrətamiz kadrlar sosial şəbəkələrdə böyük maraqla qarşılanıb.

Bir neçə gün əvvəl baş verən püskürmə nəticəsində lava əsas isti su borularını zədələyib. Bununla əlaqədar İslandiyada fövqəladə vəziyyət elan edilib. Ölkənin əsas turizm məkanlarından olan "Mavi laquna" geotermal kurortu da lava axını səbəbindən bağlanıb.



Qeyd edək ki, vulkan püskürməsi İslandiyada dekabr ayından bəri üçüncü dəfə baş verir.

**S.FİDAN**
**XQ**

# Azərbaycan – mədəniyyətlərarası dialoq və birgəyaşayış məkanı

**Çin Xalq Respublikasının "Voyage" jurnalı Azərbaycanı "2023-cü il üzrə Mədəniyyət Destinasiyası" mükafatına layiq görüb. Dövlət Turizm Agentliyindən mətbuata bildirilib ki, mükafatlandırma mərasimində Azərbaycanın mədəniyyətlərarası dialoq məkanı kimi tutduğu mövqe və nüfuzu xüsusi qeyd olunub.**

Tədbir zamanı UNESCO-nun Ümumdünya İrs Siyahısında yer alan Şirvanşahlar Sarayı və Qız qalası ilə birgə İçərişəhər, Qobustan Qayaüstü İncəsənəti Mədəni Landşaftı, Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi, "Xınalıq və Köç yolu" mədəni landşaftı kimi tarixi irs əraziləri haqqında geniş məlumat tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Sözügedən məkanlar haqqında informasiya Azərbaycan Turizm Bürosunun təşəbbüsü ilə "Voyage" jurnalının "Weibo" sosial platformasındakı səhifəsində dərc olunaraq milyonlarla səyahətçiyə Azərbaycanın tarixi və mədəniyyəti ilə tanış olmaq imkanı yaradıb. Bununla yanaşı, səhifədə həyata keçirilən təbliğat kampaniyası müddətində ölkəmiz cəlbedici destinasiya olaraq, ümumilikdə, 10,95 milyon insana nümayiş etdirilib.

Xatırladaq ki, Azərbaycan bundan əvvəl "Voyage" jurnalı tərəfindən "Dayanıqlılıq mükafatları 2022 – Mədəni irsin mühafizəsi" nominasiyası üzrə qalib elan olunub.

**XQ**



# Balqabağın şərbəti və hikməti

***Balqabaqdan hazırlanan şərbət tərəvəzin özü qədər faydalıdır. Bu resept qədim zamanlardan istifadə edilir. Şərbət elə balqabağın içində hazırlanır.***

Balqabaq baş tərəfdən qapaq kimi kəsilir, içindəki tumlar təmizlənir və oraya bal doldurulur. Qapaq üstünə qoyulur, sərin, qaranlıq bir yerə saxlanır. 2 gün müddətində şərbət əmələ gəlir.

Şərbət şüşə bir qaba tökülüb soyuducuda saxlanır. Bu şərbətdən səhər ac qarına 100 qram içilir. Qan azlığı olanlar axşam yatmazdan əvvəl də 100 qram içə bilərlər.

Balqabağın tərkibindəki bütün aktiv maddələr bu şərbətin içində var. Şirə gözləri işıqlandırır, tük tökülməsi zamanı faydalıdır, həmçinin təbii antioksidantdır. Dəmir, sink isə qan azlığı, halsızlıq, yorğunluq, başgicəllənmələri zamanı faydalıdır.

Tərəvəz damarların iç divarını təmizləyir, pis xolesterin səviyyəsini aşağı salır, bağırsaq qurdlarına qarşı, dalaq və qaraciyər böyüməsi zamanı faydalıdır.



Böyrək çatışmazlığında və iltihabında, prostat vəzin böyüməsi zamanı istifadə edilir. İmmuniteti yüksəldir, sonsuzluq zamanı da faydalıdır.

**Z.BAYRAM**
**XQ**

# Yağıntı olmayacaq, dumanlı keçəcək



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən fevralın 13-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Bəzi yerlərdə arabir duman olacaq. Mülayim cənub-şərq küləyi əsəcək. Gecə 4-7°, gündüz 11-16° isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunundan 753 mm civə sütununa enəcək, nisbi rütubət 65-75 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 3-8°, gündüz 17-22°, dağlarda gecə 0-5°, gündüz 8-13° isti olacaq.

**Q.QASIMOV**
**XQ**

# ALLAH RƏHMƏT ELƏSİN

Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) maliyyə və audit kafedrasının müdiri, "Professorlar klubu" rəyasət heyətinin sədri, professor Əvəz Ələkbərov Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general–polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Azərsu" ASC-nin kollektivi Qarabağ Regional Sukanal İdarəsi rəisinin müavini Oqtay Həziyevə anası

**MİNARƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3492
SİFARİŞ 341
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır
00:00